Ramiz ƏSKƏR

Əlişir Nəvayi
və onun xəmsəsi

Filologiya fakültəsinin
əyani şöbəsi üçün
metodik vəsait

Bakı Dövlət Universiteti rektorunun
15.12.2019-cu il tarixli R-27 saylı
əmri ilə nəşr hüququ verilmişdir.

Bakı – 2020

Uluslararası Türk Kültürü Təşkilatı

TÜRKSOY kitabxanası seriyası – 39

Azərbaycan Milli Elmlər Akademiyası Folklor İnstitutu Elmi Şurasının qərarı ilə nəşr edilir

Elmi redaktor:
AMEA-nın həqiqi üzvü,
Pr. Dr. İsa HƏBİBBƏYLİ

Rəyçi:
Pr. Dr. Dilnəvaz YUSUPOVA,
Dos. Dr. Nailə ƏSKƏR

Ramiz Əskər. Əlişir Nəvayi və onun xəmsəsi. Bakı, 2020, 96 s. (metodik vəsait)

Dahi özbək şairi və mütəfəkkiri Əlişir Nəvayinin yaradıcılığı Azərbaycanda yaxşı tanınır, sevilir, tədqiq və tədris edilir. Türk xalqlarının, o cümlədən Azərbaycan və özbək xalqlarının ədəbi-bədii əlaqələri ümumi tarixi-mədəni və ictimai-siyasi yaxınlıq və etnik qohumluqla şərtlənir. Çoxəsrlik tarixə malik bu əlaqələr hələ Nəvayinin sağlığında başlamışdır. Çağatay türkcəsində Seyfi Sarayi, Xarəzmi, Səkkaki, Lütfi, Ətayi, Gədayi, Xocəndi, Sultan Hüseyn Bayqara, Babur, Bayram xan və bir sıra qüdrətli sənətkarlar yazıb-yaratsa da, onun tacı Əlişir Nəvayi dühasıdır.

Kitab ali məktəblərin filologiya fakültələrinin müəllimləri və tələbələri, habelə geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.

ISBN - 978-975-7213-83-3

© Ramiz Əskər

TÜRK DÜNYASININ ƏN BÖYÜK ŞAİRİ

Şərq ədəbiyyatına çox zaman divan ədəbiyyatı adı verilir. Divan özü bir şairin əsərlərinin dibaçə ilə birlikdə ərəb əlifbası ardıcıllığı ilə (ilk misranın son hərfə görə) düzülməsi deməkdir. Buna mürəttəb (tərtibli) divan deyilir. Janr olaraq divan ədəbiyyatına qəsidə, qəzəl, qitə, müstəzad, mürəbbə, müxəmməs, müsəddəs, müsəbbə, tərkibənd, tərcibənd, rübai, tüyuğ, müəmma, dübeyti, müfrəd, məsnu şeir, müsərrə beyt və digər əsərlər daxil edilir. Bəzən divandakı şeirlər əlifba ardıcıllığı nəzərə alınmadan, həm də dibaçəsiz, gəlişi gözəl şəkildə düzülür. Baburun divanı buna misal ola bilər.

Ərəb şairlərindən Əbu Tayyib əl-Mütənəbbi, Əbül Üla Məəri, farsca yazan sənətkarlardan Nizami, Xaqani, Xəyyam, Sədi, Hafiz və Cami divan ədəbiyyatı sahəsində xüsusi yer tutmuşlar. Türklər islamı qəbul etdikdən, ərəb və fars ədəbiyyatına aşina olduqdan sonra divan ədəbiyyatına da meyl salmışlar. Türklərdən onlarca, yüzlərcə şair divan bağlamışdır. Bunların arasında taxt-tac sahibləri də olmuşdur. Məsələn, osmanlı xanədanı üzvlərindən Cəm Sultan (1459-1495), Yavuz Sultan Səlim (1466-1520), Sultan Süleyman (1494-1566, təxəllüsü “Mühibi”), Sultan Bəyazid (1525-1562, təxəllüsü “Şahi”), III Sultan Murad (1546-1594, təxəllüsü “Murad”), divan sahibi olmuşlar. Bizim şahlardan Qazi Bürhanəddin (1344-1398), Cahan Şah Həqiqi (1397-1467), Şah İsmayıl Xətayi (1487-1524), özbək hökmdarlarından Sultan Hüseyn Bayqara (1438-1506), Məhəmməd Şeybani xan (1451-1510), Zəhirəddin Məhəm-

məd Babur (1483-1530), Übeydulla xan (təxəllüsü "Übeydi", vəfatı 1539), Abdulla xan (təxəllüsü Əziz", ölümü 1551) da divan yazmışdır. Hökmdar olmayan, lakin poeziya səltənətində, könüllərdə taxttac quran yüzlərcə türk şairi vardır. Orta Asiyada Rəbğuzi, Sarayi, Səkkaki, Durbek, Lütfi, Heydər Xarəzmi, Ətayi, Gədayi, Məhəmməd Salih, Əhməd Mirzə, Yusif Əmiri, Yəqini, Mahmud Üveysi, Cahan Üveysi, Nadirə, Məhzunə, Babarəhim Məşrəb, Xocanəzər Hüveyda, Məhəmməd Şərif Gülxani və onlarca başqalarını, Azərbaycan-Anadolu sahəsində Sultan Vələd, Yunus Əmrə, Xoca Dəhhani, Əhməd Fəqih, Qul Əli, Aşiq Paşa, Aydınoğlu Məhməd, Yusif Məddah, Nəsimi, Füzuli, Kişvəri, Behişti, Çakəri, Müidi, Diyarbəkirli Xəlifə, Fikri Dərviş, Həmdullah Həmdi, Əhməd Ridvan, Cəlili, Taşlıcalı Yəhya, Lamii Çələbi və başqa əhli-qələmləri göstərmək olar.

Divanların xaricindəkı mənzum əsərlərin başında məsnəvilər gəlir. Məsnəvi hər iki beyti öz arasında qafiyəli olan, eyni vəznlə yazılmış bir janrın adıdır. Onun qafiyə quruluşu və təhkiyəyə uyğun olması hər mövzunu işləməyə imkan verir. Mövlana Cələləddin Ruminın ünlü **Məsnəviyi-mənəvi** adlı əsəri bu janrın ən parlaq və ən məşhur nümunəsidir.

Türk ədəbiyyatındakı ilk məsnəvilər dini-dastani mahiyyət daşıyır. Daha sonra öz mövzusunu müqəddəs kitablardan alan **Yusif və Züleyxa** kimi qoşa qəhrəmanlı eşq hekayələri bu janrın başlıca mövzusuna çevrilmişdir. Azərbaycan-Anadolu sahəsində **Yusif və Zəliha** (Həmdi Çələbi, Taşlıcalı Yəhya), **Leyli və Məcnun** (Füzuli), **Şəm və Pərvanə** (Zati), **Gül və Bülbül** (Fəzli) kimi çox gözəl eşq dastanları qələmə alınmışdır.

Klassik ədəbiyyatda bir çox istedadlı şair xəmsə (beş məsnəvi), hətta səba (yeddi məsnəvi) yazmışdır. Bu işi ilk dəfə dahi Azərbaycan şairi Nizami yerinə yetirmişdir. Onun **Sirlər xəzinəsi**, **Leyli**

və Məcnun, **Xosrov və Şirin**, **Yeddi gözəl** və **İskəndərnamə** mənzumələrindən ibarət xəmsəsi digər şairlər üçün örnək olmuşdur.

Osmanlı sahəsinin ilk xəmsə şairləri arasında Behişti, Çakəri, Müidi, Diyarbəkirli Xəlifə, Fikri Dərviş, Həmdullah Həmdi, Əhməd Ridvan, Cəlili, Taşlıcalı Yəhya və Lamii Çələbinin adları çəkilir. Hazırda Behiştinin **Leyla və Məcnun** məsnəvisi dışındakı **Yusif və Züleyxa**, **Hüsn və Nigar**, **Süheyl və Növbahar** adlı əsərləri hələ tapılmamışdır, **Vamiq və Əzra** isə nəsrlə qələmə alınmışdır. Çakərinin isə sadəcə **Yusif və Zəliha** məsnəvisi günümüzə gəlib çatmışdır. Mənbələrdə Müidinin xəmsəsi, hətta səbası olduğu yazılmasına baxmayaraq, onun yalnız **Şəm və Pərvanə** adlı məsnəvisi, Diyarbəkirli Xəlifənin **Leyla və Məcnun** ilə **Şəhrəngizi** məlumdur. Fikri Dərvişin qaynaqlarda adı çəkilən **Xurşid və Nahid**, **Bəhram və Zöhrə**, **Şükufəzar**, **Əbkari-əfkar** və **Xurşid və Mah** adlı məsnəviləri itib-batmışdır. Osmanlı ədəbiyyatında Akşəmsəddinin oğlu Həmdullah Həmdi (vəfatı 1503) xəmsəsiylə məşhur olmuşdur. Onun məsnəviləri bunlardır: **Yusif və Züleyxa**, **Leyla və Məcnun**, **Töhfət ül-üşşaq**, **Qiyafətnamə** və **Mövlid** olaraq da bilinən **Əhmədiyyə**. Özəlliklə **Yusif və Züleyxa** (1491/92) bu janrın ən gözəl örnəklərindəndir. O dövrün ünlü şairlərindən Əhməd Ridvanın divanı ilə yanaşı **İskəndərnamə**, **Leyla və Məcnun**, **Xosrov və Şirin**, **Ridvaniyyə** və **Məxzən ül-əsrar**dan ibarət xəmsəsi, əlavə **Həft peykər** adlı məsnəvisi var.

Xəmsəsi tam şəkildə əlimizə çatan şairlərdən biri Hamidizadə Cəlilidir. O, **Xosrov və Şirin** (1512) və **Leyla və Məcnun** (1514), **Güli-səd bərgi-bixar**, **Məhəknamə** və **Həcrnamə**dən ibarət xəmsə müəllifidir. Taşlıcalı Yəhya bəy də divan və xəmsə müəllifii kimi tanınır, **Gülşən ül-ənvar** (2900 beyt), **Gəncineyi-raz** (3000 beyt), **Üsulnamə** (3112 beyt), **Şah və Gəda**, **Yusif və Zəliha** (5179 beyt) adlı beş məsnəvisi ilə məşhurdur.

Bursalı Lamii Çələbinin **Fərhadnamə, Sələman və Əbsal**, **Vamiq və Əzra**, **Vis və Ramin**, **Guy və Çövkan** kimi qoşa qəhrəmanlı məsnəviləri ilə yanaşı **Məqtəli-imam Hüseyn** və **Bursa şəhrəngizi** vardır. Mənzum əsərlərə mənsur parçalar da əlavə edən Lamiinin digər məsnəviləri bunlardır: **Həft peykər**, **Münazireyi-Sultani-Bahar ba Şəhriyari-Şita**.

XVII əsrdə xəmsə tərtib edən tanınmış şairlərdən Növizadə Ətai (vəfatı 1635) özünün **Saqinamə** (**Aləmnüma**), **Nəfhat ül-əzhar**, **Söhbət ül-əbkar**, **Həft xan**, **Hilyət ül-əfkar** adlı məsnəviləri ilə bilini. Nərgisi isə (vəfatı 1635) mənsur və mənzum əsərlərini birləşdirərək xəmsə tərtib etmişdir.

Bəzi şairlər isə bir və ya bir neçə məsnəvi yazmışlar. Məsələn, Katibi (**Gülşən ül-əbrar**, **Leyli və Məcnun**, **Bəhram və Güləndam**), Hatifi (**Leyli və Məcnun**, **Şirin və Xosrov**, **Həft mənzər**, **Teymurnamə**), Hilali (**Sifət ül-aşiqin**, **Leyli və Məcnun**), Şeyxim Süheyli (**Leyli və Məcnun**), Əli Ahi (**Xəyal ü vüsal**) məsnəvilər meydana gətirmişlər.

x x x

Dünya poeziyasının ən ulu şairlərindən biri olan Nizaməddin Əlişir Nəvayi 1441-ci ilin 9 fevralında Teymur səltənətinin əsas mədəniyyət mərkəzlərindən biri olan Herat şəhərində doğulmuşdur. Babası Əbu Səid Çəng və atası Qiyasəddin Kiçginə Bahadır dövrün tanınmış adamlarından idi. Atası Əlişir gələcəyin hökmdarı və şairi məşhur Sultan Hüseyn Bayqara ilə bir sinifdə oxumuş və onunla göyəldaş (süd qardaşı) olmuşdur. Ailəsi ilə birlikdə İraqda, Xorasanda və Səmərqənddə olarkən mükəmməl təhsil alan, ərəb və fars dillərini, o dövrün elmlərini mükəmməl öyrənən Nəvayi gənc yaşlarından dövlət qulluğuna girərək müxtəlif saraylarda xidmət etmiş, nəyahət, Heratda tac qoyan Sultan Hüseyn Bayqaranın dəvəti ilə saraya gələrək əvvəlcə möhürdar, sonra vali, daha sonra vəzir olmuşdur. Arada dövlət qulluğundan istefa edərək bədii yaradıcılıqla

məşğul olmuş, ancaq Sultan Hüseyn onu israrla yenidən saraya baş vəzir vəzifəsinə dəvət etmişdir.

Dahi özbək şairi və mütəfəkkiri Əlişir Nəvayinin yaradıcılığı Azərbaycanda yaxşı tanınır və sevilir. Türk xalqlarının, o cümlədən Azərbaycan və özbək xalqlarının ədəbi-bədii əlaqələri ümumi tarixi-mədəni və ictimai-siyasi yaxınlıq və etnik qohumluqla şərtlənir. Çoxəsrlik tarixə malik bu əlaqələr hələ Nəvayinin sağlığında başlamışdır. Çağatay türkcəsində Seyfi Sarayi, Xarəzmi, Səkkaki, Lütfi, Ətayi, Gədayi, Xocəndi, Sultan Hüseyn Bayqara, Babur, Bayram xan və bir sıra qüdrətli sənətkarlar yazıb-yaratsa da, onun tacı Əlişir Nəvayi dühasıdır.

Bir çox Azərbaycan şairi Nəvayinin misilsiz əsərlərinə nəzirələr yazmışdır. Məsələn, böyük Füzuli onun şeirlərinə təxmislər, Qövsi Təbrizi, Kişvəri, Həqiqi kimi söz ustaları isə Nəvayinin təsiri altında çağatay dilində şeirlər qələmə almışlar. Məşhur ədəbiyyatşünasımız Firudin bəy Köçərlinin yazdığına görə, şairlərimiz bu ənənəni XIX əsrə qədər davam etdirmişlər. Onların arasında Qarabağdan Abdulla bəy Asi, Həsən Qara Hadi və Mirzə Ələsgər Növrəs, Şamaxıdan Hacı Seyid Əzim, Qazaxdan Kazım ağa Salik, Dərbənddən Mirzə Cərbail Sipehri kimi şairləri göstərmək olar.

Bunu xüsusi olaraq qeyd etmək lazımdır ki, Azərbaycan-özbək ədəbi əlaqələri tarixində Əlişir Nəvayinin yaradıcılığı müstəsna yer tutur. Onun adı yazılı şəkildə ilk dəfə 1907-ci ildə çəkilmişdir. Həmin il "Dəbistan" jurnalının redaktoru Ə.Həsənzadə ölümsüz şair haqqında silsilə məqalələr yazmışdır. Bunun ardınca "Dirilik" jurnalında, "Yeni yol" qəzetində və başqa mətbu orqanların səhifələrində Nəvayi haqqında yazılar dərc edilmişdir. Azərbaycanın görkəmli elm və mədəniyyət xadimləri, o cümlədən Firudin bəy Köçərli, Bəkir Çobanzadə, Əli Nazim, Salman Mümtaz, Həmid Araslı, Səməd Vurğun, Mirzə İbrahimov, Məmməd Arif, Süleyman Rüstəm, Pənah Xəlilov, Məmmədağa Sultanov, Əlyar Səfərli, Cənnət

Nağıyeva, Qulamhüseyn Beqdeli, Məmməd Bəktaşi, Nüşabə Araslı, Sabir Əliyev, Salih Qasımov, Mahmud Yunusov, Ələkbər Ziyatay, Mirzəağa Quluzadə, Əli Saləddin, Əbülfəz Rəhimov, Elman Quliyev, Tərlan Quliyev, Yaşar Qasımov, Siracəddin Hacı, Akif Azalp, Səadət Şıxıyeva və başqaları Nəvayi və onun sənəti haqqında dəyərli tədqiqat işləri aparmışlar. Bunların arasında akademik Həmid Araslı xüsusi yer tutur. O, qəzet və jurnal səhifələrində, kitab və monoqrafiyalarında Nəvayi yaradıcılığını dərindən təhlil etmiş, Nizami, Nəvayi və Füzulinin ideyaları və obrazları haqqında geniş söhbət açmışdır.

Mərhum nəvayişünas, filologiya elmləri doktoru, professor Cənnət Nağıyeva da uzun illər Azərbaycan-özbək ədəbi əlaqələrinin tədqiqi ilə məşğul olmuş, 60-dan çox elmi məqalə, bir neçə kitab və monoqrafiya, sanballı doktorluq işi yazmışdır.

Müasir dövrdə Nəvayi yaradıcılığı ilə intensiv şəkildə məşğul olan alimlərdən biri də filologiya elmləri doktoru Almaz Ülvidir. Onun bu sahədə bir neçə maraqlı kitabı, o cümlədən «Azərbaycan-özbək (cığatay) ədəbi əlaqələri (dövrlər, simalar, janrlar, təmayüllər)», “Özbək ədəbiyyatı (ədəbi portret cizgiləri, araşdırmalar, müsahibələr)”, “O’zbek adabiyoti va Ozarbayjon (tadqiqotlar, adabiy portretlar)” adlı monoqrafiyaları işıq üzü görmüşdür.

Əldə edilən uğrlara baxmayaraq bu sahədə öz həllini gözləyən bəzi məsələlər də var. Məsələn, alimlərimiz türk və Orta Asiya renessansının bir sıra problemlərini, o cümlədən bu intibahın xüsusiyyətləri və orijinallığı, ideya-bədii mənbələri, etik-estetik idealları, poetik obrazları və fiqurları, inkişaf mərhələləri, digər nəzəri və tarixi-ədəbi aspektlərini az tədqiq etmişlər. Öz həllini gözləyən məsələlərdən biri də tərcümədir. Özbək ədəbiyyatının Azərbaycan dilinə müasir mənada tərcüməsi sovet dövründə başlamışdır.

XX əsrin 30-cu illərinə qədər Sovet İttifaqının türk xalqları vahid ərəb əlifbasından istifadə etmişlər. Onların dilləri hələ bir-bi-

rinə çox yaxın idi və savadlı adamlar orijinalda oxuduqları ədəbi nümunələri xüsusi çətinlik çəkmədən başa düşürdülər. Latın, sonra isə kiril əlifbalarına keçməklə yazımız tanınmaz hala düşdü. Üstəlik, sovet sistemi türk xalqlarını hər vəchlə bir-birindın ayırır, yerli ləhcələri süni şəkildə müstəqil ədəbi dil halına gətirir, bunula da ünsiyyət sahəsində maneələr yaradırdı.

XX əsrdə maarif və təhsilin coşğun inkişafı ilə türk coğrafiyasında müxtəlif dillər formalaşdı. Stalinizm dövründə qanlı bolşevik inqilabı, proletar diktaturası, kolxoz hərəkatı, mənhus mədəni inqilab fonunda gerçəkləşdirilən repressiyalar, nəhayət, ikinci dünya müharibəsi türk xalqları arasındakı mədəni və ədəbi əlaqələri arxa plana keçirdi. Nizaminin və Nəvayinin yubileyləri istisna olmaqla elə bir ciddi mədəni tədbirlər keçirilmədi. Ancaq elə o dövrdən etibarən intensiv və davamlı olmasa da, ara-sıra türk dilləri arasında tərcümələr də başlandı. Təbii ki, burada əsas yeri yeni yaranmaqda olan proletar ədəbiyyatı nümunələri, inqilabı vəsf edən əsərlər və kolxozu təbliğ edən romanlar tuturdu.

Qeyd edək ki, Nəvayi əsərlərinin ana dilimizə tərcüməsi ən aktual məsələlərdən biridir. Bu sahədə ciddi çatışmazlıqlar mövcuddur. Biz tərcümə deyərkən indiki halda transliterasiya, çevirmə və nəqletməni nəzərdə tuturuq. Hətta bu variantda belə Nəvayi əsərlərinin böyük əksəriyyəti ölkəmizdə nəşr edilməmişdir. Müxtəlif illərdə onun Bakıda **Vəqfiyyə (1926), Münşəat (1926), Fərhad və Şirin (1948, 1968), Yeddi səyyarə (1947, 1979), Mühakimət üllüğəteyn (1982), Mizanül-övzan (2006), Seçilmiş şeirləri (1975), Seçilmiş əsərləri (2004)** işıq üzü görmüşdür. Ancaq Fərhad və Şirini, eləcə də Yeddi səyyarəni tərcümə adlandırmaq çətindir. Bu poemalarda əruz və qafiyə sistemi qorunmamış, beytlər mənaya görə heca vəznində çevrilmişdir. Bugünə qədər biz ana dilimizdə nə **Heyrət ül-əbrar**ı, nə **Leyli və Məcnun**u, nə də **Səddi-İskəndəri** poemasını oxuya bilirik.

Böyük şairin divanları (Qəraib üs-siğər, Nəvadir üş-şəbab, Bədayi ül-vəsət, Fəvaid ül-kibər və farsca divanı) hələ də öz tərcüməsini gözləyir. Nəvayinin Məcalis ün-nəfais, Nəsaim ül-məhəbbət adlı iki təzkirəsinin tezliklə tərcümə edilməsi vacibdir, çünki onlarda o dövrün ədibləri haqqında son dərəcə qiymətli materiallar var. Şairin dildən bəhs edən **Mühakimət ül-lüğəteyn** kitabı dilimizə qazandırılsa da, bunu ədəbiyyatdan bəhs edən **Risaleyi-müəmmas**ı haqqında demək mümkün deyil. Ulu mütəfəkkirin dini-didaktik əsərləri (**Münacat**, **Çehel hədis**, **Nəzm ül-cəvahir**, **Lisan üt-teyr**, **Sirac ül-müslimin**, **Məhbub ül-qülub**) onun dərin fəlsəfi görüşlərini əks etdirməsi baxımından çox maraqlıdır; bunları da çevirmək vacibdir. Eyni sözləri Nəvayinin tarixi əsərləri (**Tarixi-ənbiya və hükəma**, **Tarixi-müluki-Əcəm**, **Zübdət üt-təvarix**) haqqında da demək olar. Şairin bioqrafik (**Haləti-Seyyid Həsən Ərdəşir**, **Xəmsət ül-mütəhəyyirin**, **Haləti-Pəhləvan Məhəmməd**) və sənədli əsərləri də (**Münşəat** və **Vəqfiyyə**) öz tərcüməsini gözləyir. Bu mənada ilk addım olaraq Nəvayinin xəmsəsinin ana dilimizə çevrilməsi qardaş xalqlarımızın mədəni həyatında böyük bir hadisə olacaq.

Əlişir hələ kiçik ikən Şah Qsım Ənvarın şeirlərini əzbər bilmiş, Fəridəddin Əttarın **Məntiq üt-teyr** poemasını dərindən mütaliə etmiş, 15 yaşında özbək və tacik dillərində şeirlər yazmağa başlamışdır. O, ərəb, fars və türk dillərində özündən əvvəl yaranmış Şərq poetik irsini bütünlüklə mənimsəmişdir. Öz xəmsəsinin ilk əsəri olan **Heyrət ül-əbrar** poemasını 1483-cü ildə qırx iki yaşında qələmə almışdır. Lakin o vaxta qədər iki divan, çoxlu qəzəl və qəsidə yazmış, ədəbi aləmdə və xalq içində istedadlı sənətkar kimi tanınmış, geniş şöhrət tapmışdır. Onda qarşıya bir bir sual çıxır: Nəvayini xəmsə yazmağa nə vadar etmişdir?

Şərq şeirinin bilicisi olan Nəvayi o vaxta qədər irihəcmli epik əsərlər, yəni xəmsə yazan Nizami Gəncəvi (1141-1209) və

türk əsilli hind şairi Əmir Xosrov Dəhləvi (1253-1325, tam adı Əbülhəsən Yəminiddin Xosrov) sənəti haqqında geniş məlumata sahib idi. Onların siyasi, sosial, əxlaqi və ədəbi-sənət görüşlərini, etik-estetik ideallarını xəmsə vasitəsilə ifadə etmələri, mənzumələr qələmə almaqla və çoxşaxəli-çoxplanlı obrazlar sistemi yaratmaqla öz fikir və düşüncələrini cəmiyyətə daha dolğun şəkildə çatdırmaları Nəvayinin diqqətindən qaçmamışdır. Üstəlik, müasiri, sənət dostu və müəllimi Əbdürrəhman Caminin (1414-1492) Əlişirə xəmsə yazmağı tövsiyə etməsi, özünün də bu işə girişməsi, Sultan Hüseyn Bayqaranın da xəmsə yazmaq barədə məsləhət verməsi və Nəvayini dəstəkləməsi onda böyük ruh yüksəkliyi yaratmış, qol-qanad vermişdir. Böyük şair və mütəfəkkir xəlvətə çəkilmiş və nəticədə 1483-1485-ci illərdə **Heyrət ül-əbrar**, **Fərhad və Şirin**, **Leyli və Məcnun**, **Səbai səyyar** və **Səddi-İskəndəri** mənzumələrindən ibarət olan xəmsəsini vücuda gətirmişdir. Bunlardan **Heyrət ül-əbrar** poeması fəlsəfi-didaktik, **Fərhad və Şirin** aşiqanə-lirik, **Leyli və Məcnun** poeması eşqi-təsəvvüfi, **Səbai səyyar** eşqi-sərgüzəşti, **Səddi-İskəndəri** isə qəhrəmanlıq səciyyəsi daşıyır.

Nizami Gəncəvi öz xəmsəsini əxilik, Əmir Xosrov Dəhləvi isə çiştiyyə sufi ordeninin təsiri istiqamətində qələmə almışdır. Nəvayi də qayət təbii olaraq öz xəmsəsini islami əsaslara uyğun olaraq nəqşibəndilik sufi təriqətinin təsiri altında yazmışdır. Bu təriqətin hər üçü öz dövrü üçün mütərəqqi əhəmiyyət daşımışdır. Onu da qeyd edək ki, Nəvayi bu təriqətə dostu Əbdürrəhman Caminin vasitəsilə daxil olmuşdur.

Heyrət ül-əbrar bismillah, tövhid, 4 münacat, 5 nət, Şeyx Nizami Gəncəvi və Əmir Xosrov Dəhləviyə dair, Molla Əbdürrəhman Cami və **Heyrət ül-əbrar**ın yazılışı haqqında, söz haqqında, sözün mənası haqqında, Sultan Hüseyn Bayqara haqqında, könül haqında, 3 heyrət, Xacə Bəhaəddin Nəqşbənd haqqında, təsəvvüfi halətlərə dair, padşah və xidmətçinin hekayəsi və **Heyrət ül-əbra-**

rın adı və yazılma tarixi haqqında olan bablar dışında əsas etibarilə 20 məqalə və onlara bağlı 20 hekayədən ibarətdir. Bunu aşağıdakı şəkildə ifadə etmək mümkündür:

1 Müqəddimə: bismillah sözünün hərflərinin mənalandırılması.
2 Həmd: ulu yaradana həmd ü sənanın bəyanı.
3 1-ci münacat: Allah hər şeyin başlanğıcıdır. Onun külli aləmi var etməsinin əsas məqsədi yer üzünün əşrəfi insanı yaratmaqdır.
4 2-ci münacat: kainatdakı bütün varlığın qaynağı sənsən, Allahım, səndən başqa hər şey fanidir, müvəqqətidir.
5 3-cü münacat: adəmi və aləmi varlıq sarayından yoxluq evinə ancaq hər şeyə qadir olan Allah götürə bilər.
6 4-cü münacat: kərəm dəryasının və inayət rüzgarının dalğaları ancaq Allahın sayəsində hər kəsə həyat bəxş edir.
7 1-ci nət: peyğəmbərin dünyaya gəlməsindən, nuri-Məhəmməddən bəhs edir, o həzrətin nuru və cövhəri Adəmdən Abdullaha çatdı.
8 2-ci nət: peyğəmbərin gəncliyi, nübüvvətə çatması, onun güllərinin açılması və peyğəmbərlik meyvəsini verməsi haqqında.
9 3-cü nət: həzrəti-peyğəmbər yeddi iqlimi ələ alıb hakim oldu.
10 4-cü nət: onun risalət göyü yüksək, qüdrəti bütün aləmi saracaq qədər böyükdür. O, ayı şəqq etdi, kafirlər üzündən qürbətə getdi.
11 5-ci nət: peyğəmbərin merac gecəsindən bəhs edir.
12 Nizami Gəncəvi və Əmir Xosrov Dəhləvinin böyüklüyü haqqında.
13 Əbdürrəhman Cami və Heyrət ül-əbrar poemasının yazılışı haqqında.
14 Söz haqqında: sözün tərifi, nəzmi nəsrdən üstün tutmanın sə-

bəbi.

15 Sözün mənası haqqında: sözün mənası onun canıdır, o olmasa bədən cansız qalar. İnsanı heyvandan ayıran dil və sözdür.

16 Sultan Hüseyn Bayqara haqqında: qələm onun vəsfində acizdir, o, güc-qüdrətdə Rüstəmə, ədalətdə və kamalda Cəmşidə bənzəyir.

17 Könül haqqında: onu ancaq saf könüllü adamlar vəsf edə bilər.

18 1-ci heyrət: könlün yoxluq qaranlığından qurtulub varlıq işığı ilə nəfəs alması. Bu bab təsəvvüfi xarakter daşıyır.

19 2-ci heyrət: o quşun mülk aləmindən mələkut aləminə uçmağı arzu etməsi və heyrətdən özündən getməsi.

20 3-cü heyrət: o pərişan yolçunun mələkut aləmindən vücud ölkəsinə qayıtması və o mülkdə xilafət taxtında qərar tutması.

21 Xacə Bəhaəddin Nəqşibənd və onun xəlifəsi Xacə Übeydullah Əhrar haqqında söz.

22 1-ci məqalə: imanın nə olduğunun şərh edilməsi. İman Allahın bir olmasına, Məhəmmədin son peyğəmbər olmasına, mələklərə və səmavi kitablara, qiyamət gününə inanmaq deməkdir.

23 Həzrəti-Bəyazid Bistaminin hekayəsi, müridin ona iman haqqında sual verib cavab alması.

24 2-ci məqalə: islamın şərh edilməsi.

25 Həzrəti-İbrahim Ədhəmin və islamda ilk qadın övliya Rəbiyə Ədəviyyənin başına gələn qəribə əhvalatdan bəhs edir.

26 3-cü məqalə: sultanlar və idarəetmə haqqında. Şair sultana ədalətdən heç bir zaman uzaqlaşmamağı, daim adil olmağı tövsiyə edir.

27 Sultan Bayqara və qocanın hekayəsi. İllər əvvəl bir qocanın cavan oğlu öldürülmüşdü. O, Sultan Hüseyn Bayqaranı məh-

kəməyə verdi. Sulan məhkəməyə gəldi, günahım varsa, cəzamı çəkməyə hazıram dedi. Hamı buna heyrət elədi. Qoca davasından vaz keçdi.

28 4-cü məqalə: riyakar din adamlarına dair. Din və ibadət bu dünya üçün deyil, axirət və Allah üçündür. Mömin adam bunu qulağına sırğa etməli, riyakar din xadimlərinin hər sözünə inanmamalıdır.

29 Xacə Abdullah Ənsarinin sözü. İbadət qorxudan deyil, cənnətə girmək üçün deyil, Allahı tapmaq və ona qovuşmaq üçündür.

30 5-ci məqalə: səxavət və xəsislik haqqında. Cömərdlik və kərəm ülviyyət, xəsislik isə alçaqlıq əlamətidir.

31 Hatəm Tayi bir gün xalq üçün süfrə açmışdı, bu zaman bir adamın yük daşıdığını görüb ona dedi: o yükü yerə at və süfrəyə qoş. Adam dedi: Hatəmdən minnət çəkmək yerinə yük daşımağa hazıram.

32 6-cı məqalə: ədəb, həya, tərbiyə və təvazökarlığa dair.

33 Nuşirəvan və sevgilisinin hekayəsi. Nuşirəvan gənc ikən bir qıza vurulmuşdu. Bir gün qızı bağda görüb onu öpmək istədi, ancaq nərgizin onlara baxdığını görüb çox utandı və çıxıb getdi.

34 7-ci məqalə: qənaət haqqında.

35 Farsdan Çinə gedən iki gənc yolda iri bir daş gördü. Onun üstünə yazılmışdı ki, bu daşın altında çoxlu sərvət var. Gözütox gənc buna əhəmiyyət vermədən yoluna davam etdi. Tamahkar isə oranı qazdı, lakin heç nə tapa bilmədi. Gözütox gənc bir şəhərə gəldi, təsadüfən orada şah seçkisi vardı. Onu şah seçdilər.

36 8-ci məqalə: vəfa haqqında.

37 Hindistana yürüşü zamanı Teymur hamını qırmağı əmr etdi. Əskər iki sevgiliyə rast gəldi. Oğlan da, qız da birinci məni öl-

dür deyə ona yalvardı. Bu zaman qırğın haqqında əmr ləğv olundu.

38 9-cu məqalə: eşq atəşi barədə. Dünyanın yaradılma səbəbi eşqdir.

39 Şeyxi-İraqinin hekayəsi. İraq şeyxi Şamda bir valinin oğluna sonsuz və ülvi eşq duydu. Vali də, oğlu da ona mürid oldular.

40 10-cu məqalə: doğruluq haqqında. Yalançılıq müsəlmana yaraşmaz.

41 Turacla aslanın hekayəsi. Aslan turacı qorumağa söz vermişdi. Turac dəfələrlə onu yalandan köməyə çağırmışdı. Bir dəfə turacı gerçəkdən tutdular. Turac nə qədər çağırsa da, aslan onun köməyinə gəlmədi.

42 11-ci məqalə: elm və cəhalət haqqında. Alim günəşdir, cahil zəlildir.

43 İmam Fəxrəddin Razi və Sultan Məhəmməd Xarəzmşahın hekayəsi. Fəxrəddin Razi gəlib Xarəzmə yerləşmişdi, ancaq sultan onu ziyarət etməmişdi. İkisi bir dəfə hamamda rastlaşdılar. Razi dedi: qiyamət günü bu hamam kimi olacaq. Sənin sərvətin eynən buradaki kimi hamamdan kənarda, mənim elmim isə yanımda olacaq.

44 12-ci məqalə: qələmdən istifadəyə dair.

45 Şəhabəddin Sührəvərdi və Mötəsim Billahın hekayəsi. Sührəvərdi Bağdada gələndə xəlifə Mötəsim Billah onu hörmətlə qarşılayıb öz yanında taxtda oturdur. Birdən Sührəvərdi camaatın içində bir adamı görüb ona doğru gedir, qucaqlayıb öpür. Xəlifə soruşur: bu kimdir? Sührəvərdi deyir: o, Quran xəttatı Yaqutdur, əlləri və qələmi qızıldır.

46 13-cü məqalə: başqalarına kömək edənlər haqqında.

47 Əyyibi-Xələflə oğrunun hekayəsi. Əyyubi-Xələf ibadət edirdi, bir oğru lağım atıb evin ortasına çıxdı. Həzrətin ibadət etdiyini gördü, evdəki hər şeyi yığıb aparmaq istədi. Ancaq yük ki-

çik lağıma sigmadı. Həzrət qalxıb ona kömək etdi. Oğru tövbə edib ona mürid oldu.

48 14-cü məqalə: dünyanın vəfasızlığına dair.

49 İskəndərin yeddi iqlimi tutdu, ancaq dünyanı əliboş tərk etdi.

50 15-ci məqalə: içkiyə mübtəla olan cahillər haqqında.

51 Bəni-İsraildən içkiyə düşkün bir rindin hekayəsi. Bir rind dəfələrlə tövbə etsə də, içkini ata bilmirdi. Bir gün onun qulağına qeybdən bir səs gəldi: bu gün tövbə et, tövbən qəbul ediləcək. Elə də oldu.

52 16-cı məqalə: qəza meydanındakı mərdlər və namərdlər haqqında.

53 Bir gün üzü niqablı Abdullah Mübarək savaşda kafirlərə qalib gəldi, ancaq üzünü açmadı. Həsən Rəbi onun yanına gedib bunun səbəbini soruşdu. O dedi: mən Allah eşqinə vuruşdum, Allah da məni tanıyır.

54 17-ci məqalə: ömrün baharı və xəzanı haqqında.

55 İmam Zeynəlabidin və qızının hekayəsi. İmam balaca bir uşağı qucağına alıb öpəndə qızı şiddətlə ağladı. Səbəbini soruşanda belə deyir: bəs deyirdiniz Allahdan başqa heç kimi sevmisiniz. Bugün o uşağa göstərdiyiniz sevgi məni çox mütəəssir etdi.

56 18-ci məqalə: Dünya qəminə fikir verməmək və daim gülərüz olmaq, başqasının malına və namusuna göz dikməmək haqqında.

57 Çin xaqanı və aşiqin hekayəsi. Çin xaqanı aşiqləri sınağa çəkdi, bir nəfərin gerçək aşiq olduğunu gördü, onu yaxın adamlarından elədi.

58 19-cu məqalə: Xorasanın gözəllikləri və Heratın abadlığı haqqında. Bunlar Sultan Hüseyn Bayqaranın ədaləti və qayğısı ilə olmuşdur.

59 Yəzdigird oğlu Bəhramın və kəndlinin hekayəsi. Bəhram bir

gün ovda yolu azıb bir kəndə gəlir. Ev sahibi ona quru çörək və su verir. Bəhram bu kasıblığın səbəbini soruşur. Məlum olur ku, buna şahın adamları səbəb olmuşlar. Şahın gözü açılır, ədalət yenidən bərpa olur.

60 20-ci məqalə: Sultan Bədiüzzamana qəsidə və nəsihətlər. Şair gənc sultana ədalətli və tədbirli olması barədə öyüd-nəsihət verir.

61 Xacə Məhəmməd Parsa və oğlu Əbu Nəsrin hekayəsi. Həccə gedən zəvvarlar Xacə Məhəmməd Parsadan onlar üçün dua etməsini rica etdilər. Xacə də öz növbəsində bunu oğlu Xacə Əbu Nəsrdən xahiş elədi. Oğul atanın iltimasını yerinə yetirdi.

62 Təsəvvüfi halətlərə dair düşüncələr.

63 Padşahla xidmətçinin hekayəsi. “Heyrət ül-əbrar”ın adı və yazılma tarixi haqqında. Ayağı sürüşən bir xidmətçi əlindəki isti yeməyi şahın başına tökdü. Şah onu bağışladı. Səbəbini soruşanlara dedi: xəcalət onu zatən öldürüb, ölünü təkrar öldürmək caiz deyil.

Nəvayi 63 babdan birini dərin hörmət bəslədiyi, özünə ustad saydığı Nizami Gəncəviyə və Əmir Xosrov Dəhləviyə həsr etmişdir. Şair bu babın nəsr qismində belə deyir: “Həzrəti-Şeyx Nizami mədhində kim, nəzm mülkündə zor baz ü sərpəncəsi bilə pənc gənc nüqud ü cəvahirin aldı və Əmir Xosrov tə’rifində kim, bu cəvahir və nüqud təmə’indən pəncə onun pəncəsinə saldı”, yəni sadə dillə: nəzmdə güclü pəncəsi ilə beş xəzinəni nəqd şəkildə cövhərləri ilə birlikdə ələ keçirən həzrəti-Şeyx Nizaminin mədhi və bu cövhərləri və nəqdi əldə etmə arzusu ilə pəncəsini onun pəncəsinə salan Əmir Xosrov Dəhləvinin tərifi. Nəvayi bu babda xəmsə müəllifi olan bu iki söz sərkərdəsinə ən səmimi duyğularını bildirir, Nizamini söz dünyasını bir bayraq altında birləşdirən Gəncə günəşi kimi qiymətləndirərək belə yazır:

Gəncə günəşi ki, götürcək ələm,
Eylədi söz məmləkətin yekqələm.

Nəvayi xəzinə saçan Nizamini söz iqliminin şahı, Dəhləvini isə onun davamçısı və söz mülkünün xosrovu, yəni hökmdarı adlandırır:

Gəncə şahı gəncfəşan, peyrəv – ol,
Şah bu söz iqlimi ara, xosrov – ol.

Şairin fikrincə, dünyada Nizaminin **Sirlər xəzinəsi** əsəri kimi gövhər, Dəhləvinin **Mətlə ül-ənvar** əsəri kimi ulduz yoxdur:

Gövhəri yox **Məxzən ül-əsrar** tək,
Əxtəri yox **Mətlə' ül-ənvar** tək.

Əlişir Nəvayi yolçu ilə davamçıdan söz düşəndə həmişə Nizami Gəncəvi ilə Əmir Xosrov Dəhləvinin xatırlandığını göstərir:

Düşdü çü rəhrəv bilə peyrəvə söz,
Yetdi Nizami bilə Xosrovə söz.

Nəvayi öz əsərində müasiri və mürşidi Əbdürrəhman Camiyə də xüsusi bab ayırmış, ona da öz dərin ehtiramını izhar etmişdir. Şair yuxusunda Camini gördüyünü, ustadın ona öz xəmsəsinin ilk poeması olan **Töhfət ül-əbrar**ı göstərərək sevinc içində müjdə verdiyini söyləyir:

Gülgü bilə qıldı işarət mənə,
Töhfə bilə verdi bəşarət mənə.

Əlişir Nəvai farsca xəmsə yazan bu üç şairdən nümunə götürdüyünü, lakin öz əsərini türkcə qələmə aldığını söyləyir, farsların farsca xəmsələrdən yararlandığı kimi türklərin də bu xəmsədən feyziyab olmasını arzulayır, qədəm qoyduğu bu çətin yolda qələminə Nizamidən, Dəhləvidən və Camidən kömək istəyir, ona xeyir-dua vermələrini, mənəvu cəhətdən dəstəkləmələrini xahiş edir:

Farsi oldu çü onlara əda,
Türki ilə qılsam onu ibtida.

Farsi el tapdı çü xürsəndlik,
Türk dəxi tapsa bərüməndlik.

Mən ki tələb yolunda qoydum qədəm,
Vardır ümidim ki, çü tutsam qələm,

Yoldasa, bu yolda Nizami yolum,
Qoldasa, Xosrov bilə Cami qolum.

Əsərin adını və yazılma tarixini, eləcə də mənzuməni ithaf etdiyi Sultan Hüseyn Bayqaranın adını göstərən Nəvayi poemanı oxuyan hər kəsdən onun ruhunu dua ilə şad eləməsini xahiş edir:

Heyrəti-əbrar görüb zatını,
Heyrət ül-əbrar dedim adını.

Nükteyi-tarixi ki, əhsən idi,
Səkküz ü səkkiz yüz ü səksən idi.

Kim oxusa, ya qılar isə səvad,
Ruhum əgər qılsa dua birlə şad...

Qulluğu xanlara gəlib fərzi-eyn,
Xanlar ü şahlar şahı Sultan Hüseyn.

Dahi sənətkar nəzmlə nəsrin müqayisəsində üstünlüyü nəzmə vermiş və bunu Allah kəlamı Qur'ani-Kərimin yer üzünə məhz nəzm şəklində nazil olması ilə izah etmişdir:

Olmasa e'caz məqamında nəzm,
Olmaz idi Tanrı kəlamında nəzm.

Burada bir neçə məqama aydınlıq gətirmək lazımdır.

Heyrət ül-əbrar ilə **Sirlər xəzinəsi** arasında mövzu və süjet baxımından müqayisə və paralellər aparmaq mümkündür, ancaq bu, zahiri səciyyə daşıyacaq. Ona görə ki, hər iki əsər orijinaldır, müstəqildir, biri digərinin əlavəsi deyil. Sadəcə olaraq quruluş və bəhr baxımından bənzərlik müşahidə olunur. Əsərin birində heyrət, digərində xəlvət əsas fəlsəfi fikirlərin ifadəsinə xidmət edir. Hər iki əsərdə fərqli sayda münacat və nət, fərqli məzmun daşıyan iyirmi hekayə və iyirmi məqalə var. Hər iki şair hekayə və məqalələr vasitəsi ilə öz görüşlərini irəli sürür, cəmiyyətə öz fikir və düşüncələrini çatdırır, oxuculara didaktik planda öyüd və nəsihətlər verir. Məsələn, Nizami öz süjetlərində İsa, Süleyman peyğəmbər, Cəmşid, Firidun, Ənuşirəvan, Harun ər-Rəşid, Sultan Səncər kimi tarixi və mifik şəxsiyyətlərlə bağlı hadisələrdən bəhs etmiş, Nəvayi isə müxtəlif hekayə və məqalələrində iman və islam, vəfa, eşq atəşi, doğruluq, elm və cahillik mövzularını işləmişdir. O da öz dövrünün ictimai fikrinə tanış olan Şəhabəddin Süxrəvərdi, Mötəsim Billah, Abdulla Mübarək, Həsən Rəbi, Hatəm Tai, Sultan Hüseyn Bayqara, imam Fəxrəddin Razi, Sultan Məhəmməd Xarəzmşah, Məhəmməd Parsa, Sultan Bədiüzzaman, Bəhram şah kimi şəxslərin həyatından bəzi ibrətamiz olayları əsərə daxil etmişdir. Hər iki sənətkarın əsas

qayəsi bu maraqlı hekayələr vasiəsilə ədaləti və humanizmi təbliğ etmək, sadə insanların mənafeyini qorumaq, dünyanın faniliyini anlatmaq, bəşər övladına şərdən, pis hərəkətdən uzaq durmaq, xeyirxah olmaq kimi ülvi duyğular aşılamaqdır.

Məncə, islamın şərhindən bəhs edən ikinci məqalədən sonra verilən hekayə bunların içində ən təsirli hekayələrdən biridir. Burada İbrahim Ədhəmlə islamın ilk qadın övliyası Rəbiyyə Ədəviyyənin başına gələn qəribə əhvalatdan bəhs edilir. Böyük din vəlisi İbrahim Ədhəm dünya malından əl-ətəyini çəkərək, durub-dincəlmədən on dörd il çölləri, səhraları piyada keçərək, bu zaman atdığı hər addımdan sonra dayanıb iki rükət namaz qılaraq, nəhayət, Məkkə təvafına gəlib çatdı. Lakin Beytül-həram öz yerində yox idi. İbrahim buna heyrət edərək səbəbini soruşdu. Göydən nida gəldi ki, Kə'bə mötəbər bir qadını pişvaza getmişdir. Daim sidqi-dil ilə dua qılan bu qadın zəiflikdən çölü keçə bilməyən Rəbiyyə Ədəviyyədir:

Zə'fdən ol olmuş idi natəvan,
Kə'bə onun tövfinə oldu rəvan.

Bir azdan gəlib çıxan Rəbiyyə İbrahimə dedi:

Oldu işin ərzi-namaz eyləmək,
Şivə mənə ərzi-niyaz eyləmək.

Deməli, sidqi-dillə dua eyləmək hər qədəmdə namaz qılmaqdan da üstün imiş. Hər möminin içini titrədən bu ibrətamiz hekayədən nəticə çıxaran, yəni qissədən hissə çıxaran Nəvayi öz oxucusuna bu fikri təlqin edir:

Baxma, Nəvayi, yenə naz əhlinə,
Ərzi-niyaz eylə niyaz əhlinə.

13-cü məqaləyə mövzu olan Əyyibi-Xələflə bir oğru arasına vaqe olan hekayə də çox ibrətamizdir. Orada deyilir ki, bir gün Əyyubi-Xələf öz evində ibadət edirdi. Bu zaman bir oğru lağım atıb onun evin ortasına çıxdı. Həzrət ibadətini pozmadı, oğru da onun huş-guşla ibadətlə məşğul olduğunu gördü, müdaxilə etməyəcəyini anladı və evdəki hər şeyi bir boğçaya yığıb aparmaq istədi. Ancaq qabariti böyük olan yük kiçik lağıma sığmadı. Həzrət ibadətini dayandırıb ayağa qalxdı və yükü lağıma salmaqda ona kömək etdi. Oğru bundan sarsıldı, tövbə etdi, ağlaya-ağlaya həzrətin yanına gəlib onu müridliyə qəbul etməsi üçün yalvardı.

Dastan əruz vəzninin səri' bəhrinin səri'i-müsəddəsi mətviyi-məkşuf (rüknləri və təqtisi müftəilün–müftəilün–failün –VV–/–VV–/–V–) vəznində yazılmışdır. Bu vəzn pəndnamələrin, yəni didaktik əsərlərin və öyüd-nəsihət məzmunlu fikirlərin bəyanı üçün çox əlverişli və uyğundur. Nizami **Sirlər xəzinəsi**ni, Seyyid Qasımi **Gülşəni-raz**ı, Heydər Xarəzmi **Məxzən ül-əsrar**ı bu bəhrdə qələmə almışlar. Rudəki, Cəmali, Asəfi Hirəvi, Nərgisi, Qiyasəddin Səbzəvari, Fasih Rumi də səri' bəhrinə tez-tez müraciət etmişlər.

Nəvayi xəmsəsinin, o cümlədən **Heyrət ül-əbrar**ın Azərbaycan dilində səsləndirilməsi fikri xeyli vaxtdır bizi tərk etmirdi. Nəhayət, ötən il bu ağır işin altına girdik. Əvvəlcə latın əlifbalı özbək elektron mətnini bizim latın əlifbasına transliterə etdik. Bu heç də texniki iş deyil, xeyli çətin bir prosesdir. Dillərimiz, eləcə də əlifbalarımız arasında xeyli fərq var. Bizdəki o/ö, u/ü, ı/i (altı hərf, altı səs) özbəkcə üç hərflə ifadə olunur. Özbəkcə tərkibində o/ö, u/ü hərfləri olan sözlərin bizim dildə hansı səslərlə oxunacağı və yazılacağı bir az çətinlik yaradır. Burada ı/i hərfləri ilə vəziyyət qismən aydındır, eləcə də özbək a-larının bizim ə-lərə, o-larının bizim a-lara müvafiq olması diqqətə alınmalıdır. Biz hər ehtimala qarşı dastanın mətnini bir də özbəkcə kiril əlifbalı elektron mətnlə tutuşdurduq. Ondan sonra dastanın müxtəlif illərdə nəşr olunmuş kitab mət-

nini müqayisəyə cəlb elədik. Bu zaman xeyli fərqlər, fərqli oxunuşlar olduğunu gördük. Nəhayət, **Heyrət ül-əbrar** dastanının Türkiyədə nəşr olunmuş iki variantını əldə edərək onlarla da müqayisə apardıq. Pakistanlı alim Məhəmməd Sabirin hazırlamış olduğu elmi-tənqidi mətn və Vahid Türklə Şaban Doğanın ərsəyə gətirdiyi mətn (özbəkcə və müasir türkcə) də bizi bir çox yanlış oxunuşlardan xilas elədi. Pr.Dr. Tanju Oral Seyhanın hazırladığı alfabetik dizin (indeks) də çox kara gəldi, səhvlərimizi minimuma endirdi. Aylarca sürən bu titiz və üzücü müqayisə-tutuşdurma işlərinin yerinə yetirilməsində Dos.Dr. Nailə Əskərin xüsusi rolunu qeyd etməyi özümə borc bilirəm.

Kitabın elmi redaktoru isə dastanın ərəb əlifbası ilə yazılmış orijinal əlyazmalarını gözdən keçirərək bəzi mübahisəli məqamları aydınlığa qovuşdurdu. Kitabın özbəkistanlı redaktoru, Ə.Nəvayi adına Daşkənd Özbək Dili və Ədəbiyyatı Universitetinin müəllimi, folologiya elmləri namizədi, dosent Dilnəvaz Yusifovanın bütün bu prosesləri çox titizliklə və diqqətlə izlədiyi, maraqlı təkliflər verdiyi də vurğulanmalıdır.

İş prosesində dastanın qələmə alındığı əruz ölçüsü, qafiyə və rədifləri olduğu kimi saxlamağa çalışdıq. Lakin buna həmişə nail olduğumuzu söyləmək mümkün deyil. Qarşılaşdığımız ən əsas çətinlik əruz vəzninin bir çox yerdə pozulmasıdır. Bu, labüddür, qaçınılmazdır. Məsələ burasındadır ki, bizim dilimiz türkcənin oğuz qrupuna, özbək dili karluq qrupuna daxildir. Bu iki dildə hallanma 3 hal üzrə fərqli şəkildədir: bizim dildə ev+in, ev+ə, ev+i, özbəkcə ev+nin, ev+gə, ev+ni. Yiyəlik, yönlük və təsirlik hallardakı bütün isimlərdə qapalı hecalar bizim dildə açıq hecaya keçir. Və tərsinə, mənsubiyyət şəkilçili yerlik və çıxışlıq hallarda işlənən isimlərdə açıq hecalar bizim dildə qapanır, yəni bizdə ev+in+də və ev+in+dən şəkli, özbək dilində isə ev+i+də və ev+i+din şəkli məqbuldur. Bu

məsələdə biz Dilnəvaz xanımla hər gün, həm də şiddətli mübahisə edirdik.

Kiçik, lakin əhəmiyyətli başqa fərqlər də var. Bunlardan biri ol şəxs və işarə əvəzliyinin ismin müxtəlif hallarında ana (ona), anı (onu), anın (onun), anda (onda), andın (ondan), andağı (ondakı) şəklinə, bu işarə əvəzliyinin isə muna (buna), munın (bunun), munı (bunu), munda (bunda), mundın (bundan) şəklinə düşməsidir. Mətndə işlənmə tezliyi xeyli yüksək olan bu əvəzliklər başqa mənaları yada saldıqları üçün dəyişdirildi, yəni onları azərbaycancalaşdırmaq lazım gəldi. Bolmaq feilini olmaq, aytmaq feilini çox yerdə demək kimi verdik, ancaq deb və anlab feili bağlamaları heca artıqlığı üzündən deyib və anlayıb şəklinə salmaq heç cür mümkün olmadı.

Ərəb-fars sözləri ilə bağlı ciddi problemlə qarşılaşmadıq. Bunlar bizim klassik ədəbiyyatımızda da intensiv şəkildə işlənir. Ancaq çağataycaya məxsus bir qrup söz, məsələn, öçürmə (söndürmə), örtənmə (yanma), ötkərmə (keçirmə, çevirmə), sağınma (düşünmə), tanma (çaşma, heyrət etmə), uçrama (qarşılaşma), bütrəmə (dağıtma, pərişan etmə), əsrəmə (saxlama, qoruma), köymə (yanma), yançma (yaralama), yandurma (döndərmə) kimi kəlmələr dilimizdə ümimən yoxdur. Biz onları mətndə olduğu kimi saxladıq və kitabın sonundakı lüğət qisminə əlavə etdik.

3.988 beytdən ibarət olan **Heyrət ül-əbrar**da Pr. Dr. Tanju Oral Seyhanın verdiyi məlumata görə, 42.903 söz vardır. Bunlardan 5.818 söz maddə başında, 37.085 söz isə alt maddələrdə işlənmişdir. Bizim nəşrdə 100 şəxs adının və coğrafi məkanın izahı, lüğət qismində təqribən 2.550 sözün tərcüməsi verilmişdir.

x x x

Qardaş Özbəkistanda Əlişir Nəvayi irsinə sonsuz məhəbbət var. Bu azman sənətkarın adının önünə daim həzrət epiteti artırılır. Onun əsərləri hər il yüksək tirajla nəfis şəkildə nəşr edilir. Şairin

külliyyatının 10 cildliyi və 20 cildliyi çap olunmuşdur. Nəvayinin xarici ölkələrdəki əlyazmalarıın surəti çıxarılır, haqqında yazılmış elmi əsərlər toplanır. Şairin yaradıcılığının geniş oxucu kütləsinə daha yaxşı tanıdılması üçün 4 cilddə Nəvayi əsərləri dilinin izahlı lüğəti buraxılmışdır. Onun haqqındakı bütün bilgilər şairin adını daşıyan ensiklopediyada toplanmışdır. Burada Nəvayi ilə bağlı ən kiçik informasıya, ən ufaq detal da öz əksini tapır. Bütün bu işlərə vüsət vermək üçün Nəvayi şəhərində şairin adını daşıyan xüsusi Nəvayi fondu qurulmuş və fəaliyyətə başlamışdır.

Hər il fevralın 9-da Nəvayi vilayətinin mərkəzi Nəvayi şəhərində şairin növbəti doğum ildönümünə (bunun yuvarlaq rəqəm olması vacib deyil) həsr olunan beynəlxalq forum keçirilir. Bu məclisə dünyanın çox yerindən, o cümlədən Azərbaycandan alimlər, mütəxəssislər dəvət edilir, məruzə və çıxışlar dinlənilir, fikir mübadiləsi aparılır. Mən artıq iki dəfə bəzi həmkarlarımla birlikdə həmin mötəbər tədbirdə ölkəmizi təmsil etmişəm. Nəvayi şəhər xalq deputatları məclisinin 2018-ci il 5 fevral tarixli qərarı ilə mən "Nəvayi şəhərinin fəxri vətəndaşı" adına layiq görülmüşəm. Təbii ki, bunun bir səbəbi var idi. Mən bundan bir müddət əvvəl Bakıda **XX əsr özbək şeiri antologiyası**nı (2009, 96 s.), Sultan Hüseyn Bayqaranın **Divan**ını (2011, 248 s.), Zəhirəddin Məhəmməd Baburun **Seçilmiş əsərləri**ni (2011, 328 s.) və **Baburnamə**sini (2011, 432s.+32 s. rəngli miniatür) tərcümə və nəşr etmişdim. Buna görə şairin vətəni Əndicanda yerləşən Beynəlxalq Babur Fondu məni 2011-ci ildə Babur adına mükafata layiq görmüşdü. Nəvayi şəhərinin rəhbərləri bunu bilirdilər və məni öz şəhərlərinin fəxri vətəndaşı seçməklə boynuma böyük və məsuliyyətli bir yük qoymuş oldular. Mən də bu missiyanı yerinə yetirməkdən və Nəvayi xəmsəsini tərcümə etməkdən böyük şərəf duyduğumu bəyan edirəm.

Bakıya döndükdən sonra mən işə başladım, əvvəlcə **Heyrət ül-əbrar**ı, sonra **Fərhad və Şirin**i tam, **Leyli və Məcnun**u qismən

tərcümə etdim. Müvafiq özbək qurumlarının bizi dəstəkləyəcəyi təqdirdə qısa müddət ərzində Nəvayi xəmsəsini Azərbaycan dilində bütünlüklə nəşr etmək imkanına sahibik. Bu, qədim və zəngin mədəniyyət qurmuş nəcib özbək milləti və türklük qarşısında, eləcə də türk dünyasının ən böyük şairi Mir Nizaməddin Əlişir Nəvayinin ruhu qarşısında ən böyük xidmət olacaqdır. Ulu Tanrı bu şərəfi bizdən əsirgəməsin. Amin!

Türk-islam ədəbiyyatında memuar janrında ilk əsər olan **Baburnamə**də Zəhirəddin Məhəmməd Babur öz müasiri və həmkarı Əlişir Nəvayi haqqında belə yazmışdır: "[O] əslində [Sultan Hüseyn Bayqara] Mirzənin bəyi deyil, arxadaşıydı. Uşaqlıqda eyni məktəb oxumuş və yaxın dost olmuşlar.

...Əlişir bəy məcazının nəzakəti ilə məşhurdur. Xalq onun nəzakətinin dövlətinin qürurundan irəli gəldiyini zənn edirdi, lakin elə deyilmiş, o bu özəlliyə fitrətdən sahib imiş. Səmərqənddə ikən də təbi belə nazikmiş.

Əlişir bəy misilsiz bir adamdı. Türk dililə o qədər çox şeir söyləmişdir ki, kimsə o qədər çox və gözəl söyləməmişdir. Altı məsnəvi yazmışdır, beşi xəmsəyə bənzədilərək, biri də **Məntiq üt-teyr** vəznində və **Lisan üt-teyr** adındadır. **Qəraib üs-siğər** [Uşaqlıq çağının qəribəlikləri], **Nəvadir üş-şəbab**, [Gənclik çağının nadirəlikləri], **Bədai ül-vəsət** [Orta yaş çağının möcüzələri] və **Fəvaid ül-kibər** [Qocalığın faydalı öyüdləri] adında dörd qəzəl divanı tərtib etmişdir. Rübailəri də vardır...

...Mövlana Əbdürrəhman Camini təqlid edərək məktublarını da toplamışdır. Vəlhasil, hər kəs və hər iş üçün bir məktub yazmış isə onları toplamışdır. Bir də **Mizan ül-övzan** [Vəznlərin mizanları] adlı bir əruz risaləsi yazmışdır... Farsca bir divan da tərtib etmişdir. Farsca nəzmdə **Fani** təxəllüsünü işlətmişdir.

Musiqidə də gözəl şeylər bəstələmişdir. Gözəl nəqşləri və gözəl pişrovları vardır. Fəzl və hünər əhli üçün Əlişir bəy qədər öy-

rədici və qoruyucu başqa bir adamın da var olduğu heç eşidilməmişdir. Sazda məşhur olan ustad Qul Məhəmməd, Şeyxi [Neyi] və Hüseyn Udi Əlişir bəyin tərbiyə və himayəsi ilə bu dərəcədə tərəqqi və şöhrət tapdılar. Ustad Behzad və Şah Müzəffər rəsmdə Əlişir bəyin qeyrət və ehtimamıyla bu dərəcə məşhur və məruf oldular. Bu qədər xeyirli işlərdə çox az kimsə bu dərəcə müvəffəq olmuşdur.

Oğulsuz-qızsız, arvadsız və ailəsiz olaraq bu dünyada təkbaşına və subay yaşadı. Əvvəllər möhürdardı. Orta yaşlarında bəy olub bir müddət Əstərabadda hökm sürdü. Sonralar sipahiliyi tərk etdi. Mirzədən heç bir şey almırdı. Əksinə, özü hər il Mirzəyə xeyli miqdarda hədiyyə verirdi.

Sultan Hüseyn Mirzə Əstərabad səfərindən qayıdanda onu qarşılamağa gəldi. Mirzə ilə görüşdükdən sonra qalxmaq istəyəndə ona nəsə oldu, qalxa bilmədi. Qaldırıb əldə götürdülər. Həkimlər heç bir diaqnoz qoya bilmədilər. Ertəsi gün Allahın rəhmətinə qovuşdu. Bu beyti halına uyğun düşür:

Bu dərd ilə ki, ölürmən, mərəz çü zahir iməs,
Təbiblər bu bəlaya nə çarə qılğaylar?”

Bu, dahi şairin fiziki ömrünün sonu idi. Nəvayi 6 əsrə yaxındır ki, öz mənəvi ömrünü, fiziki ölümündən sonrakı həyatını yaşayır. Bu həyatın sonu yoxdur...

MƏHƏBBƏTƏ ƏBƏDİ HİMN

Qoşa qəhrəmanlı eşq məsnəviləri arasında ən məşhur dastanlardan biri **Xosrov və Şirin** dastanıdır. Bu mövzu ilk dəfə Firdövsinin **Şahnamə** əsərində sasani hökmdarı Xosrov Pərvizin (590-628) həyatı və fəaliyyəti ilə bağlı bölmədə qələmə alınmışır. Daha sonra Nizaminin bunu müstəqil bir məsnəvi halına gətirməsi ilə bu mövzu fars və türk şeirində dəb olmuşdur. Türk divan ədəbiyyatında bu mövzunu ilk dəfə və ən gözəl şəkildə işləyən Gərmiyanlı Sinanəddin Yusif Şeyxidir (?-1431). O, 1422-ci ildə Nizaminin **Xosrov və Şirin** dastanını türkcə nəzmə çəkmiş, əslində, tərcümə etmiş, bu zaman süjet xəttini və hadisələrin ardıcıllığını xeyli dəyişdirmiş, bəzi əlavələrə yol vermişdir. Daha sonra Şeyxinin qohumu Cəmali **Xosrov və Şirin**ə zeyl yazmış, Əhməd Rizvan hekayəni dil və təhkiyə baxımından inkişaf etdirmiş, Əxi isə **Xosrov və Şirin** əsərini tamamlaya bilməmişdir. **Xosrov və Şirin** mövzusunu Bursalı Cəlili də işləmişdir. Hər bir sənətkar özünün, mənsub olduğu kültürün və ədəbi çevrənin sənət anayışını, etik-estetik düşüncələrini bu poemalara əlavə etmişdir. Ona görə də **Xosrov və Şirin** kimi tanınan mətnlərin arasında sonradan **Fərhad və Şirin** adlı əsərlərin meydana çıxması məhz bu yanaşmaların nəticəsidir.

Xosrov və Şirin mövzusunun iki mənşəyi var: real, gerçək və tarixi mənşə, folklorik-dastani və ya ədəbi-poetik mənşə. Hazırda

bunlar hamısı iç-içə keçmiş, çulğaşmış haldadır. Ancaq yenə də mövzunun tarixi mənşəyinə ayrıca diqqət yetirmək lazımdır.

Sasani xanədanının son şahlarından biri olan II Xosrov Pərviz tarixi şəxsiyyətdir. Onun həyatı və fəaliyyəti haqqında tarixi mənbələrdə, özəlliklə Təbərinin **Tarix**ində kifayət qədər bilgi vardır. Təbəri öz əsərində Hürmüzün oğlu Pərvizin həyatını qısa şəkildə belə təsvir etmişdir: Turan xaqanı sasani şahı Hürmüzün ölkəsinə hücum etmişdir. Anası türk olan Hürmüz əslən Herat şəhərindən olan türk mənşəli sərkərdəsi Bəhram Çubini onun üzərinə göndərmişdir. Bəhran Çubin Turan xaqanına qalıb gəlmiş, əldə etdiyi saysız-hesabsız qəniməti Hürmüzə yollamışdır. Bundan çox məmnun olan Hürmüz vəziri Yəzdan Bəxşişin fitnəsinə uyaraq Bəhram Çubinə sərt bir məktub yazmışdır. Bəhram bundan inciyərək Hürmüzə qarşı üsyan etmiş, ordusu ilə birlikdə Rey şəhərinə girmiş, ata-oğul arasına nifaq salmaq məqsədilə burada Xosrovun adına sikkə basdırmışdır. Qəzəblənən Hürmüz oğlunu sorğuya çəkmiş, lakin Xosrov atasını inandıra bilməmiş və gecə ikən Azərbaycana qaçmışdır. Bəhram Çubin Mədainə qoşun yeritmişdir. Bundan qorxuya düşən əyanlar Hürmüzü taxtdan endirib gözlərinə mil çəkmiş, Pərvizi Azərbaycandan çağırmışlar. Pərviz gəlib taxta çıxmış, bu olaylarda heç bir rolu olmadığını söyləyərək atasından üzr istəmiş, Bəhram Çubin məsələsini həll etdikdən sonra onun intiqamını alacağını bildirmişdir. Lakin Bəhrama məğlub olmuş, bu dəfə atasının istəyinə görə dayıları Bistam və Bənduyə ilə birlikdə Bizansa qaçmışdır. Dayıları yoldan geri qayıdıb hər ehtimala qarşı Hürmüzü öldürmüş, Xosrova təkrar qoşulmuşlar. Bəhran Çubin isə onları təqib etmişdir. Belə olduqda Pərviz dayısı Bənduyənin paltarlarını geyərək aradan çıxmışdır. Bənduyə əsir alınmış, sonra əsirlikdən qaçıb Azərbaycana getmiş, oradakı türklərdən qoşun toplayıb Bəhramın üstünə gəlmişdir. Qeysər Bizansa çatan Xosrovu yaxşı qarşılamış, qızı Məryəmi ona vermiş, 70 minlik qoşunla geri göndərmişdir. Azərbay-

canda dayısının qüvvələri ilə birləşən Xosrov uzun savaşlardan sonra Bəhram Çubinə qalib gəlmiş, təkrar taxta çıxaraq ölkəni 38 il idarə etmişdir.

610-cu ildə həzrəti-Məhəmməd peyğəmbər məktub göndərərək Xosrovu islama çağırmışdır. Xosrov bu məktubu hiddətlə cırıb atmışdır. Bunu eşidən peyğəmbər ona bəddua etmişdir. Xosrov sonralar çox qəddarlaşmış, oğullarını zindana atmış, onlara qadınlarla görüşməyi qadağan etmiş, əyanlarını incitmişdir. Əyanlar onun Məryəmdən olan oğlu Qubadı (ləqəbi Şiruyə) ələ alaraq atasını öldürüb taxta çıxmağa razı salmışlar. Şiruyə Xosrovu öldürüb şah olmuşdur.

Tarixi-səlatini-İran və şərhi-əhvali-anan, **Rövzət üs-səfa**, **Tarixi-güzidə, Həbib üs-siyər** kimi digər qaynaqlarda bəzi fərqli epizodlara rast gəlirik. Bunlardan biri odur ki, Xosrov dayılarını öldürərək atasının intiqamını almışdır. Mənbələrdə Xosrovun tarixi şəxsiyyəti ətraflı təsvir edilərkən onun sahib olduğu bəzi əşyalar da vurğulanmışdır. Bunların arasında ən məşhurları aşağıdakılardır: əldə istənilən şəklə düşən plastilin qədər yumşaq qızıl külçə, suyu töküldüyü zaman öz-özünə tərkar dolan kuzə, fiqurları yaqut və zümrüddən düzəldilmiş şahmat, daşları mərcan və firuzədən olan nərd, çoxlu xəzinə, minlərcə at, dəvə, fil, yüzlərcə cariyə və s. Əlavə olaraq onun Şəbdiz adlı gözəl bir atı, Nəkisa və Barbəd adlı iki məşhur musiqişünası və Şirin adlı gözəl bir sevgilisi olmuşdur.

Şirinə gəlincə, onun tarixi şəxsiyyət olub-olmaması dəqiq bilinmir. O yalnızca Xosrovla birlikdə xatırlanır. Şirinin etnik mənşəyi, dini, vətəni də mübahisə mövzusudur. Bəzi mənbələrə görə, o, Xosrovun taxta çıxmazdan əvvəl gedib-gəldiyi kübar bir ailənin qızı və ya qulluqçusu, hətta cariyəsidir. İkisi bir-birinə aşiq olunca ev yiyəsi bunun fərqinə varmış və Xosrovla görüşməyi Şirinə qadağan etmişdir. Bir gün qızın barmağında Xosrovun bağışladığı üzüyü göründə onu Fərat çayına atmağı əmr etmiş, lakin Şirin bir təhər üzüb

sahilə çıxa bilmişdir. Bu olaydan xeyli sonra Xosrov şah olmuş, Şirini büsbütün unutmuşdur. Bir gün Xosrovun ordusu ilə birlikdə yaxın yerdən keçdiyini öyrənən Şirin həmin üzüyü bir əskər vasitəsilə Xosrova çatdırmışdır. Xosrov Şirini xatırlamış, onun yanına cariyə və müəllimlər göndərərək Şirini bir saray xanımı kimi yetişdirmiş, sonra onunla evlənmişdir.

Başqa bir hekayə də bununla səsləşir: Şirin gözəlliyi ilə məşhur bir qadın olmuş, Xosrov onu tanımış və sevmişdir. Şah olunca zövq-səfaya dalaraq onu yaddan çıxarmışdır. Xosrov bu dəfə ova gedərkən Şirin uca bir yerə çıxaraq özünü ona xatırlatmışdır. Xosrov ovdan qayıdan zaman qızı öz hərəminə almışdır. Hər iki epizodda əsilzadələr kübar cəmiyyətə mənsub olmayan bu qadınla evləndiyi üçün Xosrovu məzəmmət etmişlər.

Şirinin haralı olduğu da tam bilinmir. Mənbələr onu gah xuzistanlı, gah arranlı, gah romalı, gah aramey, hətta erməni kimi təqdim edir. Ən mühüm cəhət odur ki, Şirin iranlı, fars deyil, İrana gəlmiş və ya gətirilmiş cariyədir. Burada onun xuzistanlı olması ehtimalı iki şeylə şərtlənir: birincisi, Şirin xristiandır, ikincisi, onun üçün xüsusi inşa olunmuş qəsri-Şirin Xuzistandadır. Nizamidə və Nəvayidə qəsri-Şirin ərmən ölkəsində və ya Ərməniyyədədir. İslam dini bizim coğrafiyaya gəldikdən sonra yeni ərazi-inzibati bölgüyə uyğun olaraq ərəblər Qafqaza Ərməniyyə demiş və bu sözlə hayları və Hayastanı deyil, türkləri və xristian ərmənləri nəzərdə tutmuşlar. Yoxsa o dövrdə Qafqazda nə haylar, nə də Hayastan mövcud olmamışdır. Bu mənada Şirin daha çox xristian türk olan albanlara aiddir. Yeri gəlmişkən, **Əsli və Kərəm** dastanındakı Əsli də əsla erməni deyil, məhz xristian ərmən və ya albandır. Əsərə dramatizm vermək, xristian-islam müstəvisində dini ziddiyyətləri vurğulamaq üçün Əsli erməni keşişin qızı kimi təqdim olunmuşdur.

Fərhada gəlincə, onun da tarixi şəxsiyyət olub-olmaması mübahisəlidir. Burada folklorik-dastani və ya ədəbi-poetik ənənələr

önə çıxmışdır. Yəni gerçək tarix folklor qisvəsinə büründükdən, dastanlaşdıqdan, daha sonra isə ədəbi-poetik süzgəcdən keçdikdən sonra yeni hüviyyət və keyfiyyət, fərqli çalarlar qazanmışdır. Bu mənada Fərhad surəti Xosrovdan daha artıq Şirinlə bağlıdır. Maraqlıdır ki, Firdövsi **Şahnamə**də Fərhaddan heç bəhs etməmişdir, çünki onun əsas qayəsi bir eşq dastanı qələmə almaq deyil, İran şahlarının əfsanə dolu tarixini nəzmə çəkmək olmuşdur.

Xosrov və Şirin mövzusu Şərq ədəbiyyatında bir çox şairlər tərəfindən qələmə alınsa da, xəmsə müstəvisində üç adlı-sanlı şairin qələmi ilə ölməzlik qazanmışdır. Dahi şair-mütəfəkkir Nizami Gəncəvi (1141-1209) onu 1180-ci ildə yazmışdır. Bundan 119 il sonra, yəni 1299-cu ildə dahi Əmir Xosrov Dəhləvi (1253-1325) öz poemasını ortaya qoymuşdur. Bu tarixdən 185 il sonra, yəni 1484-cü ildə dahi Əlişir Nəvayi bu gözəl əsəri dünya ədəbiyyatına bəxş etmişdir. Ayrıca **Xosrov və Şirin** və ya **Fərhad və Şirin** dastanı yazmasa da, Əbdürrəhman Cami (1414-1492) də təxminən eyni vaxtda öz xəmsəsini bitirmişdir. Maraqlıdır ki, xəmsə yazan bu dörd dahidən üçü (Nizami, Dəhləvi və Nəvayi) milliyyətcə türk, biri isə (Cami) qeyri-türkdür. O da çox maraqlıdır ki, bu dörd şairdən üçü (Nizami, Dəhləvi və Cami) öz xəmsəsini fars dilində, biri isə (Əlişir Nəvayi) türkcə yazmışdır.

Bu dastanlarda süjet xətti, kompozisiya, surətlərin səciyyəsi bir-birindən fərqlənməklə bərabər bir çox nöqtədə üst-üstə düşür. Bunlardan bəzilərini qeyd edək: hər üç dastanda Xosrov və Fərhad Şirini sevir, bütün dastanlarda Fərhad Bisütunda su və ya süd arxı / kanalı qazır, Şirin üçün qəsr tikir, əsərlərin üçündə də Şirin, Fərhad və Xosrov eyni səbəbdən ölürlər. İndi isə fərqlərə baxaq.

Dastanlarda münacat və nət kimi ənənəvi qismlərdən sonra əsas hekayə nəql edilir. Bu, Nizami Gəncəvidə və Əlişir Nəvayidə 11-ci babdan, Əmir Xosrov Dəhləvidə isə 10-cu babdan etibarən gəlir. Məsnəvi tərzində, həzəc bəhrində yazılan bu üç dastanın həc-

mi Nizamidə 103 bab, Əmir Xosrovda 59 bab, Nəvayidə isə 54 bab təşkil edir. Nizami və Əmir Xosrov hər babın əvvəlində nəsrlə bir cümləlik xülasə verərək babın ümumi məzmununu ifadə etdikləri halda Nəvayinin çağatayca yazdığı çox nəfis, kontraslı, pafoslu və dəbdəbəli özətlər səkkiz-on, bəzən daha çox cümlədən ibarətdir.

Nizami dastana Xosrovun doğulması ilə başlayır. Onun uşaqlığı və gəncliyi, təlim-tərbiyəsi, təhsil illəri haqqında məlumat verir, silah sənətini öyrənməsindən bəhs edir. Rəssam Şapur Xosrova ərmən hakimi Məhinbanunun qardaşı qızı Şirindən, Şirinə isə Xosrovdan söz açır. İki gənc qiyabən bir-birinə vurulur. Bəhram Çubinin fitnəsindən qurtulmaq, həm də Şirini tapmaq üçün Xosrov ərmən ölkəsinə (**Şahnamə**də Azərbaycana), Şirin isə Xosrovu görmək üçün Mədainə yola düşür. Şirin bir bulaq başında çimərkən Xosrov onu görür, lakin bir-birini tanımırlar. Mədaindəki qadınlar Şirinə havası pis olan bir yerdə qəsr tikdirirlər. Şirin burada qalır. Şapur Şirini ərmən ölkəsinə, Xosrovla Məhinbanunun yanına aparmaq üçün həmin qəsrə gəlir. Onlar ərmən ölkəsinə gələndə məlum olur ki, Hürmüz taxtdan salınıb, Xosrov taxta çıxmaq ücün Mədainə qayıdıb.

Xosrov savaşda Bəhram Çubinə məğlub olur, yenidən ərmən ölkəsinə (Firdövsidə Azərbaycana) gəlib, bir müddət burada qalır. Sonra Şirinin təkidi ilə taxt-tacını almaq üçün mübarizəyə girişir. Xosrov Ruma gedib qeysərin hərbi dəstəyini və qızı Məryəmi alır, bu sayədə taxtına sahib olur. Bu arada Məhinbanu ölür, Şirin onun yerinə keçir. Lakin eşq üzündən taxt-tacını inandığı bir adama verib Mədainə gəlir, onun üçün tikilən həmin qəsrdə qalır. Xosrov dostu Şapuru göndərərək Şirini sarayına çağırır, ancaq Şirin evli bir kişi ilə heç bir münasibətdə ola bilməyəcəyini deyib Xosrovun dəvətini rədd edir.

Bundan sonra ortaya Fərhad çıxır. Südü çox sevən Şirin o qəsrə bir kanal çəkdirmək istəyir. Şapur ona Fərhadı tövsiyə edir.

Şirin onunla pərdə arxasında oturaraq danışır. Fərhad söz verir, üzünü görməsə də Şirinin səsinə aşıiq olur. Kanalı çəkir, hovuzu tikir, lakin əmək haqqından imtina edir. Hamı onun Şirinə aşiq olduğunu öyrənir. Söz gedib Xosrova çatır. Xosrov onu çağırıb hədəqorxu gəlir, pul təklif edir, heç bir nəticə hasil olmur. Axırda Bisütundan yol açsa, Şirindən vaz keçəcəyini bildirir. Fərhad dərhal işə başlayır. Şirinin və Şəbdizin rəsmlərini qaya üzərinə həkk edir, onu görməyə gələn Şirini atı ilə bərabər çiyninə alaraq qəsrə qədər qaldırır. Xosrov məkrə əl atır, Fərhada Şirinin öldüyü barədə yalan xəbər çatdırır. Fərhad ruhi sarsıntı keçirir, özünü qayalara çırparaq öldürür. Elə bu zaman Xosrovun Şirinə olan eşqi üzündən Məryəm də ölür.

İki aşiq bir-birinə başsağlığı verir. Xosrov yenidən Şirini ələ keçirmək istəyir. Şirin naz edir. Xosrov bu dəfə İsfahan gözəli Şəkərlə evlənir. Onların arasındakı münasibətlər olduqca gərginləşir. Nəhayət, Şirin təslim olur və Xosrova ərə gedir. Şirinin təsiri altında müsbət yöndə dəyişən Xosrov axırda hər şeyin böyük bir boşluqda yox olduğunu anlayaraq inzivaya çəkilir. Bunu fürsət bilən oğlu Şiruyə atasını öldürüb taxta çıxır, sonra da analığı Şirinlə evlənmək istəyir. Şirin özünün və Xosrovun bütün malını kasıblara paylayır, sonra Xosrovun qəbri üstündə özünü xəncərlə öldürür.

Əmir Xosrov Dəhləviyə və əsərlərinə gəlincə, bəri başdan qeyd edək ki, onun Nəvayiyə olan təsiri hiss ediləcək dərəcədə çoxdur. Bu özünü divanların adları məsələsində də göstərir. Məsələn, Əmir Xosrov öz divanlarını belə adlandırmışdır: **Töhfət üs-siğər** (Uşaqlığın töhfəsi, 1272), **Vəsət ül-həyat** (Həyatın ortası, 1284), **Ğürrət fil-kamal** (Kamalın yetkinliyi, 1293), **Baqiyyeyi-naqiyyə** (Seçilmiş qalıq, 1316), **Nəhayət ül-kamal** (Kamalın son həddi, 1325). Nəvayi də ona özənmiş, divanlarına orijinal adlar verərək, **Qəraib üs-siğər** (Uşaqlıq çağının qəribəlikləri), **Nəvadir üş-şəbab** (Gənclik çağının nadirəlikləri), **Bədai ül-vəsət** (Orta yaş çağının

möcüzələri) və **Fəvaid ül-kibər** (Qocalığın faydalı öyüdləri) adında dörd divan tərtib etmişdir. Onların öz xəmsələrinə verdikləri adlar da bir-birinə çox yaxındır. Əmir Xosrovda poema adları belədir: **Mətlə' ül-ənvar** (1298), **Şirin ü Xosrov** (1298), **Məcnun ü Leyla** (1298), **Ayineyi-İskəndəri** (1299), **Həşt behişt** (1301), Əlişir Nəvayinin mənzumələri isə belə adlanır: **Heyrət ül-əbrar**, **Fərhad və Şirin**, **Leyli və Məcnun**, **Səbai-səyyar** və **Səddi-İskəndəri.**

Əmir Xosrov Dəhləvidə dastan Xosrovun taxta çıxması ilə başlanır. Rəssam Şapur Şirinin rəsmini ona göstərir, Xosrov qıza aşiq olur və onun dalınca ərmən torpağına gedir. Burada ov zamanı qarşılaşır və tanış olurlar. Xosrov dərhal qıza sahib olmaq istəyir, lakin Şirin iffətini qoruyur. Xosrov öz taxtını əldə etmək üçün Ruma gedir, qeysərin qızını alır, hərbi dəstəklə geri qayıdıb Bəhram Çubini məğlub edir, taxta çıxır. Bu zaman qeysərin xəzinəsini daşıyan gəmilər qəzaya uğrayır, Xosrovun ölkəsində sahilə vurur. Xosrov gəmiləri ələ keçirir, qeysərə vermir. Məryəm Xosrobun Şirini sevdiyini öyrənib üzüntüsündən ölür. Şirin Xosrovun yanına gedir. İçki məclisləri, mahnılar, şərqilər, ov səhnələri bir-birini əvəz edir, lakin Xosrov qızı ələ keçirə bilmir. Acığa düşən Xosrov bu dəfə də İsfahan gözəli Şəkərlə evlənir.

Şirin bir gün Bisütunda Fərhadla qarşılaşır. Qəsrinə süd kanalı çəkməyi ona sifariş edir, bunun üçün nə qədər əmək haqqı istədiyini soruşur. Fərhad pul tələb etmir, yalnız onun üzünü görmək istəyir. Şirin üzünü açır, Fərhad özündən gedir. Ayıldıqdan sonra Şirin onu öz sarayına aparır, söhbət edib tanış olurlar. Məlum olur ki, Fərhad Çin fəğfurunun oğludur. Daş ustası olduğu və digər əl sənətlərinə meyl etdiyi üçün atası onu səyahətə göndərmiş və öz əməyi ilə yaşamasını əmr etmişdir.

Fərhad kanalı qazır, Şirin tez-tez onu ziyarətə gəlir. Fərhadın Şirinə dəlicəsinə aşıq olduğu aləmə yayılır, Xosrovun da qulağına gedib çatır. O, vəziri Büzürg Ümmidin məsləhəti ilə Şirinə məktub

yazıb öz narahatlığını və narazılığını bildirir. Şirin cavab məktubunda Xosrovu sevdiyini, Fərhada isə yazığı gəldiyini yazır. Xosrov çoban paltarı geyərək Fərhadın yanına gedir, onun saf və məsum eşqi qarşısında çarəsiz qalır. Vəziri deyir ki, Şirinin ölümü barədə Fərhada yalandan xəbər göndərmək lazımdır. Elə də edirlər. Fərhad qəhrindən ölür. Şirin də Şəkəri zəhərlədərək öldürür. İki aşiqin qovuşması üçün ortada heç bir maneə qalmır.

Xosrovla Şirin evlənirlər. Xosrov toydan sonra özünü əyləncəyə və içkiyə qapdırır. Əyanlar Şiruyənin onu öldürməsinə nail olurlar. Şirin Xosrovu qanlar içində görüncə həmin xəncərlə özünü öldürür.

Əmir Xosrov Dəhləvi heç bir xüsusi araşdırma aparmamış, Nizaminin süjeti ilə kifayətlənmiş, dövrün sənətsevərləri tərəfindən yaxşı bilinən süjetə və kompozisiyaya ciddi bir yenilik gətirməmiş, daha şux, daha oynaq bir əsər yazmağa çalışmış, ona görə də mövzunu sadələşdirmiş, duyğulara üstünlük vermişdir. Bəzi müəlliflərin fikrincə, Əmir Xosrov bu poemanı saraylarda, kef məclislərində zövqlə oxunsun deyə qələmə almış, bu zaman heç bir dərin qayə güdməmişdir. Ancaq yenə də Nizaminin və Dəhləvinin mənzumələri arasında bəzi fərqlər vardır. Bunlardan biri və birincisi Fərhadın sıravi daş ustası deyil, Çin fəğfurunun oğlu olmasıdır. Ehtimal ki, Dəhləvi oxucunun fəğfur və ya xaqan oğluna daha çox rəğbət bəsləyəcəyini düşünmüşdür. İkincisi, Xosrov onun yanına şah kimi deyil, çoban kimi getmiş, Fərhadın gerçək bir aşiq olduğuna inanmışdır. Üçüncüsü, Xosrovun Fərhadı öldürməsinə cavab olaraq Şirin də Şəkəri zəhərlətmişdir. Xosrov bunu taleyin qisası, fələyin intiqamı kimi qəbul etmişdir. Bu süjetdə Fərhadın rolu o qədər də böyük deyildir, çünki Məryəmin ölümü, Xosrovun Şəkərlə evlənməsi Fərhad ortada yoxkən baş vermişdir. Ona görə də Fərhadın hekayəsi ümumi kanvaya yaxşı oturmur, sadəcə olaraq dramatik həyəcanı yüksəldən ünsür kimi çıxış edir. Nizamidən sonra Fərhad surəti şa-

irlərin diqqətini daha çox cəlb etmiş, Xosrov yavaş-yavaş Fərhadla müqayisədə solğunlaşmış, hətta ikinci plana keçmişdir. Bəzi əhliqələmlər **Fərhadnamə** adlı dastanlar yaratmışlar. Bunlardan ən gözəlini həmvətənimiz Arif Ərdəbili yazmışdır.

Fərhada ən böyük ədəbi qiyməti məhz Əlişir Nəvayi vermişdir. Nəvayinin fikrincə, bu mövzuda yazanlar ancaq Xosrovu vəsf etmiş, onun cah-cəlalını, atı Şəbdizi, xanəndələri Barbədi və Nəkisanı, dostu Şapuru, vəziri Büzürg Ümmidi, rum qeysərinin qızı Məryəmi, İsfahan gözəli Şəkəri tərifləmiş, Şirinin eşq yolunda çəkdiyi əzablara biganə qalmışlar. Fərhada gəlincə, ara-sıra ondan bəhs etsələr də, Fərhadı sıravi bir daş ustası saymış, Şirini sevdiyi üçün Xosrov tərəfindən öldürüldüyünü yazmış, bir sözlə, ona layiq olduğu qiyməti verməmişlər. Nəticədə Nizami Bərdə, Gəncə və Rumu tutmuş, Əmir Xosrov tiği-zəbanı ilə Hindistanı fəth etmiş, Cami ərəb və əcəm mülkündə növbət vurdurmuşsa da, Nəvayi Xıtaydan Xorasanadək türk ulusunu öz fərmanı altına almışdır, hətta

Xorasan demə kim, Şiraz ü Təbriz
Ki, qılmışdır neyi-kilkim şəkərriz.

Könül vermiş sözümə türk can həm,
Nə yalnız türk, bəlkə türkman həm.

Nəvayinin burada özünə kiçik bir fəxriyyə həsr etdiyini görürük. Lakin hər babın sonunda saqiyə müraciət tərzində yazdığı əsasən iki, bəzən üç beytdən ibarət olan yığcam saqinamələrdə özünü daha təvazökar aparır, hətta bir dəfə saqidən özünə bir, ustadları Nizami və Dəhləvinin şərəfinə iki qədəh şərab gətirməyi tələb edir, qoşa badələri içib Caminin meyini mədh edək deyir.

Əlişir Nəvayinin Fərhadı Çin xaqanının oğludur. Digər uşaqlar kimi şən və nəşəli deyildir, sakit, səssiz, ancaq çox zəkidir. Üç

yaşına çatanda atası ona müəllim təyin edir. Bir ilə Quranı əzbərləyir, on yaşında bütün dünyəvi elmləri öyrənir. Əyləncələrə qarşı laqeyddir. Çarəsiz qalan xaqan Çindən ustalar çağıraraq dörd yerdə dörd fəsli təmsil edən dörd qəsr tikdirir. Ustalar arasında memar Ran, rəssam Mani və daş ustası Qarin də vardır. Fərhad onların, xüsusilə Qarinin sənətini mükəmməl şəkildə mənimsəyir. Bu dörd qəsrin hərəsində üçər ay qalan Fərhadda heç bir dəyişiklik baş vermir. Atası taxt-tacını ona vermək istəyir, lakin oğlu bu işə hazır olmadığını bildirir. Xaqan onu xəzinəyə aparır, maraqlı əşyalar göstərir. Bir sandıq Fərhadın diqqətini cəlb edir. Onun israrı ilə sandığı açırlar. İçindən bir güzgü çıxır. Güzgünün arxasında belə bir yazı vardır: Bu güzgü İskəndərə məxsusdur, onun tilsimini çözən adam gələcəkdə başına nələr gələcəyini öyrənəcək. Ancaq bunun üçün Yunanıstana gedərək bir mağarada yaşayan filosof Sokratı tapmalıdır. Mağaraya gedən yolda çoxlu təhlükələrlə qarşılaşacaq.

Artıq Fərhad bu aynadan başqa heç nə barədə düşünmür. Atasının vəziri Mülkaradan xahiş edir ki, onu səfərə çıxması üçün xaqandan icazə alsın. Xaqan özü, vəziri Mülkara və Fərhad böyük bir qoşunla yola çıxır, aylardan sonra Yunanıstana çatırlar. Yunan xalqı onları gülərüzlə qarşılayır. Deyirlər ki, bu məsələni ən yaxşı bilən adam Süheyla adlı bir filosofdur. O, 500 ildir ki bir mağarada yaşayır. Fərhad onunla görüşür. Süheyla hər şeyi Fərhada danışır və dərhal ölür. Süheylanı dəfn edirlər. Fərhad onun dediklərini yerinə yetirir, Sokratın mağarasına gedərkən önünə bir əjdəha çıxır. Fərhad əjdəhanı öldürür, onun sahib olduğu xəzinəni, Süleymanın qılıncını və qalxanını alır, ikinci mənzildə bunların köməyi ilə Əhriməni öldürür, onun köşkündəki xəzinəni və Süleymanın üzüyünü əldə edir. Daha sonra üçüncü mənzildə tilsimi açır, böyük bir xəzinəyə və cami-Cəmşidə sahib olur. Yamyaşıl bir yerdə Xızır peyğəmbərlə görüşür. Xızır da Sokratın yanına gedib çatmaq üçün bəzi tövsiyələr verir. Fərhad onlara əməl edir, cami-cahannümanı tapır,

onun köməyi ilə Sokratı görüşür, Sokrat da Süheyla kimi ona bəzi şeyləri deyərək dünyadan köçür.

Fərhad onun məsləhəti ilə Çinə qayıdıb sandığı açır və aynaya baxır. Burada yaşıl bir yer, yanında böyük bir dağ, dağı qazan çoxlu adam görür. Özü də o adamların arasındadır. Bir də görür ki, cariyələri ilə birlikdə bir gözəl qız gəldi. Fərhadın aynadakı timsalı qızı görüncə özündən gedir. Fərhad özü də qıza yaxından baxınca timsalı kimi qəşş edir. Ata-anası, saray ərkanı tökülüb gəlir, onu ayıldırlar. Fərhad bir də aynaya baxır, artıq heç nə görə bilmir.

Fərhad o qıza aşiq olur. Nəhayət, xaqan yanında Fərhad olmaqla vəziri və ordusu ilə dəniz səyahətinə çıxır. Şiddətli bir fırtına baş verir. Xaqanla vəzir xilas olub Çinə qayıdırlar. Fərhad bir taxtanın üstündə ikən Yəmən tacirləri tərəfindən gəmiyə çıxarılır. Bu vaxt dəniz quldurları yəmənlilərə hücum edir. Fərhad onlara qalib gəlir. Yəmənə çatırlar. Fərhad gəmidə Şapur adlı bir nəqqaşla tanış olur. Yəməndə daha da yaxın dost olurlar. Bir gün Fərhad öz sirrini ona açır. Şapur deyir ki, vaxtilə Ərmənniyyə adlı o yerdə olub. Şapur şəkillər çəkib Fərhada göstərir. Fərhadın xahişi ilə ərmən ölkəsinə gəlir. Fərhad burada görür ki, iki yüz usta üç ildir bir su arxı qazır, ancaq onu qurtara bilmir. Dərhal işə başlayıb bir gündə onların üç illik işini görür. Xəbər ölkənin hökmdarı Məhinbanuya və onun qohumu Şirinə çatır. Onlar Fərhadı görməyə gəlirlər. Fərhad Şirinin səsindən sərxoş olur. Bir ah çəkir, ahın təsiri ilə yaranan külək Şirinin örpəyini başından atır. Fərhad onun üzünü görüncə aynadakı qız olduğunu anlayır və huşunu itirir. Şapur onun başına gələnləri danışır. Fərhad üç gün sonra ayılıb sarayda olduğunu görür. Çox utanır, işləmək üçün tez dağa qayıdır.

Əhvalat bu münvalla davam edir, Fərhad Şirin üçün o kanalı açır, üç tağı və eyvanı olan bir qəsr tikir, qəsrin divarlarına Şirinin rəsmlərini həkk edir. Nəhayət, hovuzun və kanalın açılışı olur. Şirin də buraya gəlir, atı büdrəyir, Fərhad onu atı iıə birlikdə çiyninə alıb

qəsrə gətirir. Su kanalına Nəhr ün-həyat, hovuza Bərh ün-nicat adı verilir. Məhinbanu sarayında böyük ziyafət təşkil edir. Bir-birinə dəlicəsinə aşiq olan Fərhadla Şirin orada hər kəsin önündə eşqlərinin şərəfinə şərab içirlər. Hər ikisi bayılır. Bundan sonra onlar ara-sıra sarayda görüşürlər.

Tam bu zaman fəlakət baş verir: Xosrov Şirini almaq üçün elçi göndərir və rədd cavabı alır. Bundan çox qəzəblənən Xosrov ərmən ölkəsinə qoşun çəkir. Qalaya yarım mil qalmış ətrafı gəzməyə çıxır. Bir daş üstündə oturan Fərhadı görür. Onun kim olduğunu öyrənib qısqanclıqdan dəli olur. Onu tutmağı əmr edir. Fərhad ona iki daş ataraq başından papağını, papağın üstündən ayparasını yerə salır.

Xosrov vəzirinin məsləhəti ilə bir adam vasitəsilə Fərhada bihuşdarı verib onu tutdurur və asmağı əmr edir. İkisi arasında Nizamidən bizə tanış olan dialoq keçir, Fərhad kim olduğunu söyləyir. Xosrov onu öldürməkdən daşınır, Səlasil qalasına salmağı əmr edir. Beş yüz gözətçinin gözü önündə Fərhad bildiyi sehrli dualar sayəsində bədəninə vurulan zəncirlərdən azad olur, qaladan çıxıb ətrafı gəzir, heyvanlarla dostlaşır, lakin gözətçiləri pis vəziyyətdə qoymamaq üçün qaçmır. Şapur ona Şirindən məktub gətirir. Bunları öyrənən Xosrov onu öldürməyi qərara alır. Lakin vəziri mane olur. Qoca bir qadın vasitəsilə Fərhada belə bir xəbər göndərirlər: Xosrovla Məhinbanu sülh bağladılar, Şirin də Xosrova ərə getdi. Qadın xəbəri azca dəyişdirb deyir ki, Şirin Xosrovu istəmədiyi üçün özünü öldürdü. Fərhad buna inanır, özünü qayalara çırparaq həlak olur.

Xəbər ətrafa yayılır. Şirin özünü öldürməyə təşəbbüs edir, lakin ona mane olurlar. Dövlətin rəhbərləri Məhinbanunu, o da Şirini sıxışdırır. Şirin mühasirədəki xalqın daha artıq iztirab çəkməməsi üçün razı olur. Məhinbanu təbdili-hava üçün Şirini bir müddət Fərhad tikən qəsrə göndərməyə Xosrovdan icazə alır. Yola düşəndə Xosrovun oğlu Şiruyə onu görüb aşiq olur. Atasını öldürüb Şirinə

elçi düşür. Məhinbanu daha Şirinin heç bir işinə qarışmadığını bildirir. Şirin Şiruyəyə yalandan hə deyir.

Şapur Fərhadın nəşini Şirinin qəsrinə gətirir. Şirin onun cansız bədənini qucaqlayıb ruhunu təslim edir. Bunu eşidən Məhinbanu üzüntüdən ölür. Qırx rəvayət əhlinin yuxusuna o gecə Fərhadın ata-anası və Məhinbanu girir, onlar Fərhadla Şirini cənnətdə gördüklərini bildirirlər.

Çində Fərhadın xaqan olan atası ölür, onun yerinə əmisi taxta çıxır. Vəzirin oğlu Bəhram atasını yerindədir. Bəhram Fərhadı axtarmaq üçün xaqandan icazə alıb qoşunla Ərməniyyəyə gəlir. Şapurla tanış olur, Fərhadın öldüyünü öyrənir. Şuriyəni çağırıb ərmən xalqına vurulan zərəri ödətdirir, sonra Məhinbanunun yaxın bir qohumunu taxta çıxarır. Özü isə Şapurla birlikdə Fərhadın məzarı başında inzivaya çəkilir.

Gördüyümüz kimi, Nəvayi də Əmir Xosrov kimi Fərhadı kübar bir ailənin övladı olaraq göstərir. Yeganə fərq odur ki, Fərhad Nəvayidə Çin xaqanının, Dəhləvidə Çin fəğfurunun oğludur. Əsərlərin hər üçündə üç nəfər arasında cərəyan edən böyük bir eşqin faciə ilə nəticələnməsinin şahidi oluruq. Nizamidə Xosrovla Şirinin arasındakı eşq və Fərhadın cavabsız eşqi, Əmir Xosrov Dəhləvidə yenə Xosrovla Şirinin qarşılıqlı sevgisi və Fərhadın kənarda qalması, Nəvayidə isə Fərhadla Şirinin bir-birinə bəslədikləri dərin məhəbbət və Xosrovun kənarda qalması üzərində qurulan dastan faciə ilə bitir. Bu, Nizamidə janr olaraq faciə, Dəhləvidə lirizmlə çulğaşmış bir faciə, Nəvayidə isə romantizmlə qarışmış bir faciədir. Nəvayinin dastanında müasir romanın ilk rüşeymləri nəzərə çarpır.

Nəvayi bu dastanın məlum olan ana motivlərini, süjet və kompozisiyasını, qəhrəmanların xarakterini xeyli dəyişdirmiş, Şirinlə Fərhadı bir-birinə sevdirmiş, süjeti bu yöndə inkişaf etdirmişdir. Nəvayidə insansevərlik və humanizm ən yüksək səviyyətə çataraq başqa bir keyfiyyət kəsb etmişdir. Nəvayidə eyş-işrətə düşkün

ərköyün, şıltaq bir İran şahının eşq macəraları, qadına həzz mənbəyi kimi baxan, Şirini Məryəmə və Şəkərə dəyişən hərdəmxəyal bir hökmdarın yerinə Fərhad kimi həqiqi və mətin aşiqin qoyulması mövzuya, eləcə də məhəbbətə başqa bir prizmadan baxdığını göstərir. Zatən bu üç sənətkarın məsələyə yanaşması əsərin adından və üç əsas surətə, yəni Xosrov, Şirin və Fərhada münasibətindən də bəllidir.

Nizami böyük istedadını səfərbər edərək Xosrovun bir hökmdar kimi tədrici təkamülünü ortaya qoymuşdur. Onun üçün əsas məqsəd ideal şah surəti yaratmaq, onu digər şahlara nümunə göstərmək, gələcək nəsillərə müvafiq mesaj verməkdir. Burada Şirin surəti Xosrovu bir aşiq kimi deyil, bir şah kimi tamamlamaq və təkmilləşdirmək qayəsi daşıyır. Rəqibi Fərhadı hiylə ilə öldürməsi isə şah üçün təbii bir şey sayılmış və bu vəziyyət Xosrovun bir insan kimi mükəmməl olmadığına sanki heç bir xələl gətirməmişdir. Şirinə bir oyuncaq kimi baxması da şahın təbii haqqı kimi qəbul edilmişdir. Nizami üçün əsas məsələ şahın fərdlərə qarşı deyil, cəmiyyətə qarşı bir məsuliyyət hiss etməsi, axırda ideal şah səviyyəsinə yüksəlməsidir. Ona görə də Xosrov mərkəzli bu əsərin adı təbii olaraq **Xosrov və Şirin**dir. Nizami Gəncəvi öz poemasında Fərhadı sadə, əməkçi insan kimi işləmişdir. O, poemanın ikinci dərəcəli surətidir, əsərə gec daxil olur, tez də sıradan çıxır.

Əmir Xosrov Dəhləvinin poetik məramı hadisələrin mərkəzi siması kimi Şirini Xosrovdan üstün tutmaqdır. Fərhadı aşağı zümrəyə deyil, Çin fəğfurunun ailəsinə mənsub etməklə onu İran şahı Xosrov qarşısında əzməyən şair dolayısı ilə müəyyən bir paritet yaratmışdır. Fərhadın da özü kimi bir əsilzadə olduğunu öyrənincə onu öldürməkdən vaz keçmişdir, ancaq Fərhadı hiylə ilə öldürməsi yenə Xosrovun çatışmayan bir cəhətidir. Nəvayi əsərini məhz **Fərhad və Şirin** adlandırmaqla öz rəğbətini ortaya qoymuşdur.

Şirinə gəlincə, bu üç düha onu fərqli etik-estetik qayə güdərək işləmişdir. Nizamidə Şirini daha fədakar, daha fəal və mübariz bir surət kimi nəzərə çarpır. Bu onun nəticəsidir ki, əsər yazılan zaman Nizami çox sevdiyi həyat yoldaşı Afaqı itirmişdi. Afaqın bir sıra xüsusiyyətlərini Şirinin üzərinə köçürən şair onu bir qədər afaqlaşdırmışdır. Nizamidə Şirin Xosrovu müsbət yöndə dəyişdirir, ona ciddi təsir göstərir, ideal hökmdar səviyyəsinə qaldırır. Dəhləvi isə Şirini sosial cəhətdən bir az sakit və zəif, lakin çox nazlı və işvəli bir qadın, şux bir nazənin kimi təqdim edir, Şirinə dərin rəğbət bəslədiyini göstərir. Əmir Xosrov sırf buna də görə öz əsərini **Şirin ü Xosrov** adlandırmışdır.

Nəvayi Xosrovu bir neçə dəfə Fərhadla qarşılaşdırmış, bu iki surəti müqayisə etmişdir. Xüsusilə onların dialoqu Fərhadın mənəvi baxımdan Xosrovdan qat-qat üstün olduğunu ortaya qoymuşdur. Xosrov onun dəmir məntiqi, kəskin cavabları qarşısında özünü itirmiş, Fərhadı hədə-qorxu ilə, mal-mülklə ələ almağa çalışmışdır. Buna nail olmayınca hiylə ilə əsir aldığı Fərhadı hiylə ilə də aradan götürmüşdür.

Nəvayinin bəzi epizodları dövrünün gerçəkliklərindən aldığını görürük. Məsələn, Fərhad üçün tikilən dörd qəsr Heratdakı bəzi reallıqlarla səsləşir. **Baburnamə**dən məlum olduğu kimi, böyük Baburun Heratda saldırmış olduğu Baği-səfid, Baği-növ, Baği-cahanara və Baği-behişt kimi bağlar əsərdəki qəsrlərin təsvirində prototip rolunu oynamışdır. Fərhadın çəkdiyi kanalın suyundan xalqın istifadə etməsi yenə Heratdakı İncil və Xiyaban kanalını yada salır. Demək, Nəvayidəki bir çox epizodlar heç də xəyal məhsulu deyil, teymurilər dövrünün parlaq mədəniyyəti və yüksək estetik zövqü ilə bağlıdır və şairin dühasından xəbər verir.

Dahi Nəvayinin **Fərhad və Şirin** poeması Azərbaycanda iki dəfə (1948, 1968) işıq üzü görmüşdür. **Yeddi səyyarə** də iki dəfə (1947, 1979) nəşr edilmişdir. Əliağa Vahid, Mirvarid Dilbazi, Ni-

gar Rəfibəyli? Ələkbər Ziyatay, Məmməd Rahim tərəfindən tərcümə olunan ilk poemaya müqəddimə və şərhləri akademik Həmid Araslı yazmışdır.Təəssüf ki, hər iki əsər əruz vəzni ilə deyil, heca vəzni ilə çevrilmişdir. Üstəlik, qafiyələr qorunmamış, beytlər mənaya görə nəzmə çəkilmişdir. Məsələni daha yaxşı anlamaq üçün iki yerdə şairin saqiyə müraciətinə baxaq. Əski sərbəst tərcümədə heç də pis səslənməyən iki belə beyt var:

Çün getdi şənliyə xaqanı Çinin,
Qoy biz də kef edib, içək həmçinin.

Mey ver, soyuq baxma, saqi, bu halə,
Əhrimən başından yarat piyalə!

Əslində isə həmin beytlər dilimizdə belə səslənməlidir:

Çü qıldı Çin şahı mey bəzminə əzm,
Yaradaq biz dəxi mey əzminə bəzm.

Gəl, ey saqi, mənə mey qıl həvalə,
Edibən Əhrimən başın piyalə.

Biz də burada dastanın sonuna gəldik. Dünyəvi eşqi aşaraq mənəvi eşqə keçən, böyük bir məhəbbəti tərənnüm edən, ona əbədi himn kimi səslənən **Fərhad və Şirin** poeması, eləcə də bu mənzumənin müəllifi Mir Əlişir Nəvayi dünyada eşq olduqca yaşayacaq...

EŞQNAMƏ – DƏRDNAMƏ

Butün Şərqdə məşhur olan **Leyli və Məcnun** dastanı müasir elmi-filoloji düşüncədə ərəb mənşəli sayılsa da, əslində babil mənşəlidir. Bəzi alimlərin fikrincə, bu süjet ilk dəfə Babilistanda (indiki Bağdadın civarı) meydana çıxmış, sonra Ərəbistana keçmiş, Nəcd və Taif bölgələrində və ətraf vilayətlərdə yaşayan ərəb qəbilələri, özəlliklə də bəni-əmir qəbiləsi arasında populyar olmuşdur. Daha sonra bu eşq hekayəsi öncə ərəb coğrafiyasına, sonra isə bütün Şərq aləminə və dünyaya yayılmışdır. Bəzi alimlərin düşüncəsinə görə, bu süjet qədim Babilistanın mixi yazılı ədəbiyyatında öz əksini tapmışdır. Bu fikri ilk dəfə Y.Dunayevski 1935-ci ildə **Leyli və Məcnun** poemasının A.Qloba tərəfindən rus dilinə tərcüməsinə yazdığı müqəddimədə irəli sürmüşdür. O, filoloq Mir Məhəmməd Hicazinin bir jurnalda "Kəşfi-ədəbi" başlığı altında çıxan məqaləsinə istinadən göstərmişdir ki, Danimarka şərqşünası Qrin Leyli və Məcnun haqqında mixi yazılar aşkara çıxarmışdır. Həmin yazılarda belə bir məlumat varmış: "Kis və Lilakis adlı iki gənc Babilistanın Günəş məbədində kahin Aştarfalazardan dinin əsaslarını öyrənərkən bir-birlərini sevirlər. Kahin bundan xəbər tutub Kisi qovur, Lilakisi isə məbəddə həbs edir. Kis dəli kimi hər yerdə öz sevgilisini axtarır. Baş kahinin əmri ilə ona ölüm cəzası verilir. Atası məşhur olduğu üçün ölüm cəzası səhraya sürgünlə əvəz edilir. Lilakis qaçıb atası evində gizlənir. Kis onu qaçırmaq üçün məbədə gəlir, ancaq tutularaq ölümcül şəkildə döyülür və yenidən səhraya

qovulur. Kisin atası Lilakisi oğluna almaq istəsə də, qızı onun sərgərdan oğluna vermirlər. Kis səhrada yaşayaraq vəhşilərlə ünsiyyətə girir. Lilakis Salamisin oğluna ərə verilir. Kis ovçu və cəngavər Nofəl ilə tanış olur və ondan kömək istəyir, əvəzində özünün ceyran sürüsünü ona verəcəyini vəd edir. Nofəl güc işlətməklə Lilakisin evinə girib onun ərini öldürür, özünü isə qaçırır. Kis və Lilakis səhrada kəbin kəsdirib xoşbəxt ömür sürürlər. Kis sonra çobanın arvadına aşiq olur, çobanı öldürüb onunla da evlənir. Lilakis isə səhrada yalqızlıq şəraitində ölür."

Y.E.Bertels bu məlumatı qondarma adlandırır və bildirir ki, həqiqi babil mixi mətnləri tapılmadıqca, onu ciddiyə almaq olmaz. Burada diqqəti cəlb edən məsələ adların bir-biri ilə heyrətli dərəcədə səsləşməsidir: Kis–Qeys, Lilakis–Leyli, ibn Salam–Salamis. Bu fakt ədəbiyyatşünasları babil variantına ehtiyatla yanaşmağa vadar edir.

Babil variantının doğru olub-olmamasına baxmayaraq bu hekayənin populyarlaşmasında, dastani mahiyyət qazanmasında, ərəbləşməsində qədim ərəb poeziyasının məşhur nümayəndəsi Qeysin (vəfatı: hicri 80, miladi 699) mühüm rolu olmuşdur. Onun sevgilisi Leyliyə həsr etdiyi bir çox şeirləri sonralar divan halına gətirilmiş, müxtəlif təfsir və yozumlara məruz qalaraq qissə və əfsanə halında geniş kütlələr arasında yayılmışdır. Beləliklə, eşq yolunda Məcnuna (dəliyə) dönən Qeysin və Leylinin dastanı dillər əzbəri olmuşdur. Nizami Gəncəvinin **Leyli və Məcnun** poeması ilə bağlı dərin araşdırmalar aparan mütəxəssislər şairin istifadə edə biləcəyi mənbələr sırasında ibn Qüteybənin **Kitab əş-şeir vəş-şüəra**, əl-Mübərrədin (vəfatı: miladi 898) **əl-Kamil**, Davud əz-Zahirinin (vəfatı: miladi 909) **Kitab əz-Zəhra**, əl-Vəşşanın (vəfatı: miladı 936) **Kitab əl-müvəşşə**, habelə Məsudinin (vəfatı: miladi 957) **Müruc əz-zəhəb**, əl-Valibinin **Divani-Məcnun** və başqalarını göstərmişlər.

Məsələn, əl-Valibi **Divani-Məcnun** adlı əsərə geniş şərhlər yazaraq Məcnunun şeirlərini təhlil etmişdir. Alimlər Nizaminin poemasındakı hadisələrin xronologiyasından çıxış edərək bu nəticəyə gəlmişlər ki, Nizami öz əsərini yazarkən başqa ərəb mənbələrinə nisbətən əl-Valibinin əsərindən daha çox faydalanmışdır. Aşağıdakı epizodların ardıcıllığı da bunu göstərir: Məcnun iztirab çəkir, atası elçiliyə gedir və Leylinin atası ona rədd cavabı verir, Məcnun səhraya düşür, Məkkəyə ziyarətə aparılır və burada Leylinin adını eşidib huşunu itirir, Məcnun evə qayıdır, ailəsi onu dilə tutub başqa qızla evləndirməyə çalışır, Məcnun ceyranları azad edir, səhrada onun görüşünə müxtəlif adamlar gəlir, Məcnunun qəbiləyə qaytarılma planları boşa çıxır, Nofəlin ona kömək etmək cəhdi baş tutmur, Məcnun səhrada qandallı qul gəzdirən qarı ilə rastlaşır və qulu azad edir, Məcnun qarğa ilə söhbət edir. Leyli və Məcnun naməlum adam vasitəsilə məktublaşırlar və s. Nizami bu səhnələrdən istifadə etmiş, lakin əl-Valibidəki bəzi epizodları, o cümlədən Məcnunun ceyranı parçalayan canavarı öldürərək yandırması, Məcnunun uşaqlıqda Leyli ilə birgə sürü otarması, Məcnunun Babilə müalicəyə aparılması, İsa ibn ər-Rəşidin hüzurunda şeir oxuması kimi səhnələri öz poemasına daxil etməmişdir. Nizami bu əfsanəni ərəb mənşəli saymışdır. Şair bu barədə yazmışdır:

Ərəb torpağında bir kişi varmış,
Şöhrəti, hörməti aşıb daşarmış.

O imiş başçısı amirilərin,
Abadmış torpağı olduğu yerin.
(Tərcümə Səməd Vurğunundur).

Başqa ərəb alimləri də Leyli və Məcnunun nakam eşqi haqqında bir sıra rəvayətlər qeydə almışlar. Zamanla bu hekayələr fol-

klora və bədii ədəbiyyata güclü şəkildə sirayət etmiş, ərəb, fars və türk poeziyasına yol tapmışdır. Fars dilində bu mövzuda Nizami Gəncəvi, Əmir Xosrov Dəhləvi, Əşrəf, Əbdürrəhman Cami, Əmir Şeyxim Süheyli kimi korifeylər dastan yaratmışlar. Türkcə isə Gülşəhri, Aşiq Paşa, Şahidi, Məhəmməd Füzuli kimi şairlər ölməz əsərlər meydana gətirmişlər. Beləliklə, Leyli və Məcnunun faciəvi eşqi Şərq ölkələrində yeddidən yetmişə qədər hər kəsə məlum olmuşdur. Populyarlıq baxımından onu **Yusif və Züleyxa**, **Qərib və Şahsənəm**, **Əsli və Kərəm** dastanları ilə müqayisə etmək olar. Böyük şərqşünas akademik İ.Y.Kraçkovski bu dastan haqqında haqlı olaraq belə yazmışdır: «Şərqdə **Leyli və Məcnun** Qərbdəki **Romeo və Cülyetta**ya nisbətən daha məşhurdur».

Leyli və Məcnun Əlişir Nəvayinin xəmsəsinə daxil olan ikinci deyil, üçüncü dastandır. Şair özü onu «üçüncü nameyi-dərd» adlandırmışdır. Yaxın vaxtlara qədər bəzi rus şərqşünasları, o cümlədən Bertels, Klimoviç, Meletinski və başqaları bu əsəri Nəvayi xəmsəsinin ikinci dastanı sayırdılar. Tanınmış özbək nəvayişünası T.Əhmədov şairin bu ifadəsindən, əlyazmaların tərtibi və başqa məlumatlardan çıxış edərək həmin fikrin səhv olduğunu əsaslandırmışdır.

Dastan 1484-cü ildə yazılmışdır. Nəvayi Şərq ədəbi ənənəsinə sadiq qalaraq ilk babları Allahın və peyğəmbərin mədhinə həsr etmişdir. Bu bablarda Nəvayi gerçək bir filosof kimi qarşımıza çıxır. Burada kainatın, günəşin, ulduzların, yerin, göyün, həyatın, insanın, ümumən varlığın yaradılması haqqında söhbət açılmış, Allahın sonsuz qüdrəti vurğulanmışdır. İlin fəsilləri, təbiətin yenilənməsi, canlılara xas olan xüsusiyyət və duyğular, eşq və həsrət, bunlar hamısı Allahın yer üzündə təcəllisi deməkdir. Şair girişdiyi bu ağır işdə Allahdan özünə yardım istəyir:

Bax dərd ü məlalətimə, ya rəbb,
Rəhm eylə bu halətimə, ya rəbb,

Şükrünə dilimi qayil eylə,
Səcdənə başımı mail eylə.

Əksiltmə hidayətini məndən,
Kəm qılma inayətini məndən...

Böyük sənətkar həzrəti-peyğəmbərə həsr etdiyi babda da eyni səmimiyyətlə davranmış, xatəmi-ənbiyanın bütün insanlığa gerçək nümunə təşkil edən xoş əxlaqınından söz açmış, üstün məziyyət və keyfiyyətlərini tərənnüm etmişdir.

Əlişir Nəvayi bu əsərində də özündən əvvəl bu mövzuda qələm işlədən ustadlarını hörmət və izzətlə xatırlamış, onlara bəslədiyi səmimi duyğularını dilə gətirmişdir. O, Nizami Gəncəvinin əsərini qalaya, Əmir Xosrov Dəhləvinin poemasını qəsrə bənzətmiş, öz dastanını isə qala və qəsr ətrafındakı şəhər və bağlarla müqayisə etmişdir.

Nəvayi əsərdə böyük sələfləri Nizamiyə və Dəhləviyə xüsusi bab həsr etmiş, onların böyüklüyünü dilə gətirmişdir. Məlum olduğu kimi, Nizami (1141-1209) Şərq ədəbiyyatında xəmsəçiliyin əsasını qoymuş, ilk xəmsənəvis kimi beş mənzumə qələmə almışdır. Bunlar **Pənc gənc** (**Beş xəzinə**) adı ilə məşhur olan **Məxzən üləsrar (Sirlər xəzinəsi)**, **Xosrov və Şirin**, **Leyli və Məcnun**, **Həft peykər (Yeddi gözəl)** və **İskəndərnamə** poemalarıdır. Nəvayi öz xəmsəsinə daxil olan hər bir dastanın giriş qismində Nizamiyə və onun xəmsəsinə öz böyük hörmət və səmimiyyətini izhar etmişdir.

Nəvayi «Hind sahibi» ifadəsi ilə digər ulu ustadı, xəmsənəvis Əmir Xosrov Dəhləvini (1253-1325) nəzərdə tutmuşdur. Xosrov Dəhləvi Şərq poeziyasının azman nümayəndələrindən biridir. O,

Nizamidən sonra ikinci xəmsəni, yəni **Mətlə' ül-ənvar** (1298), **Şirin ü Xosrov** (1298), **Məcnun ü Leyla** (1298), **Ayineyi-İskəndəri** (1299), **Həşt behişt** (1301) poemalarını yazmışdır. Nizami ilə Nəvayi üçüncü əsərini **Leyli və Məcnun**, Dəhləvi isə **Məcnun ü Leyla** adlandırmışdır. Zənnimizcə, bu əsər hər üç şairin yaradıcılığında onların başlanğıcdan sona qədər davam etdirdikləri əsas qayələrdən bir qədər uzaqlaşmaya, yəni saray və şah mövzusundan, fəlsəfi-didaktik üslubdan sapmaya gətirib çıxarmışdır.

Əlişir Nəvayinin başqa bir ustadı, yaxın dostu, dahi şair və mütəfəkkir, klassik fars-tacik ədəbiyyatının sonuncu böyük nümayəndəsi Əbdürrəhman Cami (1414-1492) olmuşdur. Onun fəlsəfə, tarix, dil, ədəbiyyat, musiqi, əruz, poetika və digər mövzularda yazdığı əsərlərinin ümumi sayı 99-dur. Caminin sələfləri Nizamiyə və Əmir Xosrov Dəhləviyə özənərək yazdığı beş deyil, tam yeddi dastanı öz içinə alan və **Həft övrəng** adlanan əsəri bütün dünyada məşhurdur. Buraya şairin **Töhfət ül-əhrar (Himmətlilərin töhfəsi)**, **Silsilət üz-zəhəb (Altın zəncirlər)**, **Solomon və Əbsal**, **Səbhət ül-əbrar (Yaxşı adamların təsbehi)**, **Yusif və Züleyxa**, **Leyli və Məcnun**, **Xirədnameyi-İskəndər** mənzumələri daxildir. Nəvayi hər əsərinin başlanğıc hissəsində Əbdürrəhman Camiyə də sonsuz ehtiramını və sevgisini bəyan etmişdir.

Nəvayi öz əsərini obrazlı şəkildə «Firaqnamə» və «Nameyi-dərd» adlandırmış, həmişə olduğu kimi dil məsələsinə, yəni türk dili məsələsinə toxunmuş, farsca bu tipli əsərlərin çox, türkcə az olduğunu vurğulamış, farsca bilənlərin bunları şövqlə oxuyaraq zövq aldığını yazmış və türk oxucuları qarşısında öz milli vəzifəsini belə xülasə etmişdir:

Mən türkcə başlaban rəvayət,
Qıldım bu fəsanəni hekayət

Kim, şöhrəti çün cahana dolsun,
Türk elinə dəxi bəhrə olsun.

Neyçün ki bugün cahanda ətrak,
Köpdür xoştəb' ü safi-idrak.

Məlum olduğu kimi, Məhəmməd Füzuli də öz **Leyli və Məcnun** dastanını yaradarkən türkcə əsərlərin azlığını təəssüflə vurğulamışdır:

Leyli-Məcnun əcəmdə çoxdur,
Ətrakdə ol fəsanə yoxdur.

Türkcə yazmaq məsələsi Nəvayidən sonra türk dünyasında bütün dövrlərdə aktual olmuşdur. Məsələn, türkmən ədəbiyyatının klassiki Nurməhəmməd Əndəlib təxminən üç əsr əvvəl **Yusif və Züleyxa** poemasında bu məsələyə qayıtmış, fərdlərin türkcə əsərlər istədiyini, türkcə yazmağın artıq sosial və milli bir sifariş olduğunu göstərmişdir:

Gəldi mənim qaşıma bir şahsuvar,
Nitqi nəzih, yaxşı sözə intizar...

Dedi onlar: – Əndəlibi-binəva,
Könlümüzə düşdü əcəb macəra...

Yusifi-siddiqlə Züleyxanı sən,
Türki-xəlayiqə qılgil əncümən...

Nurməhəmməd Əndəlib „türki-xəlayiq” üçün türkcə əsərlər yazılması zərurətini **Risaleyi-Nəsimi** poemasında da təkrar etmişdir.

Türkcənin bayraqdarı Nəvayinin beş əsrdən bəri davam edən mübarizəsi bugün də qədirbilən nəsillər tərəfindən yüksək qiymətləndirilir. Məşhur türk ədəbiyyatşünası Əhməd Kabaklı şairin ana dili uğrundakı mübarizəsini və fəaliyyətini belə ifadə etmişdir: “Nəvayi Türk Bilgə Kağan və Kaşğarlı Mahmuddan sonra tarix içində tanıdığımız ən şüurlu türk millətçisidir. Milliyət anlayışı onda öncəkilərdən daha dərin və genişdir. Bu milliyətçiliyin amacı bir kültür və ədəbiyyat dili vasitəsilə bütün türklüyü birləşdirmək, tək bir ruh bayrağı altında toplamaqdır”.

Əhməd Kabaklı öz fikrini inkaşaf etdirərək göstərir ki, Əlişir Nəvayinin amalı “təbiət xalqı yerinə kültür xalqı yaratmaqdır”. Alim buna dəlil olaraq şairin öz sözlərini gətirir: “Cahanda türk ədəbiyyatı bayrağını qaldırmaq sürətilə türkləri tək millət halına gətirdim. Heç ordum olmadığı halda Çin sınırına və Təbrizə qədər bütün türk və türkmən ellərini sırf divanımı göndərmək sürətilə fəth etdim. Hatifdən gələn bir səs mənə “Sən qılıncsız olaraq və yalnız qələminlə türk millətinin qəlbini fəth edəcəksən, onları tək bir millət yapacaqsan. Türk ölkəsi sənə aiddir” dedi.

Nəvayi ona Tanrı tərəfindən verilən qutlu missiyanı yerinə yetirmək üçün türkcə xəmsə və türk dilinin farscaya qarşı üstünlüyünü göstərmək üçün **Mühakimət ül-lüğəteyn** kitabını yazmışdır. Xəmsəsinin ən dəyərli əsərlərindən biri olan **Leyli və Məcnun** dastanı Nəvayi dühasının şeirləşmiş abidəsidir.

Dastanın süjeti ana cizgilərilə qısa şəkildə belədir: ərəblərin bəni-əmir qəbiləsinin başçısı çox varlıdır, ancaq övladı yoxdur. Allaha yalvararaq övlad istəyir. Duası qəbul edilir, bir oğlu olur. Uşağa Qeys adı verir, böyüyüncə onu məktəbə qoyurlar. Məktəb qonşuluqdakı həy qəbiləsində yerləşir. Qəbilənin başçısı həmin məktə-

bin müəllimi, qızı Leyli isə şagirdidir. Qeyslə Leyli burada birlikdə oxuyur və bir-birlərini sevirlər.

Tezliklə onların sevgisi faş olur, eldə-obada hamının dilinə düşür. Qeys gecə-gündüz Leylinin evinin ətrafında dolaşır, nəhayət, çöllərə düşür. Hamı ona Məcnun deməyə başlayır. Söz-söhbət gedib Leylinin atasına çatır. O, qəzəb içində Məcnunun atasına xəbər göndərir, oğlunu zəncirləyib evə qapamasını tələb edir, əks halda sərt tədbirlər görəcəyini bildirir. Qeysin atası hədə-qorxu qarşısında oğlunu səhrada tapır, onu zəncirə vuraraq evdə həbs edir. Lakin Qeys ayağındakı zənciri açaraq qaçır.

Bəni-əsəd qəbiləsinin başçısı, son dərəcə varlı adam olan, qızılı qum kimi səpən ibn Salam təsadüfən Leylini görür və ona aşiq olur. Elçi göndərərək qızı istəyir. Leylinin atası razılıq verir, lakin qızın xəstə olduğunu bildirərək bir müddət möhlət istəyir.

Atası Qeysi şəfa tapması üçün Kə'bəyə gətirir. Lakin o, eşqini daha da artırması üçün Allaha yalvarır. Əli yerdən-göydən üzülən atası ondan ümidini kəsir. Məcnun təkrar çöllərə düşür, heyvanlarla ünsiyyət qurur, Leyli üçün şeirlər qoşur.

Qonşu qəbilələrdən birinin başçısı olan cəngavər Nofəl bir gün ov etmək üçün çöldə gəzərkən Məcnuna rast gəlir. Onunla tanış olur, evinə gətirir. Dərdini öyrənib ona kömək etməyə çalışır. Leylinin atasına xəbər göndərib Leylini istəyir. Lakin qızın xeyli vaxtdır ibn Salama nişanlı olduğunu öyrənir. Onda məsələni silah gücünə həll etmək qərarına gəlib qəbiləyə hücum edir. Leylinin atası qəbiləsinin Nofələ məğlub olacağını görərək problemi kökündən həll etmək üçün qızını öldürmək fikrinə düşür. Məcnun bunu yuxusunda görür, savaşı dayandırmağı Nofəldən xahiş edir. Müharibə dayanır, Məcnun yenidən çölün yolunu tutur. Leylinin qəbiləsi qorxudan başqa yerə köçür. Məcnun Leylinin həmqəbiləsi Zeydə rast gəlir, olub-bitənləri ondan öyrənir. Qəbilənin əski yerinə gəlir, kirpikləri ilə yeri süpürür, göz yaşıyla torpağı isladır, qotur bir köpəyi

görüb onun üz-gözünü öpür, köynəyini cırıb itin ayağını sarıyır, dərdini danışır, sonra heyvanlarla görüşmək üçün yenə səhraya qayıdır. Bu arada Zeyd Leylidən məktub gətirir. Öz qəmli halından söz açan Leyli Nofəlin qızını almaq barədə söz-söhbət eşitdiyini bildirir. Məcnun da ona ibn Salamla nişanlandığını xatırladır.

Məcnunun atası onu səhrada tapır, boynuna ip salaraq evə gətirir. Nofəlin qızını ona almaq üçün təşəbbüsə keçir, Məcnun da, Nofəl də bu işə razı olurlar, ancaq Məcnun yenidən çölə qaçır. Dağda Leyligilin çobanına rast gəlir. Çoban ona bir qoyun dərisi geydirib Leylinin olduğu yerə gətirir. Gənclər burada görüşürlər, ikisi də huşunu itirib yıxılır. Leylini evə götürürlər, çoban isə Məcnunu tapdığı yerə aparır. Bundan xəbər tutan atası Məcnunu yenidən evə gətirir, onu Nofəlin qızı ilə evləndirir. Zifaf gecəsi qız başqasını sevdiyini söyləyir və evdən gedir. Nofəl bunları görür, lakin səsini çıxarmır. Həmin gün ibn Salamla Leylinin də toyu olur. Leyli özünü öldürmək üçün zəhərli qılınc hazırlayır. Lakin buna ehtiyac qalmır. Ürəkgetmə xəstəsi olan ibn Salam qəfildən huşunu itirib yıxılır. Öldü sanıb onu başqa otağa aparırlar. Tək qalan Leyli evi tərk edib çölə Məcnunun yanına gəlir, sübhə qədər bərabər olurlar. Səhər tezdən Leyli geri dönür, Məcnun yenə çöldə qalır.

Məcnunun atası-anası bu dərdə dözməyərək ölür, Leyli isə möhkəm xəstələnib yatağa düşür. Məcnun ata-anasının qəbrini ziyarət edir, Leylinin də ölmək üzrə olduğunu sezərək onun çadırına gəlir, heç kimdən çəkinmədən içəri girir. O anda Leyli anasına son vəsiyyətini söyləyir. İki aşiq bir-birini görüncə eyni anda fani dünyadan köçür. Məcnunun çadıra girdiyini görən qəbilə üzvləri qaçıb gəlirlər, lakin ikisinin də öldüyünü görüb heyrət içində qalırlar. İkisini bir kəfənə sarıyıb dəfn edirlər.

Nizami, Nəvayi və Füzuli dastanları arasında bəzi epizod fərqləri ilə birlikdə şairlərin özlərinin fərdi sənət özəllikləri, ayrı etik və estetik idealları da yer alır. Onları birləşdirən ümumi qayə

isə birdir: insan yer üzünün əşrəfidir, məhəbbət əbədidir və ancaq insana xasdır.

Şərq ədəbiyyatında qələmə alınan bütün nakam eşq dastanları insana bir ülvi duyğu aşılayır: eşq, məhəbbət, sevgi olmadan həyatın, varlığın heç bir mə'nası yoxdur. Dahi Nizami Gəncəvi bu fikri bir şah beytində bu şəkildə ifadə etmişdir:

Eşqdir mehrabı uca göylərin,
Eşqsiz, ey dünya, nədir dəyərin?!

Dahi Əlişir Nəvayi isə bir beytində eşq içrə əriyib yox olmağı arzulayaraq belə yazmışdır:

Könlüm qəm ilə tox eylə, ya rəb!
Eşq içrə məni yox eylə, ya rəb!

GÖYQURŞAĞI DASTANI

Klassik fars və türk ədəbiyyatında xəmsələrin mövzuları və qəhrəmanları bir-birindən fərqli olduğu kimi, həm də bənzərdir. Hər bir şair öz xəmsəsinə giriş mahiyyəti daşıyan bir poema ilə başlamış və bu əsərdə öz fəlsəfi düşüncələrini, etik-estetik kredosunu ortaya qoymuş, ədəbiyyat aləminə gəlişini xəbər vermişdir. Bu əsərlər arasında adında *əsrar*, *ənvar* və *əbrar* sözləri olan poemalar üstünlük təşkil edir: **Məxzən ül-əsrar**, **Mətlə ül-ənvar, Töhfət ül-əbrar**, **Gülşən ül-əbrar**, **Minhac ül-əbrar**, **Heyrət ül-əbrar...** Bunlar daha çox didaktik səciyyəli əsərlərdir.

Xəmsənəvislər ilk əsərdən sonra daha dörd (bəzən altı) əsər qələmə alaraq beş məsnəvi (xəmsə), hətta yeddi məsnəvi (səba) yazmışlar. Bu işi ilk dəfə dahi Azərbaycan şairi Nizami yerinə yetirmişdir. Təbii ki, mövzu və qəhrəmanlarım seçimi hər müəllifin şəxsi düşüncəsi ilə bağlı olmuşdur. Öz süjet xəttini müqəddəs kitablardan alan və ya Şərqdə çox məşhur olan **Yusif və Züleyxa**, **Leyli və Məcnun**, **Vamiq və Əzra**, **Sələman və Əbsal**, **Vis və Ramin**, **Süheyl və Növbahar**, **Xurşid və Nahid**, **Xurşid və Mah**, **Bəhram və Güləndam**, **Bəhram və Zöhrə**, **Xosrov və Şirin**, **Fərhad və Şirin**, **Gül və Bülbül**, **Hüsn və Nigar**, **Şəm və Pərvanə**, **Qərib və Şahsənəm** kimi qoşa qəhrəmanlı eşq hekayələri bu janrın başlıca mövzusuna çevrilmişdir. Bu mənzumələrin bir qismi aşiqanə-lirik, digər qismi isə eşqi-təsəvvüfi xarakter daşıyır. Xəmsə yazan sənətkarlar **Leyli və Məcnun**, **Xosrov (Fərhad) və Şirin** mövzusuna daha çox rəğbət bəsləmişlər. Dərin rəğbət görən digər mövzu Makedoniyalı

İskəndərlə bağlıdır. Burada ikili səciyyə var: bəzi şairlərdə İskəndər yalnız qəhrəman, bəzilərində isə həm qəhrəman, həm də peyğəmbərdir. **İskəndərnamə (Şərəfnamə, İqbalnamə), Ayineyi-İskəndər** kimi poemalarda bu obraz ikili planda göstərilmişdir. **Səddi-İskəndəri** dastanında Əlişir Nəvayi ona peyğəmbərlik missiyası yükləməmişdir.

Xəmsələrin tərkibindəki dastanlardan birinin eşqi-sərgüzəşti səciyyə daşıması bir növ dəb olmuşdur. Buna ən çox uyğun gələn süjet Bəhram şah mövzusudur. Bəhramın bir obraz kimi işləndiyi əsərlər sakral yeddi rəqəmi ilə, daha doğrusu, onun miflə qarışıq gerçək həyatı ilə əlaqəlidir. Bəhram hər şeydən əvvəl tarixi şəxsiyyətdir. Keşməkeşli və mürəkkəb bir ömür sürən V Bəhram Gur sasanilər sülaləsinin tanınmış nümayəndələrindən biridir. Atası I Yəzdigird, anası yəhudi eksilarxının qızı Şuşandoxtdur. O, kiçik yaşdan etibarən Yəzdigirdin vassallarından olan ərəb hökmdarı Xira Münzirin yanında xüsusi olaraq onun üçün tikilmiş Xavərnəq sarayında böyümüşdür. Bir dəfə sarayın bir guşəsində yeddi gözəl qızın divara işlənmiş rəsmini görmüş və bundan çox etkilənmişdir. Bəhram yetkinlik çağında Ktesifona (Mədain) gələrək bir müddət burada yaşamışdır. Lakin nə üçünsə atasının qəzəbinə uğrayaraq göz həbsinə alınmış, sonra çətinliklə gəldiyi yerə qayıda bilmişdir.

420-ci ildə I Yəzdigirdin ölümü nəticəsində ölkə xaosa sürüklənmişdir. Otuz şəxs, o cümlədən gənc Bəhram taxt-tac uğrunda mübarizəyə qoşulmuşdur. Ancaq zülmkar atasına görə heç kim onun şah olmasını istəməmişdir. Axırda Bəhram qədim adətə uyğun olaraq iki şirin arasına qoyulan tacı almağı təklif etmiş, şirləri öldürərək tacı götürmüş və taxta çıxmışdır. Bəhram dərhal xalqın xəzinəyə olan vergi borclarını (bəzi mənbələrə görə, 70 milyon günüş sikkə) silmiş, bir sıra islahatlar aparmışdır.

Dini zəmində baş verən olaylar, İranda xristianların, Bizansda isə atəşpərəstlərin sıxışdırılması nəticəsində İran-Bizans savaş-

ları başlamış, nəhayət sülh bağlanmışdır. Bu dəfə də şərqdə hunlarla müharibə aparmaq zərurəti yaranmışdır. Bütün Orta Asiyaya, Əfqanıstana və Hindistanın şimal-qərbinə hakim olan türklərlə, yəni hunlarla Bəhramın ordusu arasında qanlı savaşlar baş vermişdir. Şah bu müharibədə qalib gəlmiş, ölkəsinin təhlükəsizliyini təmin etmişdir. Bundan sonra arxayınlaşaraq dövlət işlərini tamamilə unutmuş, bütün vaxtını eyş-işrətə sərf etmişdir. Bəzi mənbələrə görə, onun çoxlu hərəmində minə yaxın qadın olmuşdur. Şəhvət düşkünü şahın ölkəsində qanunsuzluq, zülm və anarxiya baş alıb getmişdir.

Bəhramın son dərəcə mahir ovçu olması, özəlliklə vəhşi eşşək – gur və ya qulan (onaqr) ovunu sevməsi də tarixi faktdır. Sırf buna görə ona Bəhram-Gur deyilmişdir. Şahın faciəli sonu da elə ovçuluqla bağlı olmuşdur. Bəhram növbəti ov zamanı qaçan çöl eşşəyini qovaraq bir mağaraya girmiş və yoxa çıxmışdır. Tarixçilərin fikrincə, şah dərin bir quyuya düşmüş və ya düşmənləri tərəfindən öldürülmüşdür. Bəhram 420/421-ci ildən 438/439-cu ilə qədər İran taxtında hökm sürmüşdür.

Qeyd etdiyimiz kimi, Bəhram-Gurun həyatı bədii matreial kimi çox əlverişli olmuş, onun təsvir və tərənnümü şairlərə geniş imkanlar açmışdır. Bəhramın şəxsində məhəbbət və sərgüzəşt bədii ədəbiyyatda çox uyumlu şəkildə öz əksini tapmışdır. Onu da xüsusi vurğulamaq lazımdır ki, digər şahlar kimi Bəhramın həyatı da ilk dəfə Firdövsi tərəfindən **Şahnamə**də təsvir edilmişdir. Nizami oradan aldığı məlumatları digər mənbələr hesabına zənginləşdirərək məşhur **Həft peykər**, bizdə qəbul olunmuş adı ilə **Yeddi gözəl** poemasını yazmışdır. Əmir Xosrov Dəhləvi Bəhram mövzusunu **Həşt behişt** əsərində, Rayi Hidayətullah **Həft peykər**, Hatifi **Həft mənzər,** Əşrəf isə **Həft övrəng** dastanında işləmişdir.

Burada yerə gəlmişkən Əşrəf haqqında bir neçə kəlmə demək lazımdır. Tam adı Əşrəf ibn Şeyx ül-imam Əbülhəsən ibn əl-

Həsən əl-Marağayi ət-Təbrizi olan Əşrəf (?-1450 və ya 1460) XV əsrin görkəmli şairlərindən biridir. O, dörd divan sahibi, xəmsə müəllifidir. Onun xəmsəsinin 1457-ci ildə üzü köçürülən yeganə nüsxəsi Oksfordun Bodlean kitabxanasında (inv. No. 875) saxlanır. Buraya ümumi həcmi 23.630 beyt olan xəmsəsinin **Minhac ül-əbrar**, **Riyaz ül-aşiqin**, **Eşqnamə**, **Həft övrəng** və **Zəfərnamə** dastanları daxildir.

Nizami Bəhramın uşaqlığı, Simnarın Bəhram üçün Xavərnəq adlı saray tikməsi, bundan yaxşısını tikməməsi üçün memarın minarədən aşağı atılıb öldürülməsi, Bəhramın çöl eşşəyi (qulan, gur) ovuna həvəs etməsi, başqaları ovlamasın deyə qulanlara öz damğasını vurub buraxması, bir oxla qulanı və onun üstünə çullanan şiri öldürməsi, əjdahanı öldürüb xəzinə tapması, sarayın bir guşəsində yeddi gözəlin rəsmini görməsini tarixdə olduğu kimi təsvir edir. Bəhram burada Furək, Yağmanaz, Nazpəri, Nəsrinnuş, Humay, Azəryun və Dürsəti adlı gözəlləri görür. Bəhram daha sonra atasının ölüm xəbərini eşidib İrana gəlir, taxta çıxmaq üçün mübarizəyə qoşulur, iki şir arasına qoyulmuş tacı alaraq taxta çıxır, ilk dövrdə ölkəni ədalətlə idarə edir, quraqlıq zamanı xalqa taxıl paylayır.

Bu arada Çin xaqanı İrana hücum edir, Bəhram onu yenir.

Bəhram sonra özünü ovçuluğa və eyş-işrətə verir. Onun Fitnə adlı kənizlə macərası dastanda çox mühüm yer tutur. Bir dəfə ov zamanı Fitnə Bəhrama deyir: «Bacarırsansa oxla şikarın ayağını qulağına tik!» Sonra isə şaha "Bu məharət deyil, məşqin nəticəsidir" deyir. Bəhram qıza qəzəblənir və adamlarından birinə onu öldürməyi tapşırır. Sonra bundan dərin peşmanlıq duyur, sarsılır, özünə yer tapa bilmir. Xosrov Dəhləvidə bu epizod bir az fəqli şəkildədir: Dilaram deyir: "Erkək maralı dişi, dişi maralı erkək elə!" Şah iki oxla erkək maralın buynuzlarını vurub salaraq onu „dişi" marala, dişi maralın başına iki ox sancaraq onu „erkək" marala çe-

virir. Dilaram „Bu hünər deyil, cadu, sehr işidir“ deyir. Firdövsidə bu qızın adı Azadə, Əmir Xosrov Dəhləvidə və Əlişir Nəvayidə Dilaramdır. Son iki əsərdə Dilaramlar səhrada taleyin ümidinə tərk edilmişlər.

Fitnəni unutmaq üçün Bəhram şah yeddi qəsr tikdirir, onları hər iqlimin rənginə uyğun şəkildə boyatdırır-bəzətdirir, yeddi iqlimdən padşah qızlarını alaraq bu saraylara yerləşdirir, hər gün bir qızın yanına gedərək onun qonağı olur, qızların danışdığı hekayələri dinləyərək təskinlik tapır. Axırda Bəhram ovun dalınca mağaraya girir və yox olur. Bəhramın şəhvətə çox düşkün olması və əsərdə bunun ən parlaq boyalarla təsvir edilməsi nəticəsində bəzən bu mənzuməni xarici ölkələrdə erotik poeziya nümunəsi kimi qəbul etmişlər.

Həşt behiştdə Bəhram kənizi Dilram və vəziri ilə birlikdə daima ova çıxmışdır. Vəzir bundan cana doymuş, gizlicə yeddi köşk inşa etdirmiş və yeddi iqlimdəki şahların ən gözəl qızlarını oraya gətirtmişdir. Dilaramı səhrada atıb gedən Bəhram artıq ovdan vaz keçmiş, hər gün bir qızla əylənərək özünü ovutmağa başlamışdır. Burada qızların danışdığı hekayələr hind folklorundan alınmışdır. Sonda şah yenidən ova çıxmış, bir çöl qulanını qova-qova bir mağaraya girmiş və yox olmuşdur. Bu epizodu və şahın yeddi qızla keçirdiyi günlər haqqında yeddi hekayəni bir poemada birləşdirən Əmir Xosrov Dəhləvi öz əsərinə **Həşt behişt** (Səkkiz cənnət) adını vermişdir.

Nəvayinin **Səb’ayi-səyyar**ında Bəhram Dilaramı tapmayınca xəstələnmiş, dörd yüz həkim onu sağaltmağa çalışmış, lakin bunu bacarmamış, eşqə çarə olmaz demişdir. Onda dövlətin başbilənləri yeddi rəngdə yeddi saray tikdirmiş, yeddi iqlimdən yeddi padşah qızını gətirərək bu saraylara yerləşdirmişlər. Bəhram hər gecə növbə ilə sarayların və oradakı qızların paltarına uyğun rəngdə geyinərək qızlara qonaq gəlmişdir. Hər gecə qızların deyil, birinci,

ikinci… yeddinci iqlim yolundan gətirilən müsafirlərin danışdıqları hekayələri dinləmişdir. Yeddinci hekayə Dilaramın hekayəsi imiş. Bunu dinləyincə Bəhram qızın sağ olduğunu başa düşmüş, onun yerini öyrənmiş, adam göndərib Dilaramı gətirtmişdir. İki sevgili qovuşmuş, Bəhram əski şən və qayğısız günlərinə geri dönmüşdür. Bir gün ova çıxmış və o məşum aqibətlə üzləşmişdir. Göründüyü kimi, Nəvayi dastanın süjetini öz poetik məramına uyğun olaraq xeyli dəyişdirmişdir.

Səb'ayi-səyyar eşqi-sərgüzəşti səciyyə daşıyır. Mənzumənin qısa məzmunu da bunu göstərir. Əsər beş min doqquz beytdən ibarətdir. Əvvəldə tövhid, münacat, nə't və me'rac hissələri yer alır. Daha sonra sözün tərifi verilir, nəzmin nəsrdən üstünlüyü göstərilir. Böyük ustadlardan Nizami və Əmir Xosrov Dəhləvi və Əşrəf Marağayi xatırlanır. Yeddinci fəsil Nəvayinin mürşidi və yaxın dostu Mövlanə Nurəddin Əbdürrəhman Camiyə həsr olunur, ünlü sənətkarın on iki əsəri haqqında bilgi verilir. Məlumat üçün bildirək ki, Nəvayi digər əsərlərində olduğu kimi burada da Nizami və Dəhləvinin ikisinə bir fəsil həsr etdiyi halda, Camiyə xüsusi bir fəsil ayırır. Bu da onun ustadı və mürşidi Camiyə bəslədiyi xüsusi rəğbətinin və sevgisinin təzahürüdür.

Növbəti babda Nəvayi gördüyü qəribə bir yuxudan söz açır. O, göydə müxtəlif rəngdə yeddi künbəz görür. Burada xeyli dolaşır, qəribə əfsanələr eşidir, nəhayət, Xızır kimi bir qoca onun yanına gəlib deyir: bu gördüklərin və anlamadığın şeyləri Nizami və Dəhləvi yazdılar. Sən isə iki il çalışıb üç xəzinə yaratdın. İndi dördüncüyə başla. Nəvayi bu hində ayılır, bu işdə Allahdan və ustadlarından mədəd diləyir.

Şair sonrakı iki fəsli dostu Sultan Hüseyn Bayqaraya və xanımı Xədicəbəyimə həsr edir. Burada hökmdar-şair Sultan Hüseyni tərifləyir, xanım sultana "Bilqeysi-sani" (ikinci Bilqeys), "məhdi-ülya" (ali rəhbər) və "ismət id-dünya" (dünya pakizəsi) deyir, hətta

Sarayi-üzma (İbrahim peyğəmbərin arvadı) və Xədiceyi-kübra (Məhəmməd peyğəmbərin zövcəsi) adlandırır, onun gözəlliyi önündə sünbül və nərgizin xəcalət duyduğunu yazır, oğlanları Müzəffər Mirzəni və Şah Qərib Mirzəni (Qəribi təxəllüslü şairi) vəsf edir. Nəvayi Xədicəbəyimin şəninə xüsusi qəzəl də yazmışdır.

Nəvayi dastana başlamazdan əvvəl süjeti dəyişdirdiyi üçün ustadlardan üzr istəyir, Nizami ilə Dəhləvinin bəzi məsələlərdə yanıldığını, onların dövründə mənbələrin indiki qədər çox olmadığını vurğulayır. Nəhayət, 11-ci babdan etibarən dastana başlayır. Bəhram Çin fəğfurunu və Rum qeysərini məğlub edərək yeddi iqlimə hakim olur. Gündə ova gedir, sazlı-sözlü məclislər qurur. Bir gün ovda çinli rəssam Maniyə rast gəlir. Mani ona Xıtayda yaşayan varlı bir adamdan və onun son dərəcə gözəl bir cariyəsindən söz açır, qızın rəsmini göstərir. Bəhram qıza aşiq olur. Yüz adama Xıtayın bir illik xəracını verib qızı gətirməyə göndərir. Adamlar Xıtaya gəlib Bəhramın məktubunu xaqana təqdim edirlər. Xaqan o varlı adamdan Dilaramı alıb karvanla yola salır. Bəhram Dilarama qovuşur.

İki aşiq bir neçə il şad-xürrəm yaşayırlar. Bəhram dövlət işlərini tərk edir, zövq-səfaya dalır. Yaxın adamları məmurların xalqa zülm etdiklərini şaha çatdırırlar, lakin bunun xalqa heç bir xeyri olmur. Bəhram bir gün ov edərkən qabağından bir əlik qaçır. Bunu harasından vurum deyə şah Dilaramdan soruşur. O da kürəyinin ortasından vur, sonra uzaqdan ox ilə öldür deyir. Mahir ovçu olan Bəhram onun dediyini yerinə yetirir. Dilaram isə bunun ustalıq deyil, vərdiş olduğunu söyləyir. Sərxoş şah çox qəzəblənir, qızı çölə atmağı əmr edir. Səhər ayılınca Dilaramı soruşur, vəziyyəti ona danışırlar. Şah dərhal hadisə yerinə gəlir, Dilaramı hər yanda axtarır, ancaq tapa bilmir. Çox sarsılır, özünü öldürmək istəyir, dəli kimi çöllərdə dolaşır, axırda bir guşəyə çəkilir, gecə-gündüz ağlayıb sızlayır. Yaxın adamları buna çox üzülürlər, lakin bir çarə tapa bilmir-

lər, axırda şahı saraya gətirirlər. Dörd yüz həkim onun müalicəsi ilə məşğul olur, yüz nəfər durmadan dua edir, yüz nəfər sehr və tilsim işləri ilə uğraşır, yüz nəfər yeyib-içmək, yəni mətbəx, yüz nəfər deyib-gülmək, yəni saz-söz işlərinə baxır. Şah bir qədər özünə gəlir.

Şaha tabe yeddi iqlimin xanları-xaqanları toplaşıb belə qərara gəlirlər: hər kəs öz iqliminə uyğun bir saray tikdirəcək, Bəhram da hər gün bir saraya gedib orada əylənəcək. Mühəndislər sarayları inşa edir, rəssam Mani onları müvafiq şəkildə süsləyir, sonra xaqanlar öz ölkələrindən birər qız seçib buraya göndərirlər. Qızlar saraylara yerləşirlər.

Şənbə günü Bəhram qara paltar geyərək qara rəngli saraya gedir. Burada onu qara geyimli hind gözəli qarşılayır. Onun ölkəsi Hindistan farsca Keyvan, ərəbcə Zühal, türkcə Səkəntir, latınca Saturn və yunanca Kronos adlanan səyyarənin, planetin hökmü altındadır. Şah gəlib burada əylənir, yeyib-içir. Gecə yuxusu qaçır. Birinci iqlim yolundan gətirilən müsafir ona bir hekayə danışır.

Ümumən bu hekayələrin dastanla, ələlxüsus Bəhramla üzvi əlaqəsi, ciddi bir bağlılığı yoxdur, onlar süjetdən xaric elementlərdir. Bu mənada ilk altı hekayənin qısa məzmununu verməyə heç bir lüzum yoxdur. Bunlar şairin sənətkarlığı, onun həyata baxışı, müxtəlif məsələlərə münasibəti baxımından maraqlıdır. Məsələn, birinci iqlim yolundan olan müsafir şaha Əxi və Fərrux haqqında bir hekayə danışır. Hekayə dostluq, sədaqət və vəfa haqqındadır. Bu cür hekayələri **Məxzən ül-əsrar**, **Heyrət ül-əbrar** kimi dastanlarda görmüşük.

Bazar günü Bəhram sarı paltar geyərək sarı rəngli saraya gedir. Burada onu sarı geyimli rum gözəli qarşılayır. Onun ölkəsi Rum farsca Mehr, ərəbcə Şəms, türkcə Günəş, latınca Sol və yunanca Apollo adlanan səyyarənin, planetin hökmü altındadır. Şah rum qızına qonaq olur, onunla əylənir, gözəl vaxt keçirir. Gecə yenə yuxusu qaçır. Bu dəfə ikinci iqlim yolundan gətirilən müsafir

Bəhrama maraqlı bir hekayə danışır: Rumda Zeyd Zəhhab adlı hiyləgər bir zərgər vardı. O, şaha tac düzəldir, bu zaman qızıla gümüş qataraq qızılın bir qismini mənimsəyir. Məsələnin üstü açılır, şah onu zindana salır, lakin Zeyd oradan qaçaraq Konstantiniyyəyə gedir. Orada da fırıldağa əl ataraq Ruma geri qayıdır, şahı sağalmaz xəstəlikdən xilas edir və yenidən onun rəğbətini qazanır. Hekayəni danışan bildirir ki, o, Zeydin qohumudur. Şah onu sarayda saxlayır.

Bazar ertəsi günü Bəhram yaşıl paltar geyərək yaşıl rəngli saraya gedir. Burada onu qarşılayan gözəlin ölkəsi farsca Mah, ərəbcə Qəmər, türkcə Ay, latınca Luna və yunanca Artemis adlanan səyyarənin, planetin hökmü altındadır. Şah bu sarayda yeyib-içir, əylənir. Yenə yuxusu qaçır. Bu dəfə üçüncü iqlim yolundan gətirilən müsafir ona macəra dolu bir hekayə danışır. Həmin hekayənin qısa məzmunu belədir: Misirdə Sə'd adlı bir gənc buraya Səbzşəhrdən gəlmiş yaşıl geyimli iki gənclə tanış olur. Onlardan eşidir ki, həmin şəhərdə qəribə bir monastır var, kim gecə orada yatsa, yuxuda öz gələcək həyatını görür. Sə'd oraya gəlir, yatır və gələcəyini görür. Mağarada inzivaya çəkilmiş pirin yanına gedir, ondan məsləhətlər alır, nəhayət, əjdəhanı və divi öldürüb şahın qızı ilə evlənir. Monastırda gördüyü yuxu çin olur.

Çərşənbə axşamı Bəhram qırmızı paltar geyərək qırmızı rəngli saraya gedir. Burada onu qırmızı geyimli slavyan gözəli qarşılayır. Onun ölkəsi farsca Bəhram, ərəbcə Mərrix, türkcə Bakırsokum, latınca Mars və yunanca Ares adlanan səyyarənin, planetin hökmü altındadır. Şah gəlib burada əylənir, yeyib-içir. Gecə yuxusu qaçır. Dördüncü iqlim yolundan gətirilən müsafir ona Məs'ud adlı bir gəncin başına gələn sərgüzəşti danışır. Məs'ud Taraz valisi tərəfindən quyuya salınır, sonra vəzirin qızı sayəsində oradan çıxıb qızla birlikdə qaçır, axırda bütün düşmənlərini yenir.

Çərşənbə günü Bəhram mavi paltar geyərək mavi rəngli saraya gedir. Burada onu mavi geyimli gözəl qarşılayır. Onun ölkəsi

farsca Dəbir, ərəbcə Ütarid, türkcə Dilək, latınca Merkuri və yunanca Hermes adlanan səyyarənin, planetin hökmü altındadır. Şah gəlib burada əylənir, yeyib-içir. Gecə yuxusu qaçır. Beşinci iqlim yolundan gətirilən müsafir ona bir Mehr və Süheyl haqqında hekayə danışır. Bu hekayənin əsas qayəsi ilahi ədalətin təcəlli edəcəyini, haqqın-həqiqətin əvvəl-axır öz yerini tapacağını göstərməkdir.

Cümə axşamı günü Bəhram səndəli paltar geyərək səndəl rəngli saraya gedir. Burada onu səndəli geyimli gözəl qarşılayır. Onun ölkəsi farsca Bircis, ərəbcə Müştəri, türkcə Ərəntüz, latınca Yupiter və yunanca Zevs adlanan səyyarənin, planetin hökmü altındadır. Şah gəlib burada əylənir, yeyib-içir. Gecə yuxusu qaçır. Altıncı iqlim yolundan gətirilən müsafir ona bir hekayə danışır. Müqbil və Müdbir haqqındakı bu hekayə də sərgüzəşti səciyyə daşıyır və özlüyündə çox maraqlıdır. Burada Müqbil və Müdbir xeyirlə şəri, yaxşılıqla pisliyi, doğru ilə yalanı təmsil edirlər. Ən sonda xeyri və ədaləti təmsil edən Müqbil qalib gəlib xoşbəxt olur.

Cümə günü Bəhram ağ paltar geyərək ağ rəngli saraya gedir. Burada onu ağ geyimli Çin gözəli qarşılayır. Onun ölkəsi farsca Nahid, ərəbcə Zöhrə, türkcə Çolpan, latınca Venera və yunanca Afrodita adlanan səyyarənin, planetin hökmü altındadır. Şah gəlib burada əylənir, yeyib-içir. Gecə yuxusu qaçır. Yeddinci iqlim yolundan gətirilən müsafir ona bir hekayə danışır. Bu hekayə əsər üçün çox önəmlidir və Bəhramla üzvi surətdə bağlıdır.

Müsafirin nəql etdiyi hekayənin qısa məzmunu belədir: Mən Xarəzmliyəm, sənətim saz çalmaqdır. Bir gün şəhərimizə Xıtay ölkəsindən zəngin bir tacir gəldi. Onun yanımda saz-söz sənətində çox usta, müstəsna dərəcədə istedadlı və olduqca gözəl bir qız vardı. O, pərdə arxasında oxuyanda bütün dinləyicilər məst olurdu. Ölkənin şahı da təğyir-libas olub qızı dinləyirdi, o da qıza aşiq olmuşdu. Şah bir gün qızı tacirdən istədi. Tacir dedi ki, qız çox sərbəst və dikbaşdır, şaha boyun əyməz. Şah qəzəblənib qızı ondan zorla aldı.

Qız şahın sarayında elə çalıb-oxudu ki, şah qarışıq hamı yuxuya getdi, qız da qaçıb evinə gəldi. Bu əhvalat bir neçə dəfə təkrar oldu, axırda şah məcbur qalıb qızdan əl çəkdi. Mən özüm də çox varlı idim, həm də qızın heyranlarından biri idim. Bir gün gedib onlara qoşuldum. Qızın bir dərdi olduğunu anladım. Çox yalvarsam da sirrini mənə açmadı. Bir gün ona dedim ki, sən öz sirrini mənə aç, mən də bu şəhərdən çıxıb gedim. Razılaşdıq. Qız başından keçən əhvalatı mənə danışdı: mən çinliyəm, bir savaşda əsir düşdüm. Tacir məni alıb övladlığa götürdü. Səsim çox gözəl idi. Şöhrətim hər yana yayıldı. Rəssam Mani mənim şəklimi çəkib cahan şahlarından birinə göstərdi, o da mənə aşiq oldu. Şah Xıtayın illik xəracını verib məni aldı. Şah məni çox sevir, yanından ayırmırdı. Ova gedəndə də məni özü ilə aparırdı. Bir gün ovda dilimə hakim ola bilmədim, şahı tənqid etdim, o da məni çölə atıb getdi. İki gün ac-susuz qaldım. Axırda mənim sahibim gəlib məni təsadüfən tapdı və alıb geri götürdü. Başıma gələnləri ona danışdım. Biz Xarəzmə gəldik. Bu ağ paltar mənim kəfənimdir. İndi ki hər şeyi öyrəndin, daha buradan get. Mən sözümə əməl edib onun yanından çıxıb getdim. İndi bu ağ sarayı görüncə o qızın hekayəsi yadıma düşdü. Ağ geyimli o qız bu saraya çox layiqdir.

Bəhram bu hekayəni dinləyincə dəfələrlə ölüb dirilmişdi. Hekayə bitən kimi onu danışanı qucaqladı. Sanki ölən adama təkrar can verilmişdi. O bəyaz libaslı qız Dilaram idi. Bəhram Dilaramın dalınca dərhal Xarəzmə getmək istədi. Dövlət adamları buna mane oldular, tacirə məktub yazmağı qərara aldılar. Ona da, Xarəzm şahına da məktub yazdılar. Müəyyən vaxt keçəndən sonra tacirlə qız Xarəzmdən gəldi. Bəhramla Dilaram bir-birinə qovuşdu. Bundan sonra Bəhram tam sağaldı, sevgilisi ilə birlikdə hər gün bir saraya gedib əyləndi, gözəl vaxt keçirdi.

Bir gün böyük bir sürək ovu tərtib edildi. Bərəyə çoxlu heyvan yığıldı. Ovlanan heyvanların qanı sel kimi axdı, çayların rəngi

qırmızıya çaldı, qandan arxlar yarandı. Səhradakı otlar, kollar sürətlə boy atdı, hər yan palçıq oldu. Ov dalınca at sürənlər yarıya qədər palçığa batdılar. Axşam oldu, yağmur şiddətləndi, tufan başladı. Yüzlərcə, minlərcə adam palçığa saplanıb qaldı. Buradan xilas olmaq istəyənlər bir-birinə sarılır, sarıldıqca daha da dərinə batırdılar. Şah da, yanındakı əskərləri də qarışqa kimi qaynayıb palçığa gömüldülər, kimsə xilas ola bilmədi.

Bundan sonrakı babda Nəvayi dünyanın faniliyindən şikayət edir, Bəhramı və digər şahları bir-bir yada salır, lakin dünyanın onlara da qalmadığını bildirir.

Nəvayi əsərini bitirdikdən sonra uyuyur. Röya ilə gerçək arasında ikən bir adam gəlib şahın onu görmək istədiyini söyləyir. Bir qız da gəlib şairi səkkiz banu adından salamlayır. Nəvayi onu çağıranların kim olduğunu soruşur. Ona deyirlər ki, səni çağıran Bəhram şah, səkkiz banu isə onun yeddi gözəli və sevgilisi Dilaramdır. Şair məmnun olur və şahın hüzuruna çıxır. Bəhram onu qucaqlayıb öpür, qızlar da əllərinin ucunu verirlər. Şah şairə belə bir gözəl əsər yazdığı üçün, həm də əvvəlki şairlərdən fərqli olaraq ancaq gerçəkləri qələmə aldığı üçün, onun adını unudulmağa qoymadığı üçün təşəkkür edir. Bəhram deyir ki, indi cahan padşahı Sultan Hüseyn Bayqaradır, o, qəhrəmanlıqda mənə oxşayır. Ona məndən salam söylə. Nəvayi bu əsəri türklərin anlaması üçün türkcə yazdığını da bildirir.

Sonuncu babda Əlişir Nəvayi öz əsərindən yana tərəddüdünü dilə gətirir. Əsərin özünə xoş gəldiyini, lakin oxucuların onu necə qarşılayacağını bilmir.

Oldu çün bu rəqəm işi təyyar,
Qoydum adını «Səb'ayi-səyyar»...

Mana əyyamı gərçi yad ərməs,
Lek dörd aydan ziyad ərməs.

Olsam özgə ümurdan əmin,
Var idi dörd həftə həm mümkün...

Gərçi tarixi ərdi səkkiz yüz
Səksən ötmüş idi yenə doqquz.

Ayı onun cümadiy üs-sani,
Pəncşənbə yazıldı ünvanı.

Vərəq ü sətrin eyləbən tə'yin,
Beytini beş min eylədim təxmin.

Səb'ayi-səyyar adını verdiyi mənzumənin beş min beytdən artıq olduğunu və dörd ay ərzində tamamladığını, başqa işləri olmasa dörd həftəyə də yaza biləcəyini söyləyir. Əsəri 889-cu ilin cümadiyüs-sani ayında çərşənbə axşamı günü bitirdiyini göstərir. Bu, miladi tarixlə 1484-cü ilin iyul ayının 1, 8, 15 və ya 22-sinə təsadüf edir. Nəvayi buna görə ulu Tanrıya şükr edir.

Bəhram şah mövzusu Nəvayidən sonra da özbək ədəbiyyatında geniş şəkildə işlənmişdir. XVIII əsrdən bəri yazılı və şifahi ədəbiyyatda **Bəhram və Güləndam** dastanı yayılmağa başlamışdır. Kaşğarlı Qəribi XIX əsrdə **Şah Bəhram və Dilaram** əsərini qələmə almışdır. Ömər Baqi **Qisseyi-həft mənzər Bəhram**, Fazil Yoldaşoğlu isə **Bəhram və Güləndam** adlı dastanlar yazmışlar.

Zənnimcə, sonda yeddi rəqəmi haqqında bir neçə kəlmə demək pis olmazdı. Bu, Şərq ədəbiyyatında və folklorunda sıx-sıx işlənən üç, doqquz, qırx rəqəmi kimi sakral rəqəmlərdən biridir. Dilimizdə farsca saylarla, rəqəmlərlə bağlı daşlaşmış xeyli ifadə var. Məsələn, yekcins, yekparə, yekrəng, dübeyt, çaharyar (dörd səhabə), pənc-ərkan (islamın beş şərti), şeşpər (altı pərli silah), həft qələm (yeddi xətt növü: mühəqqəq, reyhani, süls, tövqi, nəsh, riq'ə, təliq), həft iqlim, həft əxtər (yeddi ulduz-planet: Ay, Dilək, Çolpan,

Günəş, Bakırsokum, Ərəntiz, Səkəntir), həft cuş (yeddi metal: dəmir, sink, qurğuşun, mis, qalay, qızıl, gümüş), həft dərya (Sakit okean, Atlantik okeanı, Aralıq dənizi, Qara dəniz, Təbəriyyə dənizi, Xəzər dənizi, Aral dənizi), həft övrəng (yeddi ulduz, Kiçik Ayı bürcü), həşt behişt (səkkiz cənnət: illiyin, səlam, mə'va, hüld, nə'im, qərar, firdövs, ədn), noh fələk (doqquz fələk) və s. Bunların içində ən çox işlənəni həft (yeddi) rəqəmidir. Bu mənada mənzumənin **Həft peykə**r adlanması, süjetin yeddi rəqəmi üzərində qurulması təsadüfi deyil.

Poema əruzun xəfif bəhrinin xəfifi-müsəddəsi-salimi məxbuni-məhzuf vəznində (təqti və rüknü: failatun-məfailun-fəilun) qələmə alınmışdır. Səkkiz ritmik variasiyaya sahib olan bu vəzndən əsərin məzmununa görə yeri gəldikcə istifadə edilmişdir.

Səb'ayi-səyyar sadə bir əsər deyil, o, dünya ədəbiyyatı səmalarında yeddi rəngli göyqurşağıdır. Əlvan, rəngləri bir-birindən işıqlı və canlıdır. Əbədiyyətə qədər parlayacaq.

TÜRK ƏDƏBİYYATININ DÜHASI

Nizaməddin Mir Əlişir Nəvayi ümumtürk ədəbiyyatının ən böyük, ən ulu şairidir. O, ortaq mədəniyyət və ədəbiyyat tariximizdə misilsiz, tayı-bərabəri olmayan bir dühadır. Türk tarixində hələ heç bir sənətkar onun qədər parlaq və zəngin irs yaratmamış, onun qədər dəyərli miras qoyub getməmişdir. Nəvayi həm də türk dünyasının böyük dövlət xadimi, siyasət və fikir adamıdır. Ona görə də bu nadir şəxsiyyətin və iste'dad sahibinin həyat və sənət yolunu ana cizgiləri ilə bir daha xatırlamaq yersiz olmazdı.

Nəvayi son dərəcə mürəkkəb bir dövr və münbit mühitdə yetişmişdir. Teymurilər səltənətinin bütün ehtişamı ilə ayaqda olduğu, elm və mədəniyyətin sürətlə inkişaf etdiyi həmin dövr Orta Asiya tarixinin ən maraqlı və parlaq dövrüdür. Qismətdən Nəvayinin ailəsi aristokratik dairələrə yaxınlığı sayəsində saray ərkanı zümrəsinə daxil olmuşdur. Onun babası Əbu Səid Çəng və atası Qiyasəddin Kiçkinə həmin dövrün siyasi və hərbi xadimləri kimi teymurilər xanədanına mənsub sultanların yanında xidmət etmiş, bəylərbəyi və əmir olmuşlar. Əlişir Nəvayi özü isə gələcəyin ünlü şairi və hökmdarı Sultan Hüseyn Bayqara ilə eyni mədrəsədə oxumuş, mühüm elm və mədəniyyət mərkəzləri olan Mərv, Məşhəd, Səmərqənd və Heratda təhsil almış, özəlliklə Şeyx Kəmali Türbəti və Xacə Fəzlullah Əbu'l-Leysidən çox şey öyrənmişdir. Müəllimi Mirzə Əbülqasim, yaxın dostları Həsən Ərdəşir və Lüfti onu türkcə yazmağa təşviq etmişlər. Üstəlik, Qəbuli və Qəribi təxəllüsü ilə türkcə

şeirlər yazan iki dayısı da dil baxımından ona böyük təsir göstərmişdir.

Sultan Hüsyn Bayqara Heratı alınca Nəvayini yanına çağıraraq, ona möhrdar vəzifəsini vermişdir. 1472-ci ildə 31 yaşında ikən əmir rütbəsinə layiq görülən Nəvayi sarayda divanbəyi, Heratda naib, Əstərabadda vali, axırda isə Bayqaranın vəziri və nədimi olmuş, bütün vəzifələrdə can-başla çalışaraq, dövlətə sədaqətlə xidmət etmişdir. Ağır dövlət işləri, qanunsuzluq və ədalətsizliyə qarşı mübarizə ona çoxlu düşmən qazandırmış, səhhətinə mənfi təsir göstərmiş, aradabir sultanla münasibətlərinin gərginləşməsinə səbəb olmuşdur. Lakin Nəvayi bütün bu maneələrə baxmadan yazıb-yaratmağa davam etmiş, bir-birindən gözəl əsərlər meydana gətirmişdir.

Şair 1476-cı ildə dostu və müəllimi Əbdürrəhman Caminin təklifi ilə nəqşibəndi təriqətinə daxil olmuşdur.

1489-cu ildə dostu Seyid Həsən Ərdəşirin ölümü, həmin il Bəlx valisi olan qardaşı Dərviş Əlinin dövlətə qarşı üsyanı, 1492-ci ildə mürşidi və dostu Əbdürrəhman Caminin vəfatı, saray çəkişmələri, Hüseyn Bayqara ilə oğlu Bədiüzzaman arasındakı hərbi qarşıdurmalar Nəvayini fiziki və mənəvi cəhətdən sarsıtmışdır. O, şair-hökmdar dostu ilə oğlu arasında barışıq yaratmaq üçün çox çalışmış, lakin buna nail ola bilməmişdir. Bu intriqalar nəticəsində Sultan Hüseyn Bayqaranın nəvəsi, yəni Bədiüzzamanın oğlu şəhid olmuşdur. Bayqaranın o biri arvadı öz oğlunu taxta keçirmək məqsədilə Bədiüzzamanın oğlunu aradan götürmək üçün qəddar və sinsi bir plan qurmuş, zil-sərxoş olan sultana nəvəsinin edam fərmanını imzalatmışdır. Bayqara həqiqəti öyrənəndə artıq iş-işdən keçmişdir. Bu qorxunc hadisə Bayqara qədər Nəvayini də can evindən vurmuş, onsuz da zəif olan səhhətini büsbütün korlamışdır. Özünə yer tapa bilməyən Əlişir Nəvayi 1498-ci ildə Məşhədə getmiş, oradan da həccə yola düşmək istəmiş, lakin yolların təhlükəli olması üzündən bu planını gerçəkləşdirə bilməmişdir. Ömrü boyu evlənməyən, ailə

səadətinin, oğul-uşaq sevincinin nə olduğunu bilməyən Nəvayi dərin bir bədbinliyə qapılmış, 3 yanvar 1501-ci ildə Heratda vəfat etmiş və Qüdsiyyə camisinin yanında hələ öz sağlığında hazırlatdığı yerdə dəfn olunmuşdur. Qədirbilən dostu Sultan Hüseyn Bayqara şairin ölümünə dərindən üzülmüş və ölkə üzrə milli matəm elan etmişdir.

Nəvayi çağatay dövrünün və ədəbiyyatının ən böyük şairidir. Çağatay termini barədə bir neçə kəlmə demək lazımdır. Çağatay (1227-1242) Çingiz xanın ikinci oğludur. Atasının ölümündən sonra onun payına düşən torpaqlarda qurulan dövlətin, siyasi sistemin, mədəniyyətin, nəhayət, dilin adıdır. Çağatayın və övladlarının hakimiyyəti 1370-ci ilə qədər davam etmiş, həmin il fe'lən Əmir Teymurun əlinə keçmişdir. Lakin Çingiz yasasına görə xanlıq, yəni ali hakimiyyət zahirən, formal olaraq Çağatay soyundan birinin əlində imiş kimi davam etmişdir. Bunun bir səbəbi də Teymurun xan deyil, əmir olması idi. Əmir Teymur hər dəfə monqol soyundan birini rəsmən taxta çıxarmış, lakin dövləti faktiki olaraq özü idarə etmişdir. Dövlətdə monqol dövrü tamamilə bitdikdən sonra da mədəniyyət və dil hələ uzun müddət ətalətlə çağatay mədəniyyəti və dili adlandırılmaqda davam etmişdir. Teymur soyundan gələn sultanlara və şahzadələrə mirzə deyə (əmirzadə sözünün qısaldılmış şəlki) xitab edilmişdir.

Nəvayinin əsərlərini divanlar, xəmsə, təzkirələr, dil-ədəbiyyat, dini-əxlaqi, tarixi və bioqrafik əsərlər, habelə sənədlər olmaqla səkkiz qrup halında toplamaq mümkündür. Bunlar arasında şairin divanları xüsusi yet tutur. Dördü türkcə, biri farsca olan bu divanların hamısı dərindən araşdırılmışdır. Şərq ədəbiyyatında dörd divan yazıb tərtib etmək ən'ənəsi xəmsə yazmaq qədər vacibdir. Buna çardivan, yəni çahar divan, yəni dörd divan deyilir.

Şairin uşaqlıq və yeniyetməlik çağında yazdığı **Qəraib üssiğər** (Uşaqlıq çağının qəribəlikləri) adlı divanında 650 qəzəl

(4.975 beyt), 1 müstəzad (7 beyt), 3 müxəmməs (57 beyt), 1 müsəddəs (27 beyt), 1 məsnəvi (148 beyt), 1 tərcibənd (100 beyt), 50 qitə (138 beyt) və 133 rübai (266 beyt) vardır. Bu divanda müxtəlif janrlarda 840 şeir və ya 5.718 beyt toplanmışdır.

Gənc yaşlarında qələmə aldığı **Nəvadir üş-şəbab** (Gənclik çağının nadirəlikləri) adını daşıyan divana 650 qəzəl (4.998 beyt), 1 müstəzad (7 beyt), 3 müxəmməs (52 beyt), 1 müsəddəs (27 beyt), 1 tərcibənd (103 beyt), 1 tərkibənd (56 beyt), 50 qitə (126 beyt), 52 (54 beyt) müəmma daxildir. Bu divandakı şeirlərin ümumu sayı 759, beytlərin sayı 5.423-dür.

Bədayi ül-vəsət (Orta yaş çağının gözəllikləri) adlı üçüncü divan 650 qəzəl (5.001 beyt), 1 müstəzad (7 beyt), 2 müxəmməs (30 beyt), 2 müsəddəs (42 beyt), 1 tərcibənd (56 beyt), 1 qəsidə (91 beyt), 60 qitə (127 beyt), 10 loğaz (40 beyt) və 13 tuyuğdan (26 beyt) ibarətdir. Şairin 35-45 yaşları arasında yazdığı bu divana cəmi 740 şeir (5.420 beyt) daxildir.

Əişir Nəvayinin son divanı **Fəvaid ül-kibər** (Qocalıq çağının faydalı öyüdləri) adlanır. Burada şairin 650 qəzəli (5.029 beyt), 1 müstəzadı (7 beyt), 2 müxəmməsi (37 beyt), 1 müsəddəsi (21 beyt), 1 müsəmməni (28 beyt), 1 tərcibəndi (110 beyt), 1 saqinaməsi (458 beyt), 50 qitəsi (112 beyt), 86 müfrədi (86 beyt) vardır. Bunlar onun həyatının son dövrlərində qələmə aldığı əsərlərdir. Bu divan üzrə şeirlərin cəmi 793, beytlərin sayı 5.888-dir. Beləliklə, şairin türkcə divanları üzrə 2.600 qəzəli (20.003 beyt), 4 müstəzadı (28 beyt), 10 müxəmməsi (177 beyt), 5 müsəddəsi (117 beyt), 1 müsəmməni (28 beyt), 4 tərcibəndi (369 beyt), 1 tərkibəndi (56 beyt), 1 məsnəvisi (148 beyt), 1 saqinaməsi (458 beyt), 210 qitəsi (503 beyt), 133 rübaisi (266 beyt), 52 müəmması (54 beyt), 10 loğazı (40 beyt), 13 tuyuğu (26 beyt), 86 müfrədi (86 beyt), 1 qəsidəsi (91 beyt) və 210 qitəsi (503 beyt) vardır.

Fars dilində Fani təxəllüsü ilə yazdığı divanda isə 468 qəzəl, 1 müsəddəs, 36 qitə, 67 rübai, 16 tarix, 341 müəmma, 84 müfrəd və 6 loğaz yer alır. Bu da türkcə və farsca divanlarda janrlar üzrə cəmdə 3.068 qəzəl, 4 müstəzad, 10 müxəmməs, 6 müsəddəs, 4 tərcibənd, 246 qitə, 497 müəmma, 170 müfrəd, 16 loğaz, 13 tuyuğ, 16 tarix, bir neçə tərkibənd, qəsidə və s. deməkdir.

Böyük şairin **Məcalis ün-nəfais**, **Nəsaim ül-məhəbbət** adlı iki təzkirəsi onun yaradıcılığında mühüm yer tutur, çünki onlarda o dövrün görkəmli adamları haqqında son dərəcə qiymətli məlumatlar var, birincidə 459, ikincidə 770 şəxsin mükəmməl bioqrafiyası verilmişdir. Bunlar türkcə yazılan ilk təzkirələr, Dövlətşah Səmərqəndinin **Təzkirət üş-şüəra** əsərindən sonra ilk sanballı mənbələrdir. Şairin dildən və əruzdan bəhs edən **Mühakimət ül-lüğəteyn** və **Mizan ül-övzan** kitabları dilimizə çevrilsə də, bunu ədəbiyyatdan bəhs edən **Risaleyi-müəmma** əsəri haqqında demək mümkün deyil. Böyük mütəfəkkirin dini-didaktik əsərləri onun fəlsəfi görüşlərini əks etdirməsi baxımından çox maraqlıdır. Bunlardan **Münacat**, **Çehel hədis**, **Lisan üt-teyr**, **Nəzm ül-cəvahir**, **Sirac ül-müslimin**, **Məhbub ül-qülub** xüsusilə diqqətəlayiqdir. Eyni sözləri onun tarixi əsərləri **(Tarixi-ənbiya və hükəma**, **Tarixi-müluki-əcəm)** haqqında da deyə bilərik. Nəvayinin bioqrafik (**Haləti-Seyyid Həsən Ərdəşir**, **Xəmsət ül-mütəhəyyirin**, **Haləti-Pəhləvan Məhəmməd**) və sənədli əsərləri də (**Münşəat** və **Vəqfiyyə)** son dərəcə böyük maraq kəsb edir.

Nəvayi əsərlərinin xüsusi bir qrupunu xəmsə təşkil edir. Nizami tərəfindən əsası qoyulan bu ən'ənə üç dahi şair tərəfindən ən üstün səviyyədə yerinə yetirilmişdir. Bunlar Əmir Xosrov Dəhləvi, Əbdürrəhman Cami və Əlişir Nəvayidir. **Heyrət ül-əbrar**, **Leyli və Məcnun**, **Fərhad və Şirin** mənzumələrinə yazdığımız giriş məqalələrində bu əsərlər və onların müəllifləri barədə yetərli məlumat

vermişik. **Səddi-İskəndəri** əsəri haqqında məlumatdan əvvəl tarixdə və ədəbiyyatda İskəndər surəti barədə qısaca danışmaq lazımdır.

Tarixdəki İskəndər e.ə. 20 iyul 356-cı ildə Pelledə anadan olmuşdur. Makedoniya kralı II Filippin oğludur. Atası bir sui-qəsdə qurban gedincə iyirmi yaşında taxta çıxmış, qısa müddət ərzində ətraf ölkələri tutaraq Şərqə yönəlmiş, müasir Anadolu, Misir, Suriya, Livan, Fələstin, Kipr, İraq, İran, Azərbaycan, Orta Asiya, Əfqanıstan, Pakistan və Hindistanı əhatə edən möhtəşəm bir imperiya qura bilmişdir. E.ə. 10/11 iyun 323-cü ildə Babildə 33 yaşında vəfat etmiş, imperiyası qısa müddət ərzində param-parça olmuşdur.

Gerçək İskəndər zamanla Zülqərneynlə qarışdırılmış, şəxsiyyəti folklorik səciyyə qazanmış, əfsanə, rəvayət və əsatirlərlə içiçə keçmiş, az qala peyğəmbər səviyyəsinə qaldırılmışdır. Şərq düşüncəsinə görə, o, Nuhun oğlu Yafəsin soyundandır, ancaq peyğəmbər olub-olmaması açıq şəkildə bildirilməmişdir. Onun haqqında ilk əsər e.ə. 300-cü illərdə yunanca qələmə alınmışdır. Burada o, misirli zalım bir hökmdar kimi təsvir edilmişdir.

İskəndər haqqıda X əsr tarixçiləri Həmzə ibn Həsən əl-İsfahani və Təbərinin əsərlərində, Biruninin **Qədim xalqlardan qalan yadigarlar** kitabında məlumat verilmişdir. İslam ədəbiyyatında İskəndər surətinə ilk dəfə **Şahnamə** əsərində rast gəlirik. Onun haqqında yazılmış ən populyar əsər isə Nizaminin **İskəndərnamə** poemasıdır. Əsərin **Şərəfnamə** adlanan hissəsində İskəndər bir qəhrəman və fateh kimi, **İqbalnamə** adlı qismində isə bir filosof və peyğəmbər kimi təsvir edilir. Nizamidən fərqli olaraq Nəvayi İskəndərə peyğəmbərlik vəsfləri yükləməmişdir. Daha sonra Əmir Xosrov Dəhləvi və Əbdürrəhman Cami də xəmsə silsiləsindən İskəndərə xüsusi mənzumə həsr etmişlər. Şair Əşrəf isə İskəndərin Sərəndib (Seylon) adasına səyahəti haqda poema qələmə almışdır. Osmanlı şairlərindən Əhmədi, Fiqani, Həyati və Əhməd Rizvanın da İskəndəri vəsf edən əsərləri var.

Əlişir Nəvayinin **Səddi-İskəndər** poemasına gəlincə, bu əsərin bəzi fərqli cəhətlərini qeyd etməliyik. Ən əsas fərq poemanın türkcə, yəni çağayatca yazılmasıdır. Bu çox əlamətdar faktdır, zira xəmsənəvis dörd dühadan üçü (Nizami Gəncəvi, Əmir Xosrov Dəhləvi və Əlişir Nəvayi) milliyyətcə türk olsa da, onlardan üçü (Nizami, Dəhləvi və Cami) öz əsərini farsca, yalnız biri (Əlişir Nəvayi) türkcə qələmə almışdır! Bu, ümumtürk mədəniyyəti və ədəbiyyatı baxımından müstəsna əhəmiyyət kəsb edən bir olaydır! Bütün poemalarda olduğu kimi şair burada da öz əsərini türkcə yazmaqdan duyduğu dərin məmnuniyyəti dilə gətirmiş, **Mühakimət ül-lüğəteyn** əsərində bəyan etdiyi milli və ədəbi kredosuna sadiq qaldığını bir daha göstərmişdir.

İkinci əsas fərq süjet xəttinin digərlərinə bənzəməməsi, orijinal olmasıdır. Poema 89 bölmədən ibarətdir ki, bunların bir qisminin İskəndərlə yaxından-uzaqdan əlaqəsi yoxdur. Poema yalnız 15-ci hissədən etibarən İskəndərdən bəhs edir. Ona qədər olan bölmələr tövhid, münacat, nət, merac, sözün tərifi, Nizami, Dəhləvi, Cami, Sultan Hüseyn Bayqara, pişdadi, kəyani, əşkani və sasani sülalələri haqqındadır. Başqa bir bölmə himmət, başqa biri ədalət və zülm, digəri şah Məsudla atası Mahmud barədədir. Bunların dışında, düşmənçilik və ədavət, Çingiz və xarəzmşah, Əbu Səid Gürəgən, qış fəslinin özəllikləri, Leylidən Məcnuna gələn məktub, xorasanlı iki şəxsin dostluğu, uşaqlıq və gəncliyin gözəlliyi, bir tacirin başına gələnlər, doğruluğun tərənnümü, Ərdəşirlə Ərdəvan arasındakı anlaşmazlıq, müsafir və ev sahibi, israf və xəsislik, Bəhram Gurun ov səhnəsi, bülbül və qarğanın mübahisəsi, ayrılıq və hicran, qəfəsdəki quş, Loğmanla bağlı iki epizod, əli kəsilən məzlum haqqında bölmələr İskəndərin həyatı və fəaliyyəti ilə bağlı deyildir. Şair bu bölmələri oxucunu çox yormamaq üçün əsərin müxtəlif yerlərinə səpələmiş, özünün fəlsəfi-didaktik görüşlərini ifadə etmək

üçün qələmə almışdır. Bunlar özlüyündə çox gözəl ədəbi nümunələrdir, buna görə də oxucu onları zövqlə oxuyur.

Əsərdə İskəndərin cahangirliyi, yeni torpaqlar tutmaq istəyi, lakin bütün fütuhatları sülh yolu ilə təmin etmək arzusu konkret misallarla göstərilir. İskəndər yeni ölkələrə yaxınlaşdıqda hər dəfə şahlara elçi göndərərək onları döyüşsüz təslim olmağa çağırır, boş yerə qan tökülməsini istəmir və əksər hallarda buna nail olur. Onu İran şahı Dara, Çin xaqanı və Kəşmir hökmdarı ilə müharibəsi zamanı ədalətli bir kral kimi görürük. O, fəth etdiyi yerlərdə qaydaqanun yaradır, ədaləti bərpa edir, sadə xalqın dərdini dinləyir, müvafiq islahatlar aparır. İskəndər bütün dünyanı tutduqdan sonra dənizləri və okeanı fəth etməyi öz qarşısına məqsəd qoyur, minlərlə gəmi inşa etdirir, uzunmüddətli səfərlərə çıxır, dənizlərin sirrini öyrənir.

Bir gün Keyruvan ölkəsinin yanından keçərkən buralarda vəhşi yə'cucların yaşadığını, insanlara çox zülm etdiklərini öyrənir. O yerdə qalaraq yə'cucları qırıb-çatır, bir daha insanlara əziyyət verə bilməmələri üçün onların qarşısına aşılması əsla mümkün olmayan möhtəşəm bir sədd çəkir. Əsər öz adını məhz bu hadisədən alır.

İskəndərin Daranın qızı Rövşənək və Kəşmir hökmdarının qızı Mehri-Naza bəslədiyi sevgi də Nəvayi tərəfindən çox gözəl və duyğulu şəkildə təsvir edilmişdir. Ümumən poemanın dili, işlənən ifadə vasitələri və poetik fiqurlar insanı heyran edir. Nəvayi xəmsəsinin zirvə əsəri kimi sənətkarlıq baxımından mükəmməl bir poema olan **Səddi-İskəndəri** türk dilinin ən parlaq nümunələrindən biridir. Aparılan hesablamalara görə, bu əsərdə 6.327 sözdən istifadə edilmişdir. Bunların 1.249-u türk, 2.379-u ərəb, 2.270-i fars, 2-si isə yunancadır. Əsərdə 124 tarixi və əfsanəvi şəxs adı, 74 coğrafi ad, 11 qövm adı işlənmişdir.

Nəvayi xəmsəsinin ümumi həcmi barədə bunları göstərə bilərik: **Heyrət ül-əbrar** 3.988 beyt, **Fərhad və Şirin** 5.679 beyt,

Leyli və Məcnun 3.622 beyt, **Səb'ayi-səyyar** 5.009 beyt, **Səddi-İskəndəri** isə 7.215 beytdən ibarətdir. Beləliklə, Nəvayi xəmsəsinin ümumi həcmi 25.513 beyt təşkil edir ki, bu, Firdövsinin **Şahnamə** əsərinin təqribən yarısı deməkdir.

Poemanın son bölməsi çox maraqlıdır. Burada Nəvayi öz ustadı Cami ilə söhbət edir, xəmsəni necə yazdığı barədə ona məlumat verir, əvvəlcə bu işə tərəddüdlə yanaşdığını, sonra ürəkləndiyini bildirərək hər bir əsərini qısaca xarakterizə edir:

Çü «Heyrət»ə saldım könül rəğbətin,
Ona qalib etdim ulus heyrətin.

Çü «Fərhad»a oldum əndişəvər,
Düz etdim bəsi dağ olub tişəvər.

Çü «Məcnun» hədisinə düzdum fünun,
Bəsi xəlqi qıldı şeyda cünun.

Yenə «Səb'a»yə təb'im olcaq qərin,
Eşitdim yeddi çərxdən afərin.

İskəndərə dil çəkib azər kimi,
Dedim onu «Səddi-İskəndər» kimi.

Nəvayi bildirir ki, Nizami kimi bir dühanın otuz, Dəhləvi kimi bir dahinin on il əmək sərf edərək yazdığı xəmsəni iki ilə yaxın müddət ərzində qələmə almaq üçün çox məşəqqət çəkmiş, üstəlik, sabahdan axşama qədər xalqın dərdləri ilə uğraşmış, faktiki olaraq öz xəmsəsini 6 aya tamamlamışdır. Cami onun kürəyini oxşayır.

Bu arada huş aləminə dalan Nəvayi özünü ətirli bir bağçada görür. Burada xeyli mö'təbər insan var. Onlardan biri Nəvayiyə ya-

xınlaşaraq özünün Həsən Dəhləvi olduğunu bildirir, bu məclisdə dahi qələm sahiblərinin toplandığını söyləyir, Nəvayini onlarla görüşməyə dəvət edir. Nəvayi bu təklifi sevinclə qarşılayır, ikisi birlikdə dahilərə doğru üz tuturlar. Aralarında yüz qulaclıq bir məsafə qalanda məclisdəkilər ayağa qalxırlar. Dəhləvi adlarını söyləyərək onları tək-tək təqdim edir. Burada kimlər yoxdur?!

Çü Sə'di vü Firdövsi vü Ünsüri,
Sanayi vü Xaqani vü Ənvəri.

Xəmsə müəllifi Nizami, Əmir Xosrov Dəhləvi və Əbdürrəhman Cami də buradadır. Nəvayi Əmir Xosrovla Caminin müşayiəti ilə ustad Nizamiyə yaxınlaşır, onu izzü hörmətlə salamlayıb əlini öpür. Nizami də öz növbəsində onu gülər üzlə qarşılayır. Aralarında səmimi ixtilat olur. Şeyx qısa müddət ərzində çox gözəl bir xəmsə yazdığı üçün Nəvayini təbrik edir, əsərlərinin üstün məziyyətlərindən söz açır, onu seçkin bəndə adlandırır, hər əhli-qələmə belə səadətin nəsib olmadığını söyləyir. Nəvai bunlara huş-guşla qulaq asır, sonra şaha, yəni Sultan Hüseyn Bayqaraya dua etməsini xahiş edir. Nizami sözü Əmir Xosrova verir. O da öz növbəsində şaha və səltənətinə dua edib uğurlar arzulayır. Dua bitincə hamı bir ağızdan amin deyir. Bu əsnada Nəvayi öz xəmsəsini qoynundan çıxararaq yerə qoyur və ağlaya-ağlaya deyir:

Ki, himmət tutub ehtimam etdiniz,
Deməz mən ki, siz tamam etdiniz.

Kərəm birlə tufrağdan həm alın,
İnayət qılıb bir nəzər həm salın

Ki, el xatirinə nüzul eyləsin,

Ulus könlü onu qəbul eyləsin.

Nizami xəmsəni yerdən götürür. Onun işarəsi ilə bu dəfə Cami dua oxuyur, hamı amin deyir. Elə bu dəm Nəvayi özünə gələrək Caminin evində olduğunu görür. Cami ondan nə baş verdiyini soruşur və Allaha şükr etməsini söyləyir. Nəvayi yeri öpüb evdən çıxır və Allaha həmd-səna edərək xəmsəni bitirir.

Əlişir Nəvayi sənətinin digər bir xüsusiyyəti artıq beş əsrdən bəri türkdilli şairlərə dərin təsir göstərməsidir. Məsələn, Azərbaycanda onlarca şair Nəvayinin əsərlərinə nəzirələr yazmış, Füzuli, Qövsi Təbrizi, Kişvəri, Həqiqi kimi ünlü sənətkarlar onun təsiri altında çağatayca şeirlər qələmə almışlar. Firudin bəy Köçərlinin yazdığına görə, Azərbaycanda bu ənənə XIX əsrədək davam etmişdir.

Əlişir Nəvayi osmanlı şairləri tərəfindən də çox sevilən bir sənətkar olmuşdur. Onlar Nəvayinin təsiri ilə çağatayca şeirlər yazmışlar. Bu sevgi tənzimat dövründən sonra da davam etmişdir. Türk şairlərindən Əhməd Dai (1330-1427), Qayğısız Abdal (1397-1444), Qaramanlı Nizami (XV əsr), Bəxti (vəfatı: 1512), Səlimi (I Sultan Səlim, 1470-1520), Nədim (1681-1730), Şeyx Qalib (1757-1799), Ziya Paşa (1825-1880) və başqaları onun şeirlərinə nəzərilər qələmə almışlar. Bu təsir o qədər güclü olmuşdur ki, osmanlı sahəsində Nəvayinin şeirlərini daha yaxşı anlamaq üçün **Əl-lüğət ül-Nəvaiyyə və l'istişhaddat ül-çağataiyyə** adlı xüsusi lüğət də yazılmışdır.

Əlişir Nəvayinin təsiri dil baxımından olmasa da, sənət və mənəviyyat baxımından bugün də Türk Dünyasında davam edir. Əsrlərcə sürən bu təsirin bundan sonra da əsrlər boyu sürəcəyinə heç bir şübhə yoxdur! Zira Əlişir Nəvayi zamana və məkana sığmayan dahi bir şairdir.

ƏDƏBİYYAT:

Azərbaycan dilində:

1. Araslı Həmid. Böyük özbək şairi (Ə.Nəvai haqqında) // Azərbaycan SSR EA Xəbərləri, 1946, №1, s. 73-92.
2. Araslı Həmid. Böyük şair / Ə. Nəvai. "Fərhad və Şirin" kitabı. – Bakı, Azərnəşr, 1968, s. 3-11.
3. Araslı Həmid. Əlişir Nəvai. (500 illik yubileyi münasibətilə) // "Ədəbiyyat qəzeti", 30 yanvar 1939.
4. Araslı Həmid. Nəvai və Füzuli // "Ədəbiyyat və incəsənət" qəzeti, 30 may 1980.
5. Araslı Həmid. Nizami və Nəvai // "Ədəbiyyat qəzeti", 12 mart 1940.
6. Babur Zəhirəddin Məhəmməd. Baburnamə. Tərcümə edən: Ramiz Əskər. Bakı, BXQR, 2011, 432 s.+ 32 s.
7. Əlişir Nəvai Azərbaycan ədəbiyyatşünaslığında. – Bakı, Qartal, 2009, 360 s.
8. Əlişir Nəvai və Azərbaycan ədəbiyyatı. – Bakı, Nurlan, 2017, 72 s.
9. Əliyev Qulamhüseyn. Özbək ədəbiyyatının dahisi // "Azərbaycan gəncləri" qəzeti, 01 oktyabr 1968.
10. Köçərli Firidun. Azərbaycan ədəbiyyatı tarixinə dair materiallar. I cild, I hissə. – Bakı, Azərnəşr, 1925, 464 s.
11. Quliyev Elman. Qədim və orta əsrlər türk xalqları ədəbiyyatı. – Bakı, ADPU, 2012, 116 s.
12. Quliyev Elman. Orta əsrlər türk xalqları ədəbiyyatı. – Bakı, ADPU-nun nəşri, 2010, 67 s.

13. Quliyev Elman. Özbək ədəbiyyatı. – Bakı, ADPU-nun nəşri, 2009, 110 s.

14. Quliyev Elman. Türk xalqları ədəbiyyatı. – Bakı, Contant Empary, 2011, 568 s.

15. Quliyev Elman. Türk xalqları ədəbiyyatı. – Bakı, Elm və Təhsil, 2017, 632 s.

16. Quliyev Elman. Türk xalqları ədəbiyyatının yaradıcılıq problemləri. – Bakı, ADPU, 2010, 142 s.

17. Quluzadə Mirzəağa. Fərhad və Şirin // «Kommunist» qəzeti, 27 avqust 1948.

18. Nağiyeva Cənnət. Azərbaycanda Nəvai. – Bakı, Tural-Ə nəşriyyat-poliqrafiya mərkəzi, 2001, 264 s..

19. Nağiyeva Cənnət. Klassiklərimizin əsərləri Nəvai kitabxanasında // "Ədəbiyyat və incəsənət", 10 yanvar 1976.

20. Nağiyeva Cənnət. Nəvai və Azərbaycan şairləri // Azərbaycan SSR EA Xəbərləri, 1985, №1, s. 22-26.

21. Nağiyeva Cənnət. Nəvai yaradıcılığının Azərbaycanda öyrənilməsi tarixindən // "Elm və həyat", 1973, №12, s. 24-25.

22. Nağiyeva Cənnət. Özbək ədəbiyyatında Füzuli ənənələri. – Bakı, Nurlan, 2005, 76 s..

23. Nəvai Əlişir. Fərhad və Şirin (tərcümə edənlər M.Rahim, M.Dilbazi və b.). − Bakı: Uşaqgəncnəşr, 1968, 311 s..

24. Nəvai Əlişir. Mizan ül-övzan (qeyd və şərhlərin müəllifi T.Quliyev). − Bakı, Nurlan, 2006, 148 s.

25. Nəvai Əlişir. Münşəat. − Bakı, Azərnəşr, 1926, 88 s..

26. Nəvai Əlişir. Seçilmiş əsərləri (şərhlər, ön söz və lüğətin müəllifi H.Araslı). − Bakı, Öndər, 2004, 423 s..

27. Nəvai Əlişir. Seçilmiş şeirləri (müqəddimə və tərcümə S. Rüstəmindir). − Bakı: Gənclik, 1975, 96 s..

28. Nəvai Əlişir. Vəqfiyyə. − Bakı, Azərnəşr, 1926, 55 s..

29. Nəvai Əlişir. Yeddi səyyarə (poemadan parçalar, tərcümə edən Ə. Ziyatay). − Bakı: Yazıçı, 1979, 124 s..

30. Saləddin Əli. Özbəkistandan töhfə // "Ədəbiyyat və incəsənət" qəzeti, 18 mart 1986.

31. Ülvi Almaz. Azərbaycan-özbək (cığatay) ədəbi əlaqələri (dövrlər, simalar, janrlar, təmayüllər). – Bakı, 2008, 328 s.

32. Ülvi Almaz. Dahi Nəvai və Azərbaycan ədəbiyyatşünaslığı // Filologiya məsələləri, 2007, №6, s. 427-436.

33. Ülvi Almaz. Nəvai irsi və Azərbaycan // "Xalq qəzeti", 10 fevral 2007.

34. Ülvi Almaz. Nəvaişünas alim Cənnət Nağıyeva // "Respublika" qəzeti, 19 may 2007.

35. Ülvi Almaz. Özbək ədəbiyyatı (ədəbi portret cizgiləri, araşdırmalar, müsahibələr). Elmi redaktoru və ön söz müəllifi akademik İsa Həbibbəyli. – Bakı, "Elm və təhsil", 2016, 216 s.

Özbək dilində:

36. Абдуғафуров А. "Хазойин ул-маоний"дан четда қолган ғазаллар// Навоийнинг ижод олами (мақолалар тўплами). – Т.: Фан, 2001.

37. Аёзий Мирзо Муҳаммад Ҳайдар. Тарихи Рашидий. – Т.: O'zbekiston, 2011. – 704 б.

38. Акбарова М. Алишер Навоий ғазалларида қофия: Филол. фан. номз. дис. ... автореф. – Т.: 1997. – 20 б.

39. Алишер Навоий "Хамса"си (мақолалар тўплами). Тадқиқотлар. – Т.: Фан, 1970.

40. Алишер Навоий ижодий ва маънавий меросининг оламшумул аҳамияти (халқаро илмий-назарий анжуман материаллари). – Т.: O'zbekiston, 2011. – 176 б.

41. Алишер Навоий: 1441-1501 йил. Адабиётлар кўрсаткичи / Туз. З.Бердиева, А.Туропова. – Т., 1991.

42. Алишер Навоий: қомусий луғат. 1-2-жилдлар / Масъул муҳаррир Ш.Сирожиддинов. – Т.: Sharq, 2016.

43. Аҳмедов Т. Алишер Навоийнинг "Лайли ва Мажнун" достони. – Т.: Фан, 1970. – 140 б.

44. Ғаниева С. Алишер Навоий: Ҳаёти ва ижоди – Т.: Фан, 1968. – 148 б.

45. Ғаниева С. Алишер Навоийнинг прозаик асарлари. –Т.: Ўзбекистон,1981. – 37 б.

46. Ғаниева С. Навоий ёдга олган асарлар. – Т. – 2009.

47. Зоҳидов Л. “Девони Фоний” бадииятига доир мулоҳазалар // Адабиёт кўзгуси. – Т, 2010. – № 10.

48. Исҳоқов Ё. Навоий поэтикаси. – Т.: Фан, 1983. – 168 б.

49. Қаюмов А. Садди Искандарий. – Т.: Адабиёт ва санъат нашриёти, 1975. – 196 б.

50. Қаюмов А. “Ҳайрат ул-аброр” талқини. – Т.: Ғ. Ғулом номидаги Адабиёт ва санъат, 1985.

51. Қаюмов А. Ишқ водийси чечаклари: А.Навоий ижоди ҳақида. – Т.: Адабиёт ва санъат, 1985. –256 б.

52. Қаюмов А. Нодир саҳифалар. Навоийнинг кам ўрганилган баъзи асарлари тўғрисида. – Т.: Фан, 1991. – 144 б.

53. Лисонут тайр (насрий баёни билан) / Таҳрир ҳайъати: А.Қаюмов ва бошқ. – Т.: Адабиёт ва санъат, 1991. - 464 б.

54. Мамадалиева З. Лисон ут-тайр” достонидаги рамзий образлар тизими. Филол.фан.номз.дисс. – Т., 2011. – 26 б.

55. Мирзаев С. Навоий арузи: Филол. фан. номз. дисс. ... автореф. – Тошкент, 1946.

56. Муҳиддинов М. Алишер Навоий ва унинг салафлари ижодида инсон концепцияси (“Хамса”ларнинг биринчи достонлари асосида): Филол. фан. докт. дис. ... автореф. – Т.: 1995. – 60 б.

57. Навоий Алишер. Айёми висол ўлди яна: Янги топилган ғазаллар (Нашрга тайёрловчи Ф.Сулаймонова). – Т.: Адабиёт ва санъат нашриёти, 1995.

58. Навоий Алишер. Бадоеъ ул-бидоя. МАТ. 20 жилдлик. – Т.: Фан, 1987. Т. 1. – 723 б.

59. Навоий Алишер. Бадоеъ ул-васат. ТАТ. 10 жилдлик. – Т.: Ғафур Ғулом номидаги НМИУ, 2011. Ж.3. – 764 б.

60. Навоий Алишер. Ғаройиб ус-сиғар. ТАТ. 10 жилдлик. – Т.: Ғафур Ғулом номидаги НМИУ, 2011. Ж.1. – 804 б.

61. Навоий Алишер. Лайли ва Мажнун (насрий баён муаллифи В.Раҳмонов, Н.Норқулов). – Т.: Адабиёт ва санъат, 1990. – 365 б.

62. Навоий Алишер. Лайли ва Мажнун. МАТ. 20 жилдлик. – Т.: Фан, 1992. Т. 9. – 356 б.

63. Навоий Алишер. Лисон ут-тайр. Мажолис ун-нафоис. Маҳбуб ул-қулуб. Муншаот. Вақфия. ТАТ. 10 жилдлик. – Т.: Ғафур Ғулом номидаги НМИУ, 2011. Ж.9. – 768 б.

64. Навоий Алишер. Лисонут-тайр. МАТ. 20 жилдлик. – Т.: Фан, 1996.Т. 12. – 326 б.

65. Навоий Алишер. Мажолис ун-нафоис. МАТ. 20 жилдлик. – Т.: Фан, 1997. Т.13. – 284 б.

66. Навоий Алишер. Маҳбуб ул-қулуб, Муншаот, Вақфия. МАТ. 20 жилдлик. – Т.: Фан, 1998. Т.14. – 303 б.

67. Навоий Алишер. Муҳокамат ул-луғатайн. Мезон ул-авзон. Тарихи анбиё ва ҳукамо. Тарихи мулуки Ажам. Арбаъин. Сирож ул-муслимин. Муножот. Рисолаи тийр андохтан. МАТ. 20 жилдлик. – Т.: Фан, 2000. Т. 16. – 336 б.

68. Навоий Алишер. Наводир ун-ниҳоя. МАТ. 20 жилдлик. – Т.: Фан, 1987. Т. 1. – 620 б.

69. Навоий Алишер. Наводир уш-шабоб. ТАТ. 10 жилдлик. – Т.: Ғафур Ғулом номидаги НМИУ, 2011. Ж.2. – 772 б.

70. Навоий Алишер. Насойим ул-муҳаббат. МАТ. 20 жилдлик. – Т.: Фан, 2001. Т. 17. – 519 б.

71. Навоий Алишер. Сабъаи сайёр (насрий баёни билан) / Таҳрир ҳайъати: А.Қаюмов ва бошқ. – Т.: Адабиёт ва санъат, 1991. – 544 б.

72. Навоий Алишер. Сабъаи сайёр. МАТ. 20 жилдлик. – Т.: Фан, 1992. Т. 10. – 448 б.

73. Навоий Алишер. Садди Искандарий (насрий баёни билан) / Таҳрир ҳайъати: А.Қаюмов ва бошқ. – Т.: Адабиёт ва санъат, 1991. - 832 б.

74. Навоий Алишер. Садди Искандарий. МАТ. 20 жилдлик. – Т.: Фан, 1993. Т. 11. – 640 б.

75. Навоий Алишер. Фавойид ул-кибар. ТАТ. 10 жилдлик. – Т.: Ғафур Ғулом номидаги НМИУ, 2011. Ж.4. – 840 б.

76. Навоий Алишер. Фарҳод ва Ширин (насрий баёни билан) / Таҳрир ҳайъати:А.Қаюмов ва бошқ. – Т.: Адабиёт ва санъат, 1989.- 246 б.

77. Навоий Алишер. Фарҳод ва Ширин. МАТ. 20 жилдлик. – Т.: Фан, 1991. Т. 8. – 544 б.

78. Навоий Алишер. Хазойин ул-маоний: Бадоеъ ул-васат МАТ. 20 жилдлик. – Т.: Фан, 1990. Т. 5. – 541 б.

79. Навоий Алишер. Хазойин ул-маоний: Ғаройиб ус-сиғар. МАТ. 20 жилдлик. – Т.: Фан, 1988. Т. 3. – 616 б.

80. Навоий Алишер. Хазойин ул-маоний: Фавойид ул-кибар. МАТ. 20 жилдлик. – Т.: Фан, 1990. Т. 6. – 568 б.

81. Навоий Алишер. Хамса: Лайли ва Мажнун. Сабъаи сайёр. ТАТ. 10 жилдлик. – Т.: Ғафур Ғулом номидаги НМИУ, 2011. Ж.7. – 696 б.

82. Навоий Алишер. Хамса: Садди Искандарий. Тарихи анбиё ва ҳукамо. Тарихи мулуки Ажам. ТАТ. 10 жилдлик. – Т.: Ғафур Ғулом номидаги НМИУ, 2011. Ж.8. – 712 б.

83. Навоий Алишер. Хамса: Ҳайрат ул-аброр. Фарҳод ва Ширин. ТАТ. 10 жилдлик. – Т.: Ғафур Ғулом номидаги НМИУ, 2011. Ж.6. – 808 б.

84. Навоий Алишер. Хамсат ул-мутаҳаййирин. Ҳолоти Саййид Ҳасан Ардашер. Ҳолоти Паҳлавон Муҳаммад. Назм ул-тавоҳир МАТ. 20 жилдлик. – Т.: Фан, 1999. – Т. 15. – 236 б.

85. Навоий Алишер. Ҳайрат ул-аброр. МАТ. 20 жилдлик. – Т.: Фан, 1991. Т. 7. – 392 б.

86. Навоий Алишер. Ҳайратул-аброр (насрий баёни билан) / Таҳрир ҳайъати: А.Қаюмов ва бошқ: -Т.: Адабиёт ва санъат нашриёти, 1989.- 352 б.

87. Навоий Алишер. Ҳолоти Саййид Ҳасан Ардашер. Ҳолоти Паҳлавон Муҳаммад. Назм ул-жавоҳир. Насойим ул-муҳаббат. Муҳокамат ул-луғатайн. Мезон ул-авзон. Арбаъин. Сирож ул-муслимин. Муножот. ТАТ. 10 жилдлик. – Т.: Ғафур Ғулом номидаги НМИУ, 2011. Ж.10. – 692 б.

88. Навоий Алишер.Хазойин ул-маоний: Наводир уш-шабоб. МАТ. 20 жилдлик. – Т.: Фан, 1989. Т. 4. – 557 б.

89. Рустамов А. Навоийнинг бадиий маҳорати. – Тошкент: Адабиёт ва санъат, 1979. – 216 б.

90. Сирожиддинов Ш. Алишер Навоий: манбаларнинг қиёсий-типологик, текстологик таҳлили. – Т.: Akademnashr, 2011. – 326 б.

91. Сирожиддинов Ш. Навоий замондошлари эътирофида. – Самарқанд: Зарафшон, 1996. – 65 б.

92. Сирожиддинов Ш.С. Алишер Навоий ҳаёти ва фаолиятига оид XV-XIX асрларда яратилган форс-тожик манбалари (қиёсий-типологик, текстологик таҳлил): Филол. фан. докт. дисс. ... автореф. – Т.: 1998. – 45 б.

93. Султон Иззат. Навоийнинг қалб дафтари. – Т.: Ғафур Ғулом номидаги НМИУ, 2010.

94. Ҳайитметов А. Навоийхонлик суҳбатлари. – Т.: Ўқитувчи, 1993. – 216 б.

95. Ҳаққул И. Навоийга қайтиш. – Т.: Фан, 2007. – 224 б.

96. Ҳасанов С. Навоийнинг 7 туҳфаси. – Т.: Адабиёт ва санъат, 1991. – 192 б.

97. Ҳожиаҳмедов А. Навоий арузи нафосати. – Т.: Фан, 2006. – 288 б.

98. Шарипов Ш. “Лисонут тайр” ҳақиқати. – Т.: Маънавият, 1998. 160 б.

99. Эркинов А. Навоийнинг мухлислари томонидан тузилган яна бир девони // Ўзбек тили ва адабиёти. – Т.: Фан, 2012. – № 1.

100. Эркинов А.С. Алишер Навоий “Хамса”си талқинининг XV-XX аср манбалари: Филол. фан. докт. дисс. … – Т.: 1998. – 220 б.

101. Эркинов А.С. Алишер Навоийнинг пейзаж яратиш маҳорати (“Садди Искандарий” достони мисолида): Филол. фан. номз. дисс. … – Т.: 1990. – 121 б.

102. Эркинов С. Навоий «Фарҳод ва Ширин»и ва унинг қиёсий таҳлили. – Т., 1971, - 276 б.

103. Эркинов С. Шарқ адабиётида Фарҳод қиссаси. – Т.: Фан, 1985. – 64 б.

104. Эркинов С., Ғанихонов М. Низомий Ганжавий. – Т.: Фан, 1992. – 68 б.

105. Юсупова Д. Алишер Навоий “Хамса”сида мазмун ва ритмнинг бадиий уйғунлиги. – Т.: Mumtoz so’z , 2011. – 144 б.

106. Юсупова Д. Ўзбек мумтоз адабиёти тарихи (Алишер Навоий даври). – Т.: Академнашр, 2013. – 272 б.

107. Юсупова Д. Ўзбек мумтоз ва миллий уйғониш адабиёти (Алишер Навоий даври). – Т.: Tamaddun, 2016. – 304 б.

Rus dilində:

108. Абдуллаев В. Навои в Самарканде. – Самарканд, 1941.

109. Алиев Г. Ю. Темы и сюжеты Низами в литературах народов Востока. – М.: Наука, 1985. – 366 с.

110. Бартольд В.В. Мир Али Шир и политическая жизнь. Сочин. в IX томах. – М.: Наука, 1964. Т. II. Ч.2.

111. Бертельс Е. Э. Навои и Джами. – М., 1965.

112. Бертельс Е. Э. Навои. Опыт творческой биографии. – М.-Л., 1948.

113. Бертельс Е.Э. Низами и Физули. – М.: Наука, 1962. – 552 с.

114. Бертельс Е.Э. Низами. Творческий путь поэта. – М.: Наука, 1956.

115. Захидов В. Мир идей и образов Алишера Навои. – Т., 1961.

116. Навои А. Афоризмы –Aphorisms. – Т.: Укитувчи, 1991.

117. Навои А. Возлюбленная сердец. – Т.: Изд-во лит. и искусства, 1983.

118. Навои А. Друга я не нашёл: Газели. – Т.: Изд-во лит. и искусства, 1988.

119. Навои А. Пять поэм. – М.: Худ. лит., 1972.

120. Навои А. Стена Искандера / Пер. с узб. Н. Айшов. – Алма-Ата: Жазушы, 1989.

121. Навои А. Стихотворения и поэмы / Вступ. ст. Камиля Яшена; сост. и примеч. А. П. Каюмова. – Л.: Сов. писатель, 1983. – 920 с.

122. Навои А. Стихотворения и поэмы. – М., 1965.

123. Навои А. Язык птиц / Пер. С. Н. Иванов. – 2-е изд. – СПб.: Наука, 2007.

124. Нагиева Дж. Алишер Навои и азербайджанская литература. Автореф. дисс. д-ра филолог. наук. – Баку, 1986, 51 с..

125. Нагиева Дж. Бакинские рукописи Алишера Навои. – Баку, Элм, 1986, 136 с.

126. Нарзуллаева С.Н. Тема “Лейли и Меджнун” в истории литературы народов Советского Востока: Афтореф. дисс. …док. филол. наук. – Баку, 1980. – 49 с.

127. Свидина Е. Д. Алишер Навои. Биобиблиография (1917–1966). – Ташкент, 1968.

128. Творческие связи узбекской литературы: об азербайджанско-узбекских литературных связях. – Т., Фан, 1983,101 с.

129. Хайитметов А. Творческий метод Навои. – Т., 1965.

130. Хасанов С. Роман о Бахраме. – Ташкент: Издательство литературы и искусства, 1988. – 208 с.

131. Эргашев К. Некоторые аспекты государственной деятельности Алишера Навои. – Т.: Фан, 2009.

132. Эркинов А.С. Источники интерпретации “Хамса” Алишера Навои в XV-XX вв. : Афтореф. дисс. … док. филол. наук. – Т., 1998. – 52 с.

Rrof. Dr. Ramiz ƏSKƏR

1954-cü ildə Gümrünün Amasiya rayonuna bağlı Qaraçanta kəndində (hazırda Ermənistan sərhədləri içindədir) doğuldu. Orta məktəbi qızıl medalla bitirərək 1972-ci ildə Bakı Dövlət Universitetinin jurnalistika fakültəsinə daxil oldu, 1975-ci ildə M.V.Lomonosov adına Moskova Dövlət Universitetinin jurnalistika fakültəsinə keçdi və 1978-ci ildə məzun oldu.

1978-83-də *Azərbaycanın Səsi* radiosunda çalışdı.

1983-84-də Azərbaycan, türk, ərəb, fars, ingilis, fransız və alman dillərində çıxan *Azərbaycan bugün* jurnalının baş redaktoru oldu.

1984-91-də latin, kiril və ərəb əlifbalarıyla nəşr olunan *Odlar yurdu* qəzetinin baş redaktoru oldu.

1991-93-də *Hürriyet* qəzeti (İstanbul) və Uluslararası Haber Ajansının (UHA) Azərbaycan müxbiri oldu.

1993-97-də *Yeni Forum* jurnalının (Ankara) təmsilçisi oldu.

1993-94-də Xarici Turizm Şurasının idarə rəisi işlədi.

1994-96-da *XXI əsr* qəzetinin baş redaktoru oldu.

1992-97-də Azərbaycan Jurnalistlər Birliyinin katibi oldu (ictimai əsaslarla).

1997-dən Azərbaycan Jurnalistlər Birliyinin baş katibidir (ictimai əsaslarla).

2002-2006-da Bakı Dövlət Universiteti türkologiya kafedrasında işlədi, azərbaycanca və rusca *Türk mədəniyyət tarixi*, *Türkologiyanın əsasları*, *Divanü lüğat-it-türk*, *Kitabi-Dədə Qorqud*, *Qutadğu Bilig*, *Manas* dərsləri dedi.

2007-2012-də filologiya fakültəsi bədii tərcümə elimi-tədqiqat laboratoriyasının müdiri oldu. 2012-də türk xalqları ədəbiyyatı kafedrasının, 2016-da türkologiya kafedrasının müdiri seçildi.

Namizədlik dissertasiyasını *Qutadğu Bilig* üzrə, doktorluq dissertasiyasını *Divanü lüğat-it-türk* üzrə yazdı.

Jurnalistika sahəsində Qızıl qələm, Həsən Bəy Zərdabi, Humay, Türkiyənin Yeni Orhun, Küveytin İslama xidmət mükafatlarını aldı. Akademik araşdırmalarına və tərcümələrinə görə Türkiyənin Türk Dünyasına xidmət və Qızıl alma ödüllərinə, Özbəkistanın Babur, Türkmənistanın Altın əsr, Ukraynanın Bəkir Çobanzadə, Rusiyanın Qaysın Quliyev, Beynəlxalq Türk Akademiyasının Vilhelm Tomsen mükafatına, TürkSOY-un Özəl ödülünə, Qazaxıstanın, Türkmənistanın, Qırğızıstanın, Tatarıstanın və TÜRKSOY-un medallarına layiq görüldü.

Beynəlxalq Mətbuat İnstitutunun (İPİ, Vyana) və Avrasiya Yazarlar Birliyinin (Ankara) üzvüdür.

50-dən artıq beynəlxalq simprozium və konfransda iştirak etdi.

2010-da Azərbaycanın əməkdar jurnalisti fəxri adına, 2014-də Azərbaycanın "Şöhrət" ordeninə layiq görüldü.

Türkologiya, ədəbiyyat, tarix və jurnalistika sahələrində kitablar yazdı. Türk, rus, özbək, qazax, türkmən, qırğız, tatar, başqırd, qaqauz dillərindən tərcümələri var.

Yazdığı kitablar:

1. İqlimdən iqlimə, təqvimdən təqvimə. Bakı: İşıq, 1987, 104 s.
2. Qutadğu Bilig. Bakı: Elm, 2003, 320 s.
3. M.K.Atatürk TBMM-in banisidir. Bakı: Milli Məclis mətbəəsi, 2003, 26 s.
4. Mahmud Kaşğari və onun Divanü lüğat-it-türk əsəri. Bakı: MBM, 2008, 432 s.
5. Mahmud Kaşğarinin 1000 illik yubileyinə 1000 biblioqrafik göstərici. Bakı: MBM, 2008, 96 s.

6. Mahmud Kaşğarinin Divanü lüğat-it-türk əsəri üzrə biblio-qrafik və qrammatik göstərici. Bakı: MBM, 2008, 192 s.

7. Mahmud Kaşğari və onun Divanü lüğat-it-türk əsəri. Bakı: MBM, 2008, 532 s.

8. Mahmud Kaşğarinin Divanü lüğat-it-türk əsərinin tədrisi. Bakı: MBM, 2010, 192 s.

9. Türk xalqları ədəbiyyatı. Bakı: MBM, 2011, 320 s.

10. Orxon abidələri. Bakı: Elm və təhsil, 2012, 272 s.

11. Kutadgu Bilig Bibliyografyası. Bakü: BXQR, 2016, 192 s.

12. Bağımsızlık Dönemi Azerbaycan Edebiyatı. Bakü: 2016, 280 s.

13. Kitabi-Dədə Qorqud biblioqrafiyası. Bakı: BXQR, 2017, 1-ci cild, 624 s.

14. Kitabi-Dədə Qorqud biblioqrafiyası. Bakı: BXQR, 2017, 2-ci cild, 336 s.

15. Yusuf Balasagunlu ve Kutadgu Bilig Bibliyografyası. Bakü: BXQR, 2017, 336 s.

16. Qutadğu Bilig hikmətləri. Bakı: BXQR, 2017, 136 s.

17. "Kitabi-Dədə Qorqud"un üçüncü əlyazması. Bakı, 2019, 160 s.

Tərcümə etdiyi kitablar:

1. Azerbaycan Masalları. Türkiyə Türkcəsinə. Bakı: Yazıcı, 1982, 196 s.

2. M.B.Məmmədzadə. Milli Azərbaycan hərəkatı. Türkcə-dən. Bakı: Nicat, 1991, 248 s.

3. Faruq Sümər. Oğuzlar. Türkcədən. Bakı: Yazıçı, 1992, 432 s.

4. Yusif Balasağunlu. Qutadğu Bilig. Əski türkcədən. Bakı: Azərnəşr, 1994, 492 s.

5. Murad Tağı. Həyatım. Türkcədən. Bakı: Oka ofset, 1998, 92 s.

6. Erik Fichtelius. Jurnalistikanın on qızıl qaydası. Ruscadan. Bakı: AJB, 2002, 192 s.

7. Bahəddin Ögəl. Türk mifologiyası. Türkcədən. Bakı: Səda, 2004, I cilt, 626 s.

8. Mahmud Kaşğari. Divanü lüğat-it-türk. Əski türkcədən. Bakı: Ozan, 2006, I cild, 512 s.

9. Mahmud Kaşğari. Divanü lüğat-it-türk. Əski türkcədən. Bakı: Ozan, 2006, II cild, 400 s.

10. Mahmud Kaşğari. Divanü lüğat-it-türk. Əski türkcədən. Bakı: Ozan, 2006, III cild, 400 s.

11. Mahmud Kaşğari. Divanü lüğat-it-türk. Əski türkcədən. Bakı: Ozan, 2006, IV cild, 752 s.

12. N.Ozerov. İlham Əliyev: Mən Azərbaycanıma inanıram. Ruscadan. Bakı: Azərnəşr, 2007, 376 s.

13. Mahmud Kaşğari. Divanü lüğat-it-türk. Ruscaya. Bakı: MBM, 2009, I cild, 512 s.

14. Mahmud Kaşğari. Divanü lüğat-it-türk. Ruscaya. Bakı: MBM, 2009, II cild, 400 s.

15. Mahmud Kaşğari. Divanü lüğat-it-türk. Ruscaya. Bakı: MBM, 2009, III cild, 492 s.

16. Oraz Yağmur. Qarabağlı ananın ağısı. Türkməncədən. Bakı: MBM, 2009, 84 s.

17. XX əsr özbək şeiri antologiyası. Özbəkcədən. Bakı: MBM, 2009, 96 s.

18. Molla Nəfəs. Bu məkana gəlmişəm. Türkməncədən. Bakı: MBM, 2010, 160 s.

19. Molla Nəfəs. Seçilmiş əsərləri. Türkməncədən. Bakı: MBM, 2010, 240 s.

20. Todur Zanet. Ana dilim. Qaqauzcadan. Bakı: MBM, 2010, 104 s.

21. Məxdumqulu Fəraqi. Seçilmiş əsərləri. Türkməncədən. Ankara-Bakı: 2010, 448 s.

22. Türk ədəbiyyatı tarixi. Türkcədən. Bakı: MBM, 2010, 602 s., I c.

23. Türk ədəbiyyatı tarixi. Türkcədən. Bakı: MBM, 2010, 658 s., II c.

24. Nurməhəmməd Əndəlib. Şeirlər. Poemalar. Dastanlar. Türkməncədən. Bakı: MBM, 2011, 292 s.

25. Zəhirəddin Məhəmməd Babur. Seçilmiş əsərləri. Çağataycadan. Bakı: MBM, 2011, 328 s.

26. Sultan Hüseyn Bayqara. Divan. Çağataycadan. Bakı: MBM, 2011, 248 s.

27. Abdulla Tukay. Millətim. Tatarcadan. Bakı: MBM, 2011, 268 s.

28. Abdulla Tukay. Seçilmiş əsərləri. Tatarcadan. Bakı: Nağıl Evi, 2011, 268 s.

29. Mehri Xatun. Divan. Türkcədən. Bakı: MBM, 2011, 368 s.

30. Zəhirəddin Məhəmməd Babur. Baburnamə. Çağataycadan. Bakı: BXQR, 2011, 432 s.+ 32 s. rəngli miniatür.

31. Qurbanqulu Berdimühəmmədov. Axaltəkə atı. Türkməncədən. Bakı: CBS, 2011, 232 s.

32. Türkmən şeiri antologiyası. Türkməncədən. Bakı: 2011, MBM, 400 s.

33. Abdulla Şahbəndə. Seçilmiş əsərləri. Türkməncədən. Bakı: MBM, 2011, 104 s.

34. Türkmən müəmmaları, deyişmələri və vücudnamələri. Türkməncədən. Bakı: MBM, 2011, 128 s.

35. Monqolların gizli tarixi. Türkcədən, ruscadan, almancadan. Bakı: MBM, 2011, 360 s.

36. Əli Ağbaş. Seçilmiş şeirləri. Türkcədən. Bakı: Elm və təhsil, 2011, 150 s.

37. Bəkir Çobanzadə. Seçilmiş şeirləri. Kırım-tatarcadan. Bakı: Nurlan, 2011, 160 s.

38. Bəkir Çobanzadə. Seçilmiş bədii əsərləri. Kırım-Tatarcadan. Bakı: BXQR, 2012, 240 s.

39. Dövlətməmməd Azadi. Seçilmiş əsərləri. Türkməncədən. Bakı: Nurlan, 2012, 264 s.

40. Faruq Sümər. Oğuzlar (Türkmənlər). Türkcədən. Bakı: BXQR, 2013, 456 s.

41. Gülzura Cumakunova. Toktoqul. Qırğızcadan. Eskişehir: 2014, 320 s.

42. Qız Cibək. Qazaxcadan. Bakı: BXQR, 2016, 244 s.

43. Rəcəb Albayraq. Türklərin İranı. Türkcədən. Bakı: Mütərcim, 2016, I cild, 628 s.

44. Rəcəb Albayraq. Türklərin İranı. Türkcədən. Bakı: Mütərcim, 2016, II cild, 628 s.

45. İbrahim Qəfəsoğlu. Türk milli kültürü. Türkcədən. Bakı: BXQR, 2017, 474 s.

46. Osman Turan. Türk cahan hakimiyyəti məfkurəsi tarixi. Türkcədən. Bakı: BXQR, 2017, 546 s.

47. Robert Minnullin. Bülbüllərin toyu. Tatarcadan. Bakı: BXQR, 2018, 184 s.

48. Mağcan Cumabay. Ölüm, mənə ağı de. Qazaxcadan. Bakı. BXQR, 2018, 112 s.

49. Mağcan Cumabay. Türküstan. Qazaxcadan. Ankara, 2018, 192 s.

Evlidir, üç övladı var.

Türkcə, rusca, almanca və ermənicə bilir.

Telefon: (99 050) 354-24-41

E-mail: ramizasker@gmail.com

Uluslararası Türk Kültürü Təşkilatı

TÜRKSOY kitabxanası seriyası – 39

Azərbaycan Milli Elmlər Akademiyası
Folklor İnstitutu Elmi Şurasının
qərarı ilə nəşr edilir

Elmi redaktor:
AMEA-nın həqiqi üzvü,
Pr.Dr. İsa HƏBİBBƏYLİ

Rəyçilər:
Pr.Dr. Dilnəvaz YUSUPOVA,
Dos.Dr. Nailə ƏSKƏR

Ramiz Əskər. Əlişir Nəvayi və onun xəmsəs. Bakı, 2020, 96 s.

Kompyuterdə yığdı: Şəfəq
Korrektor: Ülviyyə
Kompyuter tərtibatçısı:Fateh

Çapa imzalanmışdır: 22.11.2019
Kağız formatı: 60/84 1/32
Həcmi: 6 ç/v
Tirajı: 500